# Xocalı soyqırımından 34 il keçir


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 37 (31006) 26 fevral 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# 26 fevral 1992-ci il: İnsanlığın qətl gecəsi

## Dövlətimizin başçısının Lənkəran, Xocavənd və Xocalı rayonlarına səfəri

### *Prezident İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında*

**Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən publik hüquqi şəxs kimi fəaliyyət göstərir.

Müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada, eyni zamanda, informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb.

*(ardı 2-ci səhifədə)*



## Paşinyanın “IV respublika” axtarışı

### *Hadisələrin gedişi hökumət üçün yaşıl, yaxud qırmızı işığın yanacağını göstərəcək*



**Ermənistanda yaxınlaşan parlament seçkilərini son iki əsrdə xalqın yaddaşına həkk olunan siyasi mifologiya ilə yeni reallığın amansız mənzərəsi arasında gedən həlledici toqquşma kimi xarakterizə etmək olar. İrəvanın bugünkü sülh dileması əslində srağagün atılmış strateji yanlışların qaçılmaz məntiqi nəticəsinə çevrilib. Vaxtilə regional “bank”da bütün kartların öz əlində olduğunu zənn edən elit təbəqənin qoyub getdiyi miras bu gün ölkəni həm daxili sarsıntılar, həm də xarici asılılıqlar qarşısında sınağa çəkir.**

**(ardı 13-cü səhifədə)**

## XX əsrin Xocalı məhşəri



**Səhifə ⇨ 8**

## Xocalı harayı dünyanı dolaşır



**Səhifə ⇨ 10**

## Prezident İlham Əliyevin sosial media hesablarında Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edilib

**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı paylaşım edilib.**




## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-Sabaha

**Əlahəzrət!**

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən Azərbaycan-Küveyt dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Əminəm ki, Azərbaycan ilə Küveyt arasında ənənəvi dostluq əlaqələri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və daha da dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi və dost xalqınızı mübarək Ramazan ayının başlaması münasibətilə də ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Küveyt Dövlətinə daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir: “Xocalı soyqırımı bütün bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayətdir və yaddaşlardan heç vaxt silinməyəcəkdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.**



# Prezident İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında





(əvvəli 1-ci səhifədə)

2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, IT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.

Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, Günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.

Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir. Hazırda mərkəzdə 138 nəfər çalışır.

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi kadr hazırlığı istiqamətində dövlət və özəl sektoru təmsil edən 30-a yaxın müəssisə ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığa özəl sektorla birgə kadr hazırlığı, mütəxəssislərin tədrisə cəlb olunması, istehsalat təlimləri, ustad dərsləri, həmçinin sosial və innovativ layihələrin icrası daxildir.



# Xocavənd kəndində görülmüş işlərlə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış oldular.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verdi.

Bildirildi ki, Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxil olan bu kənd 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Burada ümumilikdə 278 fərdi ev var. Onlardan 128-i yararsız, 150-si isə qismən yararlıdır. Qismən yararlı evlərin 20-si artıq təmir olunub, bu il daha 130 evdə təmir işləri aparılacaq.

Bu ilin fevralında Xocavənd kəndinə 20 ailə - 94 nəfər qayıdıb. Cari ilin mart-dekabr aylarında kəndə daha 130 ailə - 533 nəfərin qayıtması planlaşdırılır.

Ötən müddət ərzində kənddə bir sıra sosialyönümlü işlər görülüb. Belə ki, 5 kilometr uzunluğunda daşıyıcı qaz xətti çəkilib, 1500 metr uzunluğunda mövcud xətt bərpa edilib. Bundan başqa, 2100 metr uzunluğunda 0,4 kV-luq mövcud xətlər və 2 transformator məntəqəsi bərpa olunub.

Kənddaxili yollar asfaltlanıb, piyada yolları çəkilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülmüş işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş sakin Rizvan İbrahimovun evində oldular və söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salamaleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban Əliyeva:** Xoş gördük.

**Digər qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Salam.

**Birinci xanım Mehriban Əliyeva:** Xoş gördük, salam, gözəl.

**Prezident İlham Əliyev:** Necə yerləşmisiniz?

**Kişi sakin:** Çox əla, hər şey əladır. Allah sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Keçin içəri.

**Prezident İlham Əliyev:** Ev şəraiti necədir?

**Kişi sakin:** Çox əladır, hər şey əladır.

**Prezident İlham Əliyev:** Yaxşı, razısınızmı?

**Kişi sakin:** Allah sizdən razı olsun. Allah sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm sizi, doğma Vətənə qayıtmaq münasibətilə.

**Kişi sakin:** Çox sağ olun, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Siz özünüz buralısınız?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Bu kənddə yaşamısınız?

**Kişi sakin:** Bəli. O vaxt rəhmətlik Ulu Öndər də gəlmişdi buraya.

**Prezident İlham Əliyev:** Bu kəndə gəlmişdi?

**Kişi sakin:** Bəli. Səhv etmirəmsə, 1979-cu ildə.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Kişi sakin:** Bakıda.

**Prezident İlham Əliyev:** Şərait necə idi?

**Kişi sakin:** Belə də, şükür. Amma burada olsaydıq, daha yaxşı olardı.

**Prezident İlham Əliyev:** İndi 35 ildən sonra buradasınız. Sizi neçənci ildə buradan çıxardıblar, 1991-də?

**Kişi sakin:** Vertolyot partlayan gün, həmin gün bizi çıxartmışdılar. Sonra vertolyotla gələndə onların da şahid etdilər.

**Prezident İlham Əliyev:** Buraya yaxınlıqda idi?

**Kişi sakin:** Bəli, Qarakənddə idi.

**Prezident İlham Əliyev:** Buradan oraya məsafə nə qədərdir?

**Kişi sakin:** 17 kilometrdir.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi. Xoşbəxt yaşayın doğma Qarabağ torpağında, doğma kəndinizdə.

**Qadın sakin:** Çox sağ olun, minnətdarıq.

**Kişi sakin:** Çox sağ olun, hamısı Sizin sayənizdə. Allah Sizi var eləsin. Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Çox sevinirik, sevincimizin həddi-hüdudu yoxdur.

**Kişi sakin:** Siz bizə dünyanı bəxş etmisiniz, Quran haqqı. Nə deyiriksə, ürəkdən deyirik, elə-belə yox. Siz bizə yeni həyat vermisiniz.

**Qadın sakin:** Sizin, Mehriban xanımın bizim ailənin qonağı olmağınız bizim sevincimizi ikiqat artırıb. Bu qayğıya görə Sizə minnətdarıq, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, siz buna layiqsiniz. Uzun illər köçkün həyatı yaşamısınız əzab-əziyyət içində. Artıq o dövr tarixdə qaldı.

**Kişi sakin:** Allah köməyiniz olsun, Allah Sizi var eləsin.

**Birinci xanım Mehriban Əliyeva:** Gəlin, birlikdə şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Bəli, gedək.

Burada maldarlıq üçün yaxşı şərait var. Su necə?

**Kişi sakin:** Var, buranın hər yeri münbitdir. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Həyətyanı sahə də var?

**Kişi sakin:** Var, 15 sot torpaq var.

**Prezident İlham Əliyev:** Torpaq yəqin ki, ayrılacaq.

**Kişi (rəsmi şəxs):** Həyətyanı sahə 20 sotdan çoxdur.

**Prezident İlham Əliyev:** Mal-qaran da var, yoxsa yox?

**Kişi sakin:** İnşallah, olacaq.

**Prezident İlham Əliyev:** Əlbəttə, olmalıdır.

**Kişi (rəsmi şəxs):** Burada heyvandarlıq kompleksləri, fermalar var.

**Prezident İlham Əliyev:** Yəni dolanışıq burada yaxşı olacaq.

**Qadın sakin:** İnşallah.

**Prezident İlham Əliyev:** Artıq sizdən asılıdır, dövlət nə lazımdırsa edib.

**Kişi sakin:** Əlbəttə, Allah dövlətimizi qorusun, Sizi qorusun, ailənizi qorusun, nəvələrinizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.

# Prezident İlham Əliyev Xocavənd şəhərində

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhərində görülmüş işlərlə tanış oldular.**

Dövlətimizin başçısına və birinci xanıma şəhərdə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edilib. Şəhər 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub. Elə həmin il oktyabrın 15-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Xocavənd şəhərində Dövlət Bayrağımızı ucaldıb.

Xocavənd rayonunun ərazisi 1,51 min kvadratkilometrdir. Əhalisinin sayı isə 12 min 500 nəfərdir. Rayonun ərazi vahidinə 1 şəhər, 2 qəsəbə və 80 kənd daxildir.

Prezident İlham Əliyevə Xocavənd şəhərində əsaslı təmirdən sonra istifadəyə verilmiş fərdi evlər barədə məlumat verildi.

Xocavənddə 980 fərdi ev mövcuddur ki, onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək.

Xatırladaq ki, bir neçə gün əvvəl Xocavənd şəhərinə 50 ailə - 194 nəfər qayıdıb. Ötən ilin sentyabrından indiyədək isə Xocavəndin 5 yaşayış məntəqəsinə - Xocavənd şəhərinə 50 ailə (194 nəfər), Qırmızı Bazar qəsəbəsinə 142 ailə (604 nəfər), Sos kəndinə 85 ailə (360 nəfər), Hadrut qəsəbəsinə 58 ailə (233 nəfər), Xocavənd kəndinə isə 20 ailə (94 nəfər) olmaqla, ümumilikdə 1485 nəfər - 355 ailə qayıdıb.



Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd şəhərinə köçmüş İlqar Həsənovun evində oldular və söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salamaleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Mehriban xanım, bizə şərəfdir ki, evimizə təşrif buyurmusunuz.

**Kişi sakin:** Fəxr edirəm ki, Sizin komandanlığınız altında döyüşlərdə iştirak etmişəm.

**Prezident İlham Əliyev:** Füzuli və Xocavənd… Buranı azad etmisən?

**Kişi sakin:** Hazırda da Müdafiə Nazirliyində hərbi xidmətimi davam edirəm.

**Qadın sakin:** Xoş gəlmisiniz. Bizim üçün şərəfdir ki, bu gün Siz bizim evimizdəsiniz. Yəni böyük gündür, həqiqətən. Həmişə danışırdım, deyirdim, Xocavəndi o qədər həsrətlə gözləyirəm, orada yaşamağı çox həsrətlə istəyirəm. İndi çox şadam ki, mənim övladlarım burada böyüyəcəklər.

**Prezident İlham Əliyev:** İnşallah. Çox gözəl. Şərait də yaxşıdır. Eviniz necədir?

**Kişi sakin:** Minnətdarıq. Çox gözəldir, Ali Baş Komandan.

**Prezident İlham Əliyev:** Sən özün harada doğulmusan?

**Kişi sakin:** Xocavənd rayonunun Axullu kəndində.

**Prezident İlham Əliyev:** Axullu. Uzaqdır buradan?

**Kişi sakin:** Xeyr, buradan çox uzaq deyil.

**Digər qadın sakin:** Xoş gəlmisiniz. Nə böyük şərəf.

**Kişi sakin:** Anamdır. İsti çörəyimiz var, təzə.

**Digər qadın sakin:** Xoş gəlmisiniz, Mehriban xanım, bizi şərəfləndirdiniz.

**Birinci xanım Mehriban Əliyeva:** Allah sizə cansağlığı versin.

**Digər qadın sakin:** Allah Sizi də saxlasın. Sizin sayənizdə öz torpaqlarımıza qayıtmışıq, minnətdarıq.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

**Digər qadın sakin:** Biz də Sizi təbrik edirik, çox sağ olun. Nəvələrim burada böyüyəcək, ən böyük şərəfdir. Xoş gəlmisiniz Siz də.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Kişi sakin:** İşğal dövründə Xəzər rayonunun Buzovna qəsəbəsində qaçqınlar üçün salınmış düşərgədə.

**Prezident İlham Əliyev:** Bakıda, Buzovnadakı düşərgədə?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Sən də orada doğulmuşdun?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Ev şəraiti necədir?

**Qadın sakin:** Çox gözəl, hər şey yaxşıdır, təşəkkür edirik Sizə.

**Prezident İlham Əliyev:** Siz də dadına baxın, təndir çörəyidir.

**Qadın sakin:** Nuş edin, nuş olsun.

**Prezident İlham Əliyev:** Sən də hərbi hissədə xidmət edirsən?

**Kişi sakin:** Bəli, cənab Prezident.

**Prezident İlham Əliyev:** Siz nə işlə məşğul olursunuz?

**Qadın sakin:** Mən Azərbaycan dili və ədəbiyyat müəllimiyəm.

**Digər qadın sakin:** Mehriban xanım, gəlişinizdən çox şərəf duyuram.

**Birinci xanım Mehriban Əliyeva:** Mən də çox xoşbəxtəm sizi görməyimə.

**Digər qadın sakin:** Biz də çox xoşbəxtik Sizi görməyə.

**Prezident İlham Əliyev:** Əsas odur ki, doğma Qarabağ torpağındasınız.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Xocavənd şəhərində

(əvvəli 2-ci səhifədə)

**Qadın sakin:** Əsas odur ki, bu gün bu azadlığı yaşayırıq, bu müstəqilliyi yaşayırıq. Qalan şeylər hamısı düzələcək. Təmirdir, məktəbdir - hamısı olacaq, bəli.

**Digər qadın sakin:** Allah canınızı sağ eləsin.

**Kişi sakin:** Düşməni də qovmuşuq.

**Digər qadın sakin:** Allah canınızı sağ eləsin. Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Düzdür, qovmuşuq.

**Qadın sakin:** Amin. Allah Sizi qorusun, xalqımıza çox görməsin. Həmişə sülh olsun, əmin-amanlıq olsun.

**Prezident İlham Əliyev:** Bundan sonra sülh olacaq.

**Digər qadın sakin:** Allah ömür versin Sizə.

**Qadın sakin:** Bizim eşitdiyimiz o bomba səsini, güllə səsini bu uşaqlar bir daha eşitməsinlər.

**Prezident İlham Əliyev:** Eşitməyəcəklər.

**Kişi sakin:** Ali Baş Komandanımız onlara elə bir dərs verdi ki, onlar bir daha ayağa qalxan deyillər.

**Prezident İlham Əliyev:** Bu, şanlı tariximizdir. Əlbəttə, Zəfər tarixi qürur mənbəyimizdir. Elə igidlər hesabına biz torpaqlarımızı azad etdik.



**Kişi sakin:** Sizin sayənizdə, "dəmir yumruğ"un sayəsində.

**Qadın sakin:** Mən daha çox qürurluyam. Çünki həm hərbçi bacısıyam, həm də şəhid bacısıyam.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Həm də həyat yoldaşım hərbçidir.

**Prezident İlham Əliyev:** Xocavəndin, Füzulinin azad olunmasında iştirak edib və yüksək təltiflərlə də mükafatlandırılıb.

**Qadın sakin:** Bəli, Sizin imzanızla. Çox sağ olun.

**Prezident İlham Əliyev:** İndi Azərbaycan elə güclüdür, əminəm ki, bundan sonra heç kim bizə qarşı torpaq iddiası ilə çıxış edə bilməz. Ona görə sülh, əmin-amanlıq olmalıdır, heç bir itki olmamalıdır. Amma güclü Ordumuz da hər zaman olmalıdır ki, bunu biz təmin edək. Onu da edirik.

**Qadın sakin:** Sayənizdə, cənab Prezident. Bunların hamısı sayənizdə oldu.

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva:** Gəlin, birlikdə şəkil çəkdirək.

*

Sonra xatirə şəkilləri çəkdirildi.

*

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi, sağ olun.

**Qadın sakin:** Evimizə qonaq olun. Çox sağ olun, cənab Prezident. Şərəfdir bizim üçün.

# Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüş






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb söhbət ediblər.

**Sakinləri salamlayan Prezident İlham Əliyev dedi:** Necəsiniz?

**Kişi sakin:** Şükür bu günümüzə.

**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz.

**Qadın sakin:** Çox şükür.

**Digər qadın sakin:** Xoş gəldiniz Xocavəndə.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Qadın sakin:** Çox şükür bu günümüzə, qədəmləriniz mübarək olsun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Digər qadın sakin:** Çox sağ olun, özümüzü xoşbəxt hiss edirik.

**Kişi sakin:** Sizin sayənizdə alınan bu torpaqlara xoş gəlmisiniz, biz də xoş gəlmişik.

**Prezident İlham Əliyev:** Bəli, siz məndən bir qədər tez gəlmisiniz - bir neçə gün.

**Kişi sakin:** Sağ olun, Allah Sizi var eləsin.

**Qadın sakin:** Amin!

**Kişi sakin:** Ən böyük xoşbəxtlikdir ki, Siz rəhmətlik atanızın vəsiyyətini yerinə yetirdiniz.

**Prezident İlham Əliyev:** Elədir, düzdür.

**Kişi sakin:** Sağ olun.

**Prezident İlham Əliyev:** Hamısı medallardır - Cəbrayıl, Şuşa, Füzuli, Xocavənd. Bütün torpaqları azad etmisiniz.

**Vətən müharibəsinin iştirakçısı:** Bəli, Sizin sayənizdə, Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Vətən müharibəsinin iştirakçısı:** Çox sağ olun.

**Qadın sakin:** Xoş gəlmisiniz, cənab Prezident. Çox sevinirik ki, bu xoşbəxt günü bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Xoş gəlmisiniz, cənab Ali Baş Komandan.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Kişi sakin:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük.

**Kişi sakin:** Allah Sizi qorusun, cənab Prezident, yaşasın güclü Azərbaycan! Allah qorusun Sizi, ailənizlə birlikdə.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Sağ olun, cənab Prezident, təşəkkür edirik Sizə ki, bu torpaqları qaytardınız.

**Prezident İlham Əliyev:** Sağ olun. Doğma Qarabağ torpağına qayıtmağınız münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada rahat yaşayacaqsınız, xoşbəxtlik içində, sülh, əmin-amanlıq içində yaşayacaqsınız.

**Sakinlər:** Sizin sayənizdə, inşallah.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Uzun illər əzab-əziyyət içində yaşamısınız. Köçkün həyatı ağır həyatdır, həm mənəvi əzablar, həm fiziki çətinliklər, öz doğma torpağını tərk edib başqa yerə, hətta Azərbaycanın içində olsa belə getmək və əzab-əziyyət içində yaşamaq böyük sınaqdır. Siz bu sınaqdan şərəflə çıxmısınız. Əminəm ki, bütün Azərbaycan xalqı, siz də hər zaman inanırdınız ki, bu gün gələcək və bu torpaqları biz azad edəcəyik, ədaləti bərpa edəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Bildiyiniz kimi, vaxtilə işğal edilmiş torpaqların böyük hissəsi beş il bundan əvvəl Vətən müharibəsi zamanı azad olunsa da, Xocavənd hələ də işğal altında qalmışdı və xocavəndlilər də hesab edirdilər ki, nə vaxtsa vəziyyət dəyişəcək. Əminəm, cəmiyyətdə inam var idi ki, bir qarış torpaq da düşmənin tapdağı altında qalmayacaq və biz buna da nail olduq. Artıq iki ildən çoxdur ki, bütün əraziyə - Azərbaycan dövlətinin suveren ərazisinə biz nəzarət edirik. Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır.

İndi isə quruculuq vaxtıdır və burada artıq dövlət sizin üçün şərait yaradıb. Evlərin bəziləri bərpa edilib, yenidən qurulub. Bu proses davam etdiriləcək. On minlərlə Azərbaycan vətəndaşı artıq azad edilmiş torpaqlarda yaşayır və onlardan təqribən 30 minə yaxını keçmiş köçkünlərdir. Bildiyiniz kimi, biz əsas bu son 4-5 il ərzində infrastruktur layihələrinə vəsait ayırırdıq. Çünki yaşamaq üçün əsas ilkin şərtlər olmalıdır - elektrik, qaz, su, yollar, körpülər, tunellər. İndi isə daha çox yaşayış evlərinin tikintisi, bərpası məsələlərinə vəsait ayrılacaq. Ona görə "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək.

Burada iş yerləri də yaradılır, həm dövlət xətti ilə, həm ictimai təşkilatların xətti ilə və əlbəttə ki, özəl sektor. Burada yaşayan insanların əksəriyyəti vaxtilə kənd təsərrüfatı ilə məşğul idi. Siz yaxşı bilirsiniz ki, bu bölgənin çox gözəl təbiəti var, münbit torpağı var, suyu var, bulaqları var, hər şey var. Əsas odur ki, insanlar artıq burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək.

**Sakinlər:** Amin, inşallah!

**Prezident İlham Əliyev:** Bunun üçün də hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq. Necə ki, inamla baxırıq və yaşayırıq.

Sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzu edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Qadın sakin:** Bu günümüzə şükür. Həmişə yığıncaqlarımız olanda deyirdim ki, belə yığıncaqlarımız Qarabağda olsun. Bu gün arzumuza çatmışıq. Özümüzü o qədər xoşbəxt hiss edirik ki, biz öz torpağımıza, Vətənimizə gəlmişik. Beş gündür burada yaşayırıq. Vallah, heç acmırıq, təmiz oksigenlə nəfəs alırıq.

**Prezident İlham Əliyev:** Hava görün necə gözəldir.

**Qadın sakin:** Çox sağ olun, şəhidlərimizin canı bahasına, qazilərimizin, hərbçilərimizin qanı bahasına, Sizin sayənizdə, siyasətiniz sayəsində torpaqlarımız azad olub, bu gün biz burada yaşayırıq. Özümüzü çox xoşbəxt hiss edirik.

**Prezident İlham Əliyev:** Çox şadam.

**Qadın sakin:** Çox sağ olun, Ulu Öndərin vəsiyyətini yerinə yetirmisiniz, Allah ona rəhmət eləsin, Allah Sizi qorusun, övladlarınızı qorusun!

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Bəli, buranın təbiəti çox gözəldir, havası təmizdir.

**Kişi sakin:** Bura Qarabağdır, cənnətdir.

**Prezident İlham Əliyev:** Siz işğal dövründə harada məskunlaşmışdınız?

**Kişi sakin:** Ağcabədidə.

**Prezident İlham Əliyev:** Ağcabədidə, dövlət tərəfindən verilmiş evdə?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Siz də gəlin.

**Birinci xanım Mehriban Əliyeva:** Şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Bəli, çəkdirək.

**Birinci xanım Mehriban Əliyeva:** Hamımız yerləşəcəyik?

**Prezident İlham Əliyev:** Bəli, gəlin.

***

Sonra xatirə şəkilləri çəkdirildi.

***

**Prezident İlham Əliyev:** Evlər necədir, yaxşıdır? Qaz var, işıq var, su var.

**Sakinlər:** Əladır, heç bir problem yoxdur, hər şey var.

**Prezident İlham Əliyev:** Həyətyanı sahələr də var.

**Kişi sakin:** Hamısı gözəldir. 15 sot həyətyanı sahə var, bundan artıq nə olmalıdır?

**Prezident İlham Əliyev:** 15 sot, hər şey əkə bilərsiniz.

**Kişi sakin:** Bəli, sağ olun. Mənim də adım İlhamdır.

**Prezident İlham Əliyev:** Eləmi? Çox yaxşı.

**Qadın sakin:** Amma bizim sakinlər həqiqətən qoçaq camaatdır. Hər bir şərait də yaradacaq, əkin-biçin, camaatımız çox qoçaq camaatdır.

**Prezident İlham Əliyev:** Bura təbii cənnətdir.

**Kişi sakin:** Allah Sizi qorusun, əsas məsələ odur ki, irəli gedək, amin!

**Prezident İlham Əliyev:** Elədir, elə də olacaq, ancaq irəli.

**Sakinlər:** Allah Prezidentimizi qorusun!

**Qadın sakin:** Cənab Prezident, neçə illər arzusunda olduğumuz, həsrətini çəkdiyimiz Xocavənd torpağında salamlayıram Sizi. Elimizə-obamıza, dədə-baba yurdumuza xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Qadın sakin:** Bu gün biz çox xoşbəxtik, ən xoşbəxt günlərimizi yaşayırıq.

**Prezident İlham Əliyev:** Elədir, siz layiqsiniz buna. Bu torpaqlar 35 il işğal altında qalıb.

**Qadın sakin:** Amma ümidlə yaşayırdıq ki, nə vaxtsa qayıdacağıq.

**Prezident İlham Əliyev:** İnanırdınız.

**Qadın sakin:** Bəli, inanırdıq.

**Kişi sakin:** Azərbaycan torpağı nə qədər varsa, Siz də, ailəniz də o torpağın üstündə var olasınız. Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin, amin!

**Prezident İlham Əliyev:** Sağ olun. Bundan sonra xalqımız sülh içində yaşayacaq, inşallah. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun.

**Kişi sakin:** Cənab Prezident, şəkil çəkdirə bilərik?

**Prezident İlham Əliyev:** Hə, çəkdirək.

**Kişi sakin:** 35 ildir gözləyirdik.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Şəhər tərəfdə.

**Prezident İlham Əliyev:** Bakıda?

**Kişi sakin:** Bakıda. Onun havasından qurtardıq, tıxacdan qurtarmışıq.

**Prezident İlham Əliyev:** Tıxac, toz-torpaq, külək. Siz harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Ağcabədidə.

**Qadın sakin:** Ağcabədidə ona görə yaşamışıq ki, Qarabağa yaxındır, 50 kilometr, tez qayıtmaq üçün.

**Prezident İlham Əliyev:** Hə, buradan çıxanda Ağcabədiyə köçdünüz?

**Qadın sakin:** Bəli, elə əvvəldən Ağcabədidə olmuşuq.

**Prezident İlham Əliyev:** Orada şərait necə idi?

**Qadın sakin:** Yaxşı idi, amma bilirdik ki, nə vaxtsa qayıdacağıq.

**Digər qadın sakin:** Torpağımızın yerini heç nə vermir.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Qadın sakin:** Dərman atanlar da dərman atmır buraya gələndən.

**Prezident İlham Əliyev:** Bax, burada hava dərmandır.

**Qadın sakin:** Həqiqətən elədir. Allah Sizi qorusun, övladlarınızı qorusun!

**Prezident İlham Əliyev:** Bütün Qarabağ böyük bir kurort zonasıdır.

**Qadın sakin:** "Dəmir yumruq" həmişə yerində olsun!

**Prezident İlham Əliyev:** Olacaq!

**Sakinlər:** Sağ olun, fəxr edirik ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sizə cansağlığı arzulayıram, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun.

**Kişi sakin:** Yaxşı yol. Mən 59 təvəllüdəm, Siz 62.

**Prezident İlham Əliyev:** Mən 61-əm.

**Qadın sakin:** Mən də 61-əm.

**Prezident İlham Əliyev:** Həm adaşıq, həm yaşıdıq.

**Qadın sakin:** Nəvəmin də adı İlhamdır. Allah İlhamları qorusun!

**Kişi sakin:** Allah Sizi qorusun! Yaxşı yol, sağ-salamat.

**Prezident İlham Əliyev:** Sağ olun.

# Prezident İlham Əliyev Xocalının Xanabad kəndində







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocalı rayonunun Xanabad kəndində görülmüş işlərlə tanış olublar.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma kənddə görülmüş işlər barədə məlumat verdi.

Xanabad Xocalı rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd Silahlı Qüvvələrimizin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

İşğaldan əvvəl kənddə orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Burada ölkə əhəmiyyətli XIII əsrə aid kilsə və IX əsrə aid "Aslan qalası" memarlıq abidələri var.

Kənddə ümumilikdə 276 ev var ki, onlardan da 115-i yararsız, 161-i isə qismən yararlıdır. İndiyədək 120 ev təmir olunub. Bu ilin sonunadək daha 41 ev istismara hazır olacaq. Bir neçə gün əvvəl 38 ailə - 154 nəfər kəndə qayıdıb.

Xanabadda bir sıra sosial layihələr icra olunub. Belə ki, mövcud 3 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa edilib, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyularında və su anbarında təmir işləri aparılıb, 2 yeni su anbarının qurulması işlərinə başlanılıb. Kəndin su təminatı üçün Əsgəran qəsəbəsinin ərazisində nasos stansiyası inşa edilib, kənddaxili yollar bərpa olunub. Kəndin girişində "Xanabad" kompozisiyası quraşdırılıb, Xanabad gölünün sahilində park salınıb, estakada inşa edilib və Dövlət Bayrağı ucaldılıb.

*

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş Əmrah Sahiblinin evində oldular.

**Prezident İlham Əliyev:** Salam.
**Qadın sakin:** Salam, xoş gördük.
**Nümayəndə:** Cənab Prezident, kənd buradan görünür elə. Arxasında yardımçı sahələr də var.
**Prezident İlham Əliyev:** Necə yerləşmisiniz burada?
**Sakin:** Çox gözəl, Allah Sizdən razı olsun.
**Prezident İlham Əliyev:** Gəlin, gəlin, uşaqlar. Ev necədir?
**Sakin:** Çox gözəl, Allah razı olsun.
**Prezident İlham Əliyev:** Neçə gündür buradasınız, 5 gündür?
**Sakin:** 5 gün olar.

*

**Prezident İlham Əliyev:** Adın nədir?
**Uşaq sakin:** Duyğu.
**Prezident İlham Əliyev:** Duyğu? Gəl, gəl, Mehriban xanımla görüş.
**Birinci xanım Mehriban Əliyeva:** Gəl buraya, görüşək.
**Sakin:** Xoş gəlmisiniz.
**Birinci xanım Mehriban Əliyeva:** Harada yaşayırsan, göstər, hanı sənin otağın?
**Prezident İlham Əliyev:** Şəraitiniz necədir?
**Sakin:** Salam. Çox yaxşıdır.
**Prezident İlham Əliyev:** İşin var?
**Sakin:** Təmin ediblər.
**Prezident İlham Əliyev:** Gəlin. İşlə təmin etmək üçün təkliflər verərsiniz.
**Nümayəndə:** Bəli, cənab Prezident İlham Əliyev. Artıq müraciət edib. Sürücü işləyir. Ümumiyyətlə, çalışırıq məşğulluqla bağlı Sizin tapşırığınızı yerinə yetirək.
**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.
**Nümayəndə:** Xocalıya köçən əhalinin 4100 nəfərindən 1230 nəfəri daimi işlə təmin olunub. Müəssisələr də çoxdur. Açılışlarında Siz də iştirak edirsiniz.
**Prezident İlham Əliyev:** Bəli, müəssisələr çoxdur. Məktəb də var. Müəllimlər necədir?
**Digər nümayəndə:** Biz 110 ailəni köçürəndən sonra müəllim kontingenti buraya yığılacaq. Çünki az əhali ilə aça bilmirik. Novruz bayramına qədər buraya 110 ailəni köçürəcəyik. Evlər hamısı hazırdır.
**Prezident İlham Əliyev:** Sənin neçə yaşın var?
**Kişi sakin:** Otuz iki.
**Prezident İlham Əliyev:** Sən işğaldan sonra anadan olmusan?
**Kişi sakin:** Bəli.
**Prezident İlham Əliyev:** Valideynlərin sağdır?
**Kişi sakin:** Bəli.
**Prezident İlham Əliyev:** Harada yaşayırlar?
**Kişi sakin:** Xanabad kəndində.
**Prezident İlham Əliyev:** Bir daha təbrik edirəm.
**Sakin:** Çox sağ olun.
**Prezident İlham Əliyev:** Gedək, bayırda şəkil çəkdirək. Əlini ver.
**Sakin:** İlham dayıya əlini ver. Afərin.
**Prezident İlham Əliyev:** Sözəbaxan uşaqdır.
**Sakin:** Çox yaxşı uşaqdır, çox ağıllı oğlandır.

*

**Prezident İlham Əliyev:** Təbrik edirəm.
**Sakin:** Çox sağ olun.
**Uşaq sakin:** Mən Sizi televizorda görəndə çox sevinirəm.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Sağ olun.

*AZƏRTAC*

# Baş nazir Türkiyə parlamentinin komitə sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 25-də Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Bakıda keçirilən Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclasının əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, xüsusilə parlamentlərarası əməkdaşlığın yüksək səviyyəsi təqdir edilib.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

*XQ*

# YAP ilə AK Partinin fikir mübadiləsi



**Fevralın 25-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan ilə Türkiyə arasındakı bütün dünyaya nümunə olan sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin iki ölkənin liderləri – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək keyfiyyətcə yeni mərhələyə - strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb. Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin ardıcıl olaraq yerinə yetirilməsinin istər ikitərəfli əlaqələrin, istərsə də regionda çoxşaxəli işbirliyinin genişləndirilməsi kontekstində önəmi diqqətə çatdırılıb.

Görüşdə Türk dövlətləri, o cümlədən etibarlı strateji müttəfiqlər olan Azərbaycan ilə Türkiyə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin gücləndirilməsinin zəruriliyi də vurğulanıb.

Partiyalar arasında fikir və təcrübə mübadiləsinin genişləndirilməsi üçün qarşılıqlı səfərlərin önəminin vurğulandığı görüş zamanı AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini Kürşad Zorlu Yeni Azərbaycan Partiyasının nümayəndələrini bu il Türkiyədə keçirilməsi nəzərdə tutulan Türk Dünyası Birinci Siyasət Forumuna dəvət edib.

*XQ*

# Dini konfessiyaların Xocalı bəyanatı

**Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri - Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yepiskopu Aleksiy, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili, Sefarad yəhudiləri Bakı dini icmasının rəhbəri Zamir İsayev Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar.**



Bəyanatda bildirilir ki, Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı dinc mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərin ən dəhşətlisidir.

"Biz uzun illər ərzində bütün tərəqqipərvər ictimaiyyətə müraciət edərək Xocalı soyqırımına biganə qalmamağa və bu dəhşətli faciəni törədənlərin mühakimə olunması üçün öz səslərini ucaltmağa çağırmışıq. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsi qarşısına çıxarılması, Xocalı cinayətkarlarının layiqli cəza almaları Azərbaycan xalqının haqlı tələbidir. İnsanlıq əleyhinə müharibə cinayətləri törətmiş şəxslərin mühakiməsi ümumbəşəri ədalətin təntənəsidir və beynəlxalq ictimaiyyət bu prosesə dəstək nümayiş etdirməlidir.

Xocalı faciəsinin 34-cü ildönümündə faciənin günahsız qurbanlarının xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Bu gün Xocalı şəhəri yenidən inşa olunur, mənəvi abidələrimiz yenidən qurulur, Xocalı sakinləri öz doğma yurdlarına qayıdırlar. Lakin Xatın, Gernika, Sonqmi və buna bənzər insanlıq faciələrinin günahsız qurbanları kimi Xocalı qurbanlarının da ah-naləsi qəlblərimizdən silinmir, günahsız uşaq, qadın, qocaların qırılmış taleləri unudulmur. Dünya bir daha belə faciələri yaşamasın deyə bu faciələr unudulmamalı, beynəlxalq səviyyədə qınanılmalı və günahkarlar layiqli şəkildə cəzalandırılmalıdırlar.

Azərbaycan və Ermənistan rəhbərliklərinin sülh istiqamətində real addımlar atdıqları bir zamanda dünya ictimaiyyəti Ermənistanın bəzi siyasi və dini dairələrinin erməni xalqını yeni müharibələrə, nifrətə, işğalçılığa, separatçılığa səsləyən bəyanatlarına, irqçi çağırışlarına göz yummamalıdır.

Azərbaycandakı dini konfessiyalar regionumuzda hər hansı hərbi aqressiyaya, müharibə və nifrət çağırışlarına, dini və etnik dözümsüzlüyə, revanşizm meyillərinə son qoyulmasına, dövlətlər və xalqlar arasında mehriban qonşuluğun, sülhün və əmin-amanlığın bərqərar edilməsinə tərəfdar olduğunu bəyan edirlər. Biz bir daha dünya dini liderlərini, beynəlxalq təşkilatları, parlamentləri və dünya ictimaiyyətini bu uca məqsədlər naminə birgə səylər göstərməyə dəvət edirik.

Qoy Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun! AMİN!", – deyə bəyanatda bildirilir.

*XQ*

# Ermənistana neft məhsulları yola salınıb

**Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb.**



Azərbaycandan Ermənistana yanacaq məhsullarının tədarükü çərçivəsində növbəti 4500 ton dizel yanacağı Güzdək stansiyasından göndərilib.

Qeyd edək ki, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə uyğun olaraq ötən il dekabrın 18-də Azərbaycandan bu ölkəyə neft məhsullarının ixracına başlanılıb.

*XQ*

# AMEA-nın ümumi yığıncağı



**Fevralın 20-də AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib. Məclisdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva iştirak edib.**



Ümumi yığıncaqda AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin “Akademiyada təməl islahatlardan – İnkişaf Konsepsiyasına və Yol Xəritəsinə” mövzusunda məruzəsi dinlənilib. Bu il martın 27-də AMEA-nın yaradılmasının 80 illiyinin tamam olduğunu bildirən AMEA prezidenti akademiyanın tarixinə nəzər salıb.

AMEA prezidenti akademiyada 2022-ci ildən etibarən bir çox əsas istiqamətlərdə yeniləşmə və islahatların həyata keçirildiyini, akademik elmdə məzmunca müstəqil dövlətimizin ön mövqeyə çıxardığı reallıqlara dair tədqiqatları daha da genişləndirmək və möhkəmləndirmək üçün addımlar atıldığını söyləyib. Həmçinin Azərbaycan elmi tarixində ilk dəfə olaraq milli fəlsəfə anlayışı elmi dövriyyəyə gətirilib, materialist fəlsəfə ilə yanaşı, idealist fəlsəfənin də öyrənilməsinin örnəkləri meydana qoyulub.

Akademik İsa Həbibbəyli AMEA-da yeniləşmə və islahatlar dövründə elektron hərəkata start verilməsinə də diqqət çəkib. Qeyd edib ki, AMEA Rəyasət Heyəti aparatında yaradılan Elektron Akademiya şöbəsi vasitəsilə akademiyanin elmi bölmələrinə və elmi-tədqiqat institutlarına aid 31 elmi jurnaldan 21-nin elektron bazası istifadəyə verilib. Akademiyanın tarixində ilk dəfə olaraq İnsan Resursları Elmmetrik Məlumatlar Bazası, Rəqəmsal Elmi İnformasiya Resursları Sistemi yaradılaraq hər bir əməkdaşın elmi fəaliyyətinin elmmetrik reallığı və istinad göstəricilərinin müəyyən edilməsi mexanizmi formalaşdırılıb. Azərbaycan dilinin dil korpusunun işlənməsi sahəsində addımlar atılıb. Sözlərin Universal Funksionallıqla İşlənməsi sistemi əsasında SUFİ işlək robot modeli işə salınıb.

Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, ikipilləli doktorantura proqramlarının mahiyyəti kökündən dəyişməli və ən qısa müddətdə kredit əsaslı və strukturlaşdırılmış doktorantura pilləsi hazırlanmalıdır. Nazir müəssisələr tərəfindən Elm və Təhsil Nazirliyinə təqdim edilən faktiki qəbul sayının (doktorant qəbuluna görə) müdafiə edənlərin sayından çox olduğunu deyib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxışında rəhbəri olduğu qurumun AMEA ilə birgə müxtəlif konfrans və seminarlar keçirdiyini söyləyib.

Daha sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimovun “2024-cü Akademik İlin elmi hesabatı” mövzusunda məruzəsi dinlənilib.

“AMEA-nın İnkişaf Konsepsiyası və Yol Xəritəsi” layihəsi haqqında çıxış edən işçi qrupunun rəhbəri, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov və Gənclər üçün Prezident mükafatçısı, Arxeologiya və Antropologiya İnstitutunun doktorantı Mircavid Ağalarovun çıxışları dinlənilib. Həmçinin Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər və ÇXR Honkonq Kore Akademiyasının İdarə Heyətinin üzvü professor Li Leinin onlayn çıxışları təqdim olunub.

Sonda “Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər İnkişaf Konsepsiyası və Yol Xəritəsi”nin layihəsi və AMEA-nın Ümumi yığıncağının qərarı təsdiq olunub.

*XQ*

# Ramiz Mehdiyevin AMEA-nın həqiqi üzvlüyündən xaric edilməsi necə həll ediləcək?

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ibtidai istintaqı davam etdirilən və barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılması məsələsi ilə bağlı Akademiya tərəfindən ictimaiyyətə bir neçə dəfə rəsmi açıqlama verilib. Akademiyanın rəhbərliyi bir daha Ramiz Mehdiyevin dövlət əleyhinə törətdiyi əməlləri qətiyyətlə pisləyir və bağışlanmaz olduğunu bildirir.**



Akademiyadan bildirilib ki, Ramiz Mehdiyevin akademiyanın həqiqi üzvlüyündən xaric edilməsi məsələsi qüvvədə olan qanunvericiliyin tələblərinə riayət olunmaqla həll ediləcək: “Ona qarşı irəli sürülmüş ittihamlar üzrə təqsirliliyi məhkəmə hökmü ilə təsdiq edildiyi halda, məsələ Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı üzvlərinin müzakirəsinə çıxarılacaq və müvafiq qərar qəbul ediləcək.

Azərbaycan Milli Elmlər Akademiyası fəaliyyətində hüququn aliliyini, qanunçuluq prinsiplərini və hüquqi prosedurların şəffaflığını əsas kimi rəhbər tutduğunu bir daha vurğulayır”.

*XQ*

# Göyçayda Xocalı şəhidlərinin ailələri ilə görüş



**Göyçay rayonunun rəhbərliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar faciə qurbanlarının ərazidə məskunlaşmış ailə üzvləri ilə görüşüb.**

Rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlov Xocalı qətliamının beynəlxalq miqyasda soyqırımı kimi tanıdılması istiqamətində ötən illərdə aparılmış işlərdən, Qarabağ zəfərinin Xocalını da düşmən tapdağından azad etməsindən, şəhidlərin intiqamının alınmasından, bu yaxınlarda qırğın iştirakçısı olmuş qatillərin və müharibə canilərinin bir qisminin məhkəmə qurulmasından danışıb.

Səmimi söhbət zamanı suverenliyimizin tam bərpasından keçən müddətdə Prezident İlham Əliyevin xüsusi himayəsi ilə Xocalı şəhərinin sürətlə dirçəldilib məskunlaşmasından məmnunluqla söz açılıb. Qeyd edilib ki, tezliklə Göyçayda yaşayan Xocalı köçkünləri də doğma yurdlarına qovuşacaqlar.

Şəhid ailəsi üzvlərindən Məsumə Hümbətova, Təranə Hüseynova və Rizvan Hümbətov ötən illərdə dövlətin onlara göstərdiyi diqqət və qayğını, göyçaylıların səmimi münasibətini və davamlı dəstəyini minnətdarlıqla vurğulayıblar.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# Dünya Xocalı qurbanlarını yad edir

## ABŞ




**Tarixin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar ABŞ-ın Boston şəhərində LED ekranlı avtomobillərin iştirakı ilə məlumatlandırıcı aksiya keçirilib.**

Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi, Amerika-Azərbaycan Gənclər və İdman Assosiasiyasının təşkilatçılığı ilə aksiya Bostonun ən intensiv hərəkətli və strateji əhəmiyyətli küçə və meydanlarında baş tutub.

LED ekranlı avtomobillər Boston Şəhər İdarəsinin və Massaçusetts ştatının Qubernator Evinin qarşısından keçərək Copley meydanında hərəkət edib. Xocalı ilə bağlı tarixi həqiqətləri geniş ictimaiyyətə çatdırmaq üçün avtomobillər şəhərin mərkəzi küçələri – Boylston, Tremont, Vaşinqton və Bikon istiqamətlərində də yürüş edibələr.

Qeyd edək ki, eyni vaxtda ABŞ-ın paytaxtı Vaşinqtonda və Nyu-York şəhərində də bu cür genişmiqyaslı məlumatlandırma aksiyası keçirilib.

## Böyük Britaniya

**Böyük Britaniya Parlamentinin İcmalar Palatasının deputatı Bob Blekmen Xocalı soyqırımı ilə bağlı qanunvericilik təşəbbüsü irəli sürüb.**



Sənəddə 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin, Rusiyanın 366-cı motoatıcı alayının dəstəyi ilə, Xocalıda törətdiyi vəhşiliklər xatırladılıb, 613 dinc azərbaycanlının amansızcasına qətlə yetirildiyi, onların arasında 106 qadın, 63 uşaq və 70 yaşlının olduğu vurğulanıb. Xocalı faciəsi Azərbaycan vətəndaşlarına qarşı törədilmiş ağır bir cinayət kimi qiymətləndirilib.

Qanunvericilik təşəbbüsündə, həmçinin, Ermənistan və Azərbaycan arasında normallaşma və davamlı sülh istiqamətində atılan addımlar alqışlanıb.

## Pakistan



**Azərbaycanın Pakistandakı səfirliyi bu ölkənin nüfuzlu ali təhsil ocaqlarından olan Bahria Universiteti ilə birgə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunan seminar və fotosərgi təşkil edib.**

Xocalı soyqırımı həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində görülən işlər barədə danışan səfir Xəzər Fərhadov Pakistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstəyi ilə yanaşı, Xocalı soyqırımının dövlət səviyyəsində tanınmasını və bu xüsusda Pakistan Milli Assambleyası ilə Senatının müvafiq qətnamələr qəbul etməsini qardaşlıq münasibətlərimizin bariz nümunəsi olduğunu qeyd edib.

Bahria Universitetinin humanitar və sosial elmlər fakültəsinin dekanı, professor Fərrux Şahzad, fakültənin direktoru, professor Adam Saud və Pakistanın ən nüfuzlu beyin mərkəzlərindən olan Muslim İnstitutunun nümayəndəsi Asif Tanver Avan öz çıxışlarında Xocalıda erməni silahlılarının xüsusi amansızlıqla törətdiyi soyqırımın sadəcə Azərbaycana qarşı deyil, bəşəriyyətə qarşı bir cinayət olduğunu ifadə ediblər.

Sonda məruzəçilər bu mənfur əməllərə görə beynəlxalq ictimaiyyəti Ermənistanı qınamağa çağırıblar.

Tədbirdə Xocalı soyqırımına həsr edilmiş şeirlər oxunub.

## İsveçrə



**İsveçrənin Bazel şəhərində Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə anım mərasimi keçirilib.**

“Teodors” kilsəsində keçirilən anım tədbiri “Azərbaycanın Dostları” Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın İsveçrə Konfederasiyasındakı səfirliyi və Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə reallaşıb.

Azərbaycanın İsveçrə Konfederasiyasındakı səfiri Fuad İsgəndərov Xocalı soyqırımının Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuş ən dəhşətli faciələrdən biri olduğunu bildirib. Birinci Qarabağ müharibəsi veteranı olduğunu qeyd edən səfir, 1992-ci il fevralın 26-da Ağdam şəhərində olduğunu və baş vermiş hadisələrə şəxsən şahidlik etdiyini vurğulayıb.

Anım tədbiri bədii hissəsində Şəfəq Abdullayeva (orqan), Mədinə Şahgəldiyeva (kamança) Azərbaycan folklor və bəstəkar musiqilərini ifa edib, həmçinin Naibə Turalın Xocalı soyqırımı ilə bağlı hazırladığı ədəbi-bədii kompozisiya maraqla qarşılanıb.

## Peru




**Peru Konqresində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb və faciə ilə bağlı bəyanat qəbul edilib.**

Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar tədbirdə Peru-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri, Peruda akkreditə olunmuş diplomatik korpus və jurnalistlər iştirak ediblər.

Konqresin Peru-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Rosanxela Andreya Barbaran Reyes Xocalıda həlak olmuş günahsız soydaşlarımızla bağlı Azərbaycan xalqına başsağlığı verib və Xocalı soyqırımının Azərbaycan xalqının yaddaşında dərin iz qoyduğunu qeyd edib.

Səfirliyin əməkdaşı Gültən Qafqazlı-Novruzova Xocalı soyqırımı və erməni təcavüzünün tarixi haqqında məlumat verərək, bu qırğının və onun acı nəticələrinin unudulmamasının, habelə gələcəkdə oxşar faciələrin baş verməməsi üçün soyqırımı törədənlərin məsuliyyətə cəlb olunmasının vacibliyini vurğulayıb.

Peru Konqresi tərəfindən faciənin 34-cü ildönümü ilə bağlı qəbul edilmiş bəyanatın mətni oxunulub. Bəyanatda çox sayda insanın qəddarcasına qətlə yetirilməsi ilə nəticələnmiş bu qanlı faciə haqqında məlumat verilib, 2013-cü ildə Peru Konqresi tərəfindən qəbul edilmiş sənəddə bu soyqırımının pislədiyi bildirilib.

*XQ*

# Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində





**Fevralın 24-də Leyla Əliyeva və Alena Əliyeva Quba rayonuna səfər ediblər. Səfər çərçivəsində Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində internat tipli ümumtəhsil məktəbini və STEAM mərkəzini ziyarət ediblər.**




Əvvəlcə Quba şəhər ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə baş çəkilib. Bildirilib ki, burada 79-u oğlan, 35-i qız olmaqla 114 məktəbli təhsil alır. Leyla Əliyeva və Alena Əliyeva internat məktəbində yaradılan şəraitlə tanış olub, uşaqlarla səmimi söhbət edib, onların məşğələ proseslərini izləyib, fotolar çəkdirib və şagirdlərə məktəbli ləvazimatları təqdim ediblər. Məktəbdə şagirdlər tərəfindən hazırlanan mədəni proqram təqdim olunub, şeirlər səsləndirilib, mahnılar ifa olunub.

Daha sonra Quba STEAM mərkəzi ziyarət olunub. Mərkəzlə tanışlıq zamanı xatırladılıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində 2019-cu ildən etibarən STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş tətbiqinə başlanılıb. Qeyd olunub ki, STEAM mərkəzi Qubada 2021-ci ildən fəaliyyət göstərir və bütün yaş qrupları üçün nəzərdə tutulub. Leyla Əliyeva və Alena Əliyeva mərkəzdə yaradılan şəraitlə yaxından tanış olub, şagirdlərlə səmimi söhbət aparıb, onların burada əldə etdikləri bilik və bacarıqların praktiki tətbiqi ilə maraqlanıblar.

Sonda uşaqlar və məktəbin kollektivi ilə xatirə şəkilləri çəkdirilib.

***XQ***

# Müharibə qəhrəmanının ailəsi ilə görüş




**Fevralın 24-də Leyla Əliyeva Vətən Müharibəsi Qəhrəmanı, Dövlət Sərhəd Xidmətinin şəhid baş giziri Şahin Allahyarovun ailəsini ziyarət edib.**

Əvvəlcə Leyla Əliyeva şəhidin xatirə guşəsi ilə tanış olub. Daha sonra şəhidin anası Nərgiz Allahyarova ilə söhbət edib, onun oğlu haqqında xatirələrini dinləyib, şəhidin həyatının müxtəlif dövrlərini əks etdirən şəkillərinə baxıb, Vətən müharibəsi dövründə ailə üzvlərinə göndərdiyi videoçarxı izləyib. N.Allahyarova şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnunluq ifadə edib, dövlətimizin başçısına və ailə üzvlərinə minnətdarlığını bildirib, ölkəmizə sülh, əmin-amanlıq arzulayıb.




Leyla Əliyeva şəhidin ailə üzvlərinə hədiyyələr təqdim edib, onlarla şəkil çəkdirib.

Qeyd edək ki, Azərbaycan Ordusunun baş giziri Şahin Allahyarov 2020-ci ildə 44 günlük Vətən müharibəsində Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 1-də Şuşa uğrunda döyüşlər zamanı şəhid olub. Quba rayonunda dəfn edilib.

Döyüşlər zamanı göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən Şahin Allahyarov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif olunub.

***XQ***

# Arıçı ailəsinin əziz qonağı





**Fevralın 24-də Leyla Əliyeva Quba rayonuna səfəri çərçivəsində arıçı Zəfər Əzizovu evində ziyarət edib.**

Görüş zamanı Leyla Əliyeva arıçı ailəsi ilə səmimi söhbət edib, təsərrüfatın gündəlik fəaliyyəti ilə yaxından maraqlanıb. Zəfər Əzizov arıçılıq sahəsindəki təcrübəsi və ailəsinin təsərrüfatı olan "Ballı Pətək" brendi haqqında ətraflı məlumat verib. 1997-ci ildən peşəkar arıçılıqla məşğul olmağa 2 arı ailəsi ilə başladığını bildirən Z.Əzizov hazırda onların sayının 200-ü ötdüyünü deyib. Qeyd edib ki, ailə təsərrüfatı 2010-cu ildən "Ballı Pətək" brendi ilə fəaliyyətini genişləndirərək bazara may, meşə və dağ balları təqdim edir. Z.Əzizov bal və digər arı məhsullarını əldə etmək üçün arı ailələrini Xaçmaz, Şabran, Qusar, Quba və başqa rayonlara apardığını vurğulayıb. Bildirilib ki, illik istehsal gücü 2-3 ton olan təsərrüfatda, həmçinin arı südü, çiçək tozu və güləm kimi faydalı məhsullar əldə edilir. Bununla yanaşı, Z.Əzizov cins ana arı yetişdirməklə də məşğuldur.

Səmimi mühitdə keçən görüşün davamında Leyla Əliyeva ev sahibləri ilə birgə arı mumundan təbii şamların hazırlanmasında yaxından iştirak edib.

Arıçı Zəfər Əzizov və ailəsi Leyla Əliyevaya səmimi ziyarətə və diqqətə görə minnətdarlığını ifadə edib, ona hədiyyə təqdim edib.

***XQ***

# Cümə məscidini ziyarət



**Fevralın 24-də Leyla Əliyeva və Alena Əliyeva Quba rayonuna səfər çərçivəsində şəhərin əhəmiyyətli tarixi-memarlıq abidələrindən olan Cümə məscidini ziyarət ediblər.**

Ziyarət zamanı məscidin imamı Seyran Fərəczadə və məscidin dini icmasının sədri İlqar Bayramov Quba Cümə məscidi barədə ətraflı məlumat verib.

Bildirilib ki, məscid XIX əsrin unikal memarlıq nümunələrindən biri olmaqla bölgənin dini-mədəni həyatında mühüm yer tutur. Məsciddə Quran kursunun fəaliyyət göstərdiyi qeyd olunub. Leyla Əliyeva və Alena Əliyeva həmin otağa da baş çəkiblər.

Sonda Leyla Əliyeva və Alena Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

***XQ***

# Şəhid ailələri ilə iftar məclisində





**Fevralın 24-də Leyla Əliyeva Qubada şəhid ailələri və rayon ictimaiyyəti ilə birlikdə iftar məclisində olub.**

Əvvəlcə Leyla Əliyeva "Bizim mətbəx" layihəsinin könüllüləri ilə birlikdə yeməklərin iftar süfrəsi üçün hazırlanmasında yaxından iştirak edib. Müqəddəs Ramazan ayının mənəvi dəyərlərinin paylaşıldığı məclisdə sakinlərlə birlikdə iftar edilib, dualar oxunub.

Sakinlər təşkil olunan iftar süfrəsinə və göstərilən diqqətə görə səmimi minnətdarlıqlarını bildiriblər.

***XQ***

# Şuşa məscidi üçün xalçaların kəsim mərasimi







**Fevralın 24-də Heydər Əliyev Fondunun, "PASHA Holding"in və "PMD Projects"in təşkilatçılığı ilə "Azərxalça" ASC-nin yaradıcı heyəti və usta toxucularının birgə zəhməti nəticəsində Şuşa məscidi üçün hazırlanan növbəti xalçaların kəsim mərasimi "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şabran filialında keçirilib.**

Xalçaların kəsim mərasimi Leyla Əliyevanın iştirakı ilə olub. Leyla Əliyeva emalatxananın fəaliyyəti ilə tanış olub, toxucularla söhbət edib, xalçalara son ilmələri atdıqdan sonra Şuşa məscidi üçün hazırlanan xalçaların kəsim mərasimində iştirak edib.

Qeyd edək ki, Şuşa məscidinin ikinci mərtəbəsinin interyeri üçün nəzərdə tutulan xalçalar milli xalçaçılıq ənənələrinə uyğun olaraq xüsusi dizayn əsasında hazırlanıb. Hər birinin eni 12, uzunluğu 19 metr olan iki xalçanın ümumi uzunluğu 38 metrdir. Məscidin qadınların ibadəti üçün nəzərdə tutulan hissəsindən ötrü hazırlanan bu iki xalçanın toxunmasına 2025-ci il yanvarın 21-də başlanılıb. Şabranda toxunan iki xalçanın ərsəyə gəlməsində 50-yə yaxın toxucu qadın iştirak edib, onlar 50 milyona yaxın ilmə atıblar. Xalçalar Azərbaycan xalçaçılıq sənətinin yüksək peşəkarlığını və zəngin bədii irsini özündə əks etdirir. Xalçanın tam şəkildə toxunması üçün xüsusi olaraq yeni və fərqli üslubda iki dəzgah sifariş edilib. Dəzgahlar xaricdən dəvət olunmuş mütəxəssis qrupu tərəfindən məhz "Azərxalça" ASC üçün hazırlanıb.

Xatırladaq ki, Şuşa məscidinin birinci mərtəbəsi üçün hazırlanmış, diametri 22,17 metr olan və ümumdünya xalçaçılıq tarixində analoqu olmayan dairəvi əl xalçasının kəsilməsi mərasimi bu ay Leyla Əliyevanın iştirakı ilə keçirilmişdi. "Qarabağ" xalça qrupuna aid motivlər və "Xətai" ornamentləri əsasında hazırlanan həmin nadir sənət əsərinin toxunma prosesində 150 toxucu xanım iştirak edib, xalçaya təxminən 60 milyon ilmə vurulub.

***XQ***

*Xocalı soyqırımı – 34*

# XX əsrin Xocalı məhşəri

## *Dinc insanlara qarşı qəddarlığın zirvəsi*

**Bəşəriyyət keçmiş həyatında qəddarlığı ilə dərin sarsıntılar, kütləviliyi ilə böyük dağıntılar yaratmış çoxsaylı qırğınlara və müharibələrə şahidlik edib. Dünya tarixinə geniş bir zaman çərçivəsində nəzər saldıqda onun savaşsız, fəlakətsiz, iztirabsız günlərinin heyrətamiz dərəcədə az olduğunu görürük. Mütəxəssislərin hesablamalarına görə, son 200 ildə, ən azı, 25 müharibə baş verib. Bu prosesin indiyədək davam etdiyini də nəzərə alsaq, deyə bilərək ki, III minilliyin və XXI əsrin bircə günü də savaşsız ötüşməyib. Bütün sivilizasiya tarixini əhatə edən 5 min illik zaman kəsiyində 150 milyondan artıq insan bu müharibələrdə həlak olub. Onların da 73 faizi yalnız XX əsrdə baş vermiş müharibələrin payına düşür.**

Bütün Avropanı və ətrafını bürümüş və qitəni xalqlarını qan gölünə qərq etmiş 2 dünya müharibəsi XX əsrdə bu amansız savaşların sonuncuları idi. II Dünya müharibəsindən sonra formalaşmış yeni dünya düzəni, bəşəriyyətin tərəqqisi və humanistləşməsi istiqamətində geniş vüsət alan etik-siyasi təkamül prosesləri etnik, dini, irqi ayrı-seçkiliyə əsaslanan zorakılığın artıq tarixin arxivində qaldığına böyük ümidlər yaratmışdı. Təəssüf ki, yenicə toxumları cücərməyə başlayan bu ümidlər əsrin sonlarına doğru yenidən Avropanın qonşuluğunda alovlanan etnik müharibələrlə sönməyə başladı.

Təkcə II Dünya müharibəsindən sonra bütün dünyanın 151 yerində 231 silahlı konflikt baş verib ki, bunların da yarıdan çoxu 1990-cı ildən – "soyuq müharibə" qurtarandan sonrakı ən yaxın tarixi dövrə təsadüf edir. Amma bütün müharibələrin içində öz miqyası, qəddarlığı, insanlığa sığmayan əməlləri ilə fərqlənən elə cinayət aktları vardır ki, onlara heç cür haqq qazandırmaq mümkün olmayacaq. Təkcə Azərbaycan tarixinin deyil, bütün bəşər tarixinin ən dəhşətli hadisələrindən biri olan Xocalı qətliamı məhz həmin cinayət aktlarından biridir.

1988-ci ildə Ermənistanda yaşayan 250 min azərbaycanlının öz evlərindən və torpaqlarından qovulması ilə Cənubi Qafqazda etnik təmizləmə başladı. Ermənistanda yerləşən 185 Azərbaycan kəndində yaşayan 250 mindən çox həmvətənimiz öz tarixi torpaqlarından qovuldu, onlara məxsus 31 min yaşayış evi, 165 kolxoz və sovxoz, çox sayda mal qara və bütün əmlakları qarət olundu. Bu əməliyyatlarda 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı. Yüzlərlə soydaşlarımız fiziki işgəncələrə məruz qaldılar və şikəst oldular.

Az sonra erməni hərbi birləşmələrinin Azərbaycan ərazisinə təcavüzü Dağlıq Qarabağ ərazisinin və onun ətrafındakı daha 7 rayonun işğalı ilə nəticələndi. Qarabağ müharibəsinin ən faciəli səhifəsi 7 min əhalisi olan Xocalı şəhərinin Yer üzündən tamamilə silinməsi oldu. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni quldurlar bir neçə həftə öncədən mühasirəyə alınmış Xocalı şəhərinə hücum etdilər.

Şaxtalı qış gecəsində qaçıb canını qurtarmağa çalışan dinc sakinlər təqib edilərək yollarda və meşələrdə güllələnərək öldürüldülər. Şəhər tamamilə yandırılıb məhv edildi. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil.

Amansızlığına görə dünya tarixində törədilmiş ən qəddar cinayətləri belə üstələyən bu soyqırımı aktı təkcə Azərbaycan türklərinə qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə, beynəlxalq sülhə qarşı törədilmiş ən ağır cinayət idi. Xocalı faciəsinə qədər Qarabağda baş verən bütün olaylar bu faciənin məqsədli şəkildə həyata keçirilən etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğuna heç bir şübhə yeri qoymur. Xocalının mühasirəyə alınaraq mülki şəxslərin şəhəri tərk etməsinə imkan verilməməsi ermənilərin əsl niyyətini açıq şəkildə ortaya çıxarır. Öldürdükləri uşaqların, qocaların, qadınların cəsədlərini tanınmaz hala salmış erməni separatçıları bəşər tarixində ermənilik adına əbədi şərəfsizlik gətirən soyqırımı aktına imza atdılar.

Faciənin törədilməsindən yalnız iki gün sonra hadisə yerinə çatmaq mümkün oldu. Şahidlərin qarşılaşdıqları tükürpərdici mənzərə sözlə ifadə edilə bilməyəcək qədər ağır və amansız idi. Bütün tarixi, kökü və ruhu ilə yaşadığı torpağa bağlı olan sadə insanların, o torpaqda yenicə ayaq tutub yeriməyə başlamış məsum uşaqların cəsədlərini soyuq qış fəslində isti Vətən torpağı öz ağuşuna almışdı. Kim bilir, son nəfəslərində istəkləri, diləkləri nə olmuşdu soydaşlarımızın. Nəsibləri isə Vətən torpağını qucaqlayaraq şəhidlik zirvəsinə ucalmaq oldu...

Bu qanlı hadisənin şahidi, bütün ailəsindən yalnız qucağındakı körpə qızını və 4 yaşlı oğlunu xilas edə bilmiş gənc bir ana göz yaşları içərisində, ürək parçalayan Xocalı tarixçəsini söyləyir: "Xocalıdakı ov silahlarını da camaatdan almışdılar. Bizim özümüzü müdafiə etməyə heç bir imkanımız yox idi. Yalnız ərim tüfəngini gizlədib saxlamışdı. Biz od-alov içərisindən viran olmuş Xocalının kənarına güclə gəlib çıxa bildik. Sonra gördük ki, silahlılar bizi izləyərək güllələr yağdırır. Onlar bizə çatıb öldürmək, ya da əsir götürmək istəyirdilər. Ərim dayanıb onlara atəş açmağa başladı. Qışqırdı ki, "Qaçın, ələ keçməyin!". Ailəmizin üzvlərindən bir neçəsi arxadan vurulub yerə sərildi. O isə hələ də silahlılarla vuruşurdu. Mən ayaqyalın, başıaçıq, iki balamla uzaqlaşıb kol-kosun içində, qaranlıqda gözdən itəndə güclə onun bağırtısını eşidirdim: "Qaçın, gizlənin, görünməyin". Biz xilas olduq. O isə şəhid".

Azərbaycanlı ər son nəfəsinə qədər vuruşdu ki, özü ölsə də, ailəsi düşmən əlinə keçməsin. Bu faciədən möcüzəli təsadüf nəticəsində qurtulmuşların hamısı bu gün də Xocalı dərdinin ağır yükü altında inləyir. Milli Qəhrəman Çingiz Mustafayevin lentə aldığı dəhşətli görüntülər Xocalı faciəsinin miqyasını və erməni cəlladlarının vəhşiliyini bütün dünyaya nümayiş etdirir. Elə ermənilərin özləri də öz mənfur əməllərini etiraf etməkdən çəkinmir, yazdıqları ilə özlərini ifşa edirlər. Erməni millətçiliyinin və separatizminin baş ideoloqu, körpə balaların qatili Zori Balayanın Xocalı hadisələrindən 4 il sonra yazdığı "Ruhumuzun dirilməsi" kitabını oxuyarkən bir daha bunun şahidi olursan: "Biz Xaçaturla uşaqların saxlandığı zirzəmiyə enən vaxt, əsgərlərimiz artıq onlardan birini ovuclarından pəncərə çərçivəsinə mıxlamışdılar. Uşağın səs-küyünü azaltmaq üçün Xaçatur onun ağzına öldürdüyümüz anasının kəsilmiş döşünü soxdu. Sonra mən onun başının, döşünün və qarnının dərisini soydum. O, 7 dəqiqə sonra qan itirməsindən öldü. Birinci ixtisasıma görə həkim olduğum üçün humanistəm və ona görə də uşağın başına gətirdiklərimizdən sevinc duymadım. Lakin qəlbim şadlanırdı. Xaçatur uşağın bədənini hissələrə böldü və itlərə atdı. Axşam biz eyni hərəkətləri üç azərbaycanlı uşağı ilə etdik. Mən erməni, vətənpərvər və vətəndaş kimi borcumu yerinə yetirdim".

Bu, XXI əsrdə erməni faşistinin özü tərəfindən öz qələmi ilə yaradılmış mükəmməl obrazı, avtoportretidir! Qarabağın işğalı zamanı Zori Balayanın sabiq Ermənistan prezidenti Serj Sarkisyanla birlikdə hərbi geyimli fotoları da onların birlikdə törətdiyi cinayət əməllərinin sübutudur. Bu ölkənin həkim-yazıçısı da, prezidenti də Xocalı soyqırımı və bütövlükdə Qarabağın işğalı üzərində "erməni millətinin qəhrəmanlarına" çevrildilər. Lakin tarixi həqiqətlər bunun qəhrəmanlıq deyil, növbəti xəyanət, bəşəriyyətə qarşı cinayət olduğunu sübut edir.

Bu faciə Qafqazlarda türk tarixinin qanlı səhifələrindən biri olsa da, birincisi deyil. Xocalı soyqırımı bizi tarixi keçmişimizə yenidən nəzər salmağa və acı həqiqətləri bir daha xatırlamağa və xatırlatmağa sövq edir. Xocalı soyqırımının kökü baş verdiyi tarixdən çox-çox əvvəlki zamanlara gedib çıxır. Bu faciəyə təkcə Qarabağ ətrafında cərəyan edən hadisələrin tərkib hissəsi kimi yox, həm də Azərbaycanın tarixi uğurları, zəngin dövlətçilik ənənələri, ölkəmizin yerləşdiyi geopolitik məkan və Qafqaz regionunda tutduğu önəmli yer kontekstində yanaşmaq onun əsl səbəblərini üzə çıxarmağa kömək edər.

Tarixdən yaxşı məlumdur ki, Azərbaycan dövlətçiliyi özünün ən yüksək zirvəsinə Səfəvilər dövlətinin yaradılması ilə çatmışdı. Zamanında böyük bir coğrafi məkanı əhatə edən bu dövlətin zəifləməsi ilə Azərbaycan öz sərhədləri içərisində daralmağa başladı. Səfəvilər dövlətinin süqutu, Azərbaycanın pərakəndə şəkildə xanlıqlara parçalanması, sonda bütün regionun rus imperiyasının nəzarəti altına keçməsi ilə nəticələndi. Beləliklə, Azərbaycan dövlətçiliyinin zəifləməsi bütövlükdə Qafqaz regionunun imperiya caynağına keçməsinə səbəb oldu.

Lakin faciə bununla bitmədi. Minilliklər ərzində Avrasiyanın sahibi olan qüdrətli türk dövlətçiliyinin dirçəlməsinə bir daha imkan verməmək məqsədilə Altaylardan Balkanlara qədər uzanan türk qurşağını parçalamağa çalışan rus imperiyası "məzlum" erməni tayfalarını məhz Qafqazda, əzəli türk torpaqlarında yerləşdirməyə başladı. Türk zolağının strateji mərkəzində yerləşən Azərbaycan imperiyanın şikarına çevrildi. Son üç yüz ildə əhalisi daim artmaqda olan Azərbaycanın ərazisi daim azalmağa, dəfələrlə bölünərək imperiya tərəfindən udulmağa məruz qaldı və bugünkü Azərbaycan dövləti mövcud olduğu bütün siyasi-mədəni tarixi ərzində ən az torpaqlara malikdir.

XX əsrdə rus çarizmini əvəzləyən sovet imperiyası da bu "ənənəyə" sadiq qalaraq Azərbaycanı parçalamağa davam etdi. Qəddarlığı ilə öz sələfindən heç də geri qalmayan sovet imperiyası soydaşlarımızın böyük bir hissəsini Asiya çöllərinə sürgün etdi, Zəngəzur mahalını da ermənilərə təhvil verdi. Bütün bunlara mətinliklə sinə gərən millətimiz 70 il ərzində sovet əsarətinə qarşı mübarizəsini və milli azadlıq hərəkatını davam etdirdi. Bu mübarizə 20 Yanvar faciəsindən keçərək milli dövlətçiliyimizin bərpasına yol açdı.



Əslində, Xocalı hadisələri Azərbaycanda sovet imperiyasının dayaqlarını laxladan milli azadlıq hərəkatını boğmağa yönəlmiş Qanlı Yanvar faciəsinin davamı idi. Bu, xalqımızın mübarizlik əzmini sındırmağa, Azərbaycanı yenidən əsarət altına almağa yönəlmiş zorakılıq aktı idi. Xocalı qətliamının törədilməsinə "dəstək" verənlər yenicə müstəqilliyini bərpa etmiş Azərbaycana öz gücünü nümayiş etdirdi və əsl niyyətini ortaya qoydu.

Xocalı soyqırımı, əslində, bütün dünya türklüyü qarşısına atılan imperiya "əlcəyi" idi. Son iki yüz il ərzində dünya imperializminin köməyi ilə qədim türk torpaqlarında məskunlaşdırılmış, imperiya boyunduruğunda yaşamağa və imperiya buyuruqlarını məharətlə yerinə yetirməyə alışmış, ən çətin anlarda qonşularına dayaq olmaq əvəzinə xəyanət etməyi adət etmiş ermənilər isə həmişə olduğu kimi, bu dəfə də məkrli imperiya siyasətinin əsas ifaçıları kimi çıxış etdilər. Nəticədə, növbəti dəfə torpaqlarımızın bir hissəsini tərk etməyə məcbur edilsək də, müstəqillik idealından geri çəkilmədik.

Bütövlükdə, tarixən Qafqazın dövlətçilik ənənəsinin əsas hissəsini məhz Azərbaycanın dövlətçilik ənənəsi təşkil etmişdir. Buna görə də rus imperiyası mövcud olduğu bütün zamanlarda Azərbaycan dövlətçiliyini, xüsusilə onun digər türk dövlətləri ilə müttəfiqləşib güclənməsini öz imperialist maraqlarına ciddi təhlükə hesab etmişdir. Çünki güclü Azərbaycan həm də güclü Qafqaz deməkdir. Lakin bu reallığı qəbul etməyən, imperiyalar tərəfindən "böyük Ermənistan" xülyası ilə "yemlənən" ermənilər tarix boyu imperiya siyasətinin ucuz aləti kimi Qafqazda dağıdıcılıq missiyasını məharətlə yerinə yetirmiş və son 30 ildə Azərbaycan ərazisində separatizmi alovlandırmaqla, çirkin ənənələrinə sadiq qaldılar.

Yaxın keçmişimizin ən faciəvi hadisələrindən olan Xocalı soyqırımı erməni təfəkkürünün və tipik erməni xarakterinin təkcə onun qonşuları üçün deyil, bütövlükdə, bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu bir daha sübut etdi. Erməni xarakterinə xas olan terrorizm, etnik təmizləmə və işğalçılıq siyasəti müasir dünyada dayanıqlı sabitliyə və sülhə ən böyük təhdid mənbələri kimi çıxış edir.

Tarix boyu iyrənc "keyfiyyətlərini" qoruyub saxlamağa nail olmuş ermənilər isə bu gün düşdükləri aciz vəziyyətin kökündə məhz sahib olduqları ermənilik xarakterinin dayandığının fərqində deyillər. Bununla ermənilər təkcə Qafqaz regionunda deyil, bütün dünyada sabitliyin təmin olunmasına qarşı ən böyük manea kimi çıxış edir və beynəlxalq humanizm siyasətinə ağır zərbələr vururlar.

Ermənilər üçün müstəqillik heç zaman milli məqsəd olmayıb və bu gün də əsas şərt deyildir. Son onilliklərdə Ermənistanın bütün sahələrdə aparıcı dövlətlərdən asılı vəziyyətə düşməsi və həmişə olduğu kimi, onların "vassalı" və lazım olduqda isə "forpostu" rolunda çıxış etməsi bunu bir daha sübut etdi.

Vaxtilə, əhalisinin əhəmiyyətli qismi Azərbaycan türklərindən və digər millətlərdən ibarət olan Ermənistanda bu gün vəziyyət tamamilə fərqlidir. Etnik təmizləmə nəticəsində digər millətlərin nümayəndələri zorla öz tarixi yurdyuvalarından qovulmuş və qonşu dövlətlərdə məskunlaşmağa məcbur olmuşlar. Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Azərbaycan həmişə olduğu kimi, bəşəri dəyərlərə, regionda sülh və sabitliyə real təhlükə mənbəyi olan mənfur qüvvələrə qarşı qətiyyətlə mübarizə aparmaqdadır. Nə qədər çətin olsa da, Azərbaycan dövləti və xalqı təkcə öz milli maraqları üçün deyil, bütövlükdə ümumbəşəri dəyərlərinin qorunub saxlanılması üçün öz mübarizəsini fədakarlıqla davam etdirməkdədir.

Ölkəmiz bütün tarixi boyu çoxsaylı millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı, bütün dünyaya tolerantlıq örnəyi olan bir məkandır. Hətta Azərbaycan vətəndaşı olan çoxsaylı etnik ermənilər də heç bir milli ayrı-seçkiliyə məruz qalmadan bu gün də Azərbaycanda yaşamaqda davam edirlər. Bu fakt bir daha Azərbaycan xalqının sülhpərvərliyini, dözümlülüyünü və birgəyaşayış ənənələrinə, multikulturalizm ideallarına sadiqliyini nümayiş etdirir.

Bütövlükdə, 33 il davam edən Qarabağ münaqişəsinin ilk 5 ilində təcavüzkar Ermənistan havadarlarının köməyi ilə Azərbaycanın, təxminən, 20 faiz ərazisini təşkil edən 12 rayonunda yerləşən 700 yaşayış məntəqəsini nəzarətində saxladı. İşğalçı quldur dəstələr 24 min azərbaycanlını vəhşicəsinə öldürdü, 4 minə qədər dinc əhali əsir düşdü. Əsir aparılanların əksəriyyəti uşaq, qadın və qocalardan ibarətdir. İtkin düşmüşlərin sayı 4965 nəfər oldu. Onlardan 320 qadın, 69 isə uşaq idi. 1 milyona yaxın azərbaycanlı öz doğma yuvalarından qovularaq qaçqına və məcburi köçkünə çevrildi.

Bütün bu hadisələrin cərəyan etdiyi zamanda dünya susdu, azərbaycanlıların fəryadına səs verən olmadı. O zaman dünya nəinki ermənilərin qınadı, hətta ermənilərin bu vəhşiliyinə əl-altdan dəstək verən dövlətlər, siyasi xadimlər, dini rəhbərlər də tapıldı. Bəzi beynəlxalq təşkilatların zorakılıqdan çəkinmək çağırışlarını eşitməzliyə vuran ermənilər 1993-cü ildə BMT-nin bütün işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz geri çəkilmək haqqında qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Erməni lobbisinin təbliğatına uymuş Avropa susdu, işğalçıya "dur" deyən və onu durmağa məcbur edən güc tapılmadı. Bütün bu hadisələri planlayan, həyata keçirilməsində bilavasitə iştirak edən erməni ideoloqları Zori Balayan, Silva Kaputikyan, o zamankı Ermənistan prezidenti Levon Ter-Petrosyan, səhra komandirləri Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan və başqaları isə soyqırımı və insanlıq əleyhinə cinayətlər törətdiyinə görə mühakimə olunmaq əvəzinə Ermənistanda siyasi hakimiyyətə yiyələndilər və açıkar işğalçılıq siyasətini davam etdirdilər.

Bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, ölkəmizin davamlı inkişafa nail olması və regionun aparıcı dövlətinə çevrilməsi həm də Qarabağ münaqişəsinin Azərbaycanın milli maraqları çərçivəsində həllini gerçəkləşdirdi. Bu məsələdə Azərbaycanın ən güclü silahı - onun haqlı mövqeyi oldu. Azərbaycanın haqlı mövqeyinin arxasında beynəlxalq siyasətin ədalətli mövqeyinə və beynəlxalq hüquq normalarının yerinə yetirilməsini gerçəkləşdirmək iradəsi dayanırdı. Dövlətlərin ərazi bütövlüyünə, ölkələrin suverenliyinə qarşı real təhdidlər olduğu halda, gücdən istifadə etmək hüququ kimi beynəlxalq hüququn prinsipləri Azərbaycana istənilən yolla öz torpaqlarını azad etmək, öz sərhədləri daxilində suverenliyini bərpa etmək imkanları yaradırdı.

Azərbaycan xalqı, nəyin bahasına olursa-olsun, Xocalı qatillərini cəzalandırmaq və işğala son qoymaq məqsədi ətrafında bir yumruq kimi birləşdi. Beynəlxalq təşkilatların, Ermənistanın işğalçılıq siyasətini gizli şəkildə dəstəkləyən bir sıra dövlətlərin təzyiqlərinə və təhdidlərinə baxmayaraq, Dəmir yumruq Qarabağımızda kök salmış şər yuvasının başına endirildi. 2020-ci ilin 44 günlük Vətən müharibəsi erməni işğalına birdəfəlik son qoydu. 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı.

Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu gün Qarabağın və Şərqi Zəngəzurun bütün ərazisində Azərbaycan bayrağı qürurla dalğalanmaqdadır.

Bununla da 1993-cü ildə BMT tərəfindən qəbul olunmuş 4 qətnamənin həyata keçirilməsi təmin olundu. O ki qaldı Xocalı soyqırımına beynəlxalq münasibətə, "BMT tərəfindən 1948-ci ildə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada əks olunan müddəalara müvafiq olaraq, cinayət hadisələrini soyqırım kimi xarakterizə edən bütün xüsusiyyətləri Xocalının acı taleyində görmək mümkündür. Həmin konvensiyada qeyd olunmuş etnik mənsubiyyətinə görə insanların məqsədli şəkildə, xüsusi qəddarlıqla və işgəncə verilərək öldürülməsi, kütləvi qırğın aktının qabaqcadan planlaşdırılması kimi meyarlar Xocalı hadisələrinin mahiyyətini təşkil edir.

Özündə dözümsüzlüyü, etnik-dini ayrı-seçkiliyi, məqsədli etnik təmizləməni, ağlasığmaz işgəncələri birləşdirən Xocalı qətliamı əsl soyqırımı hadisəsidir.

Xalqımız bu gün - soyqırımının ildönümü günündə bu tarixin kədərini yaşamaqla bərabər, həm də alınmış qisasın qürurunu yaşayır. Amma Xocalıda vəhşiliklə qətlə yetirilmiş soydaşlarımızın qisası alınmış olsa da, tariximizin bu faciəli səhifəsini bir an belə unutmaq olmaz.

Hələ 1994-cü il fevralın 24-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmişdi. Ümummilli liderin 1997-ci il 25 fevral tarixli sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsi hər il fevral ayının 26-sı saat 17:00-da bütün ölkə ərazisində keçirilən sükut dəqiqəsi ilə yad edilir. Hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım mərasimi keçirilir. Xocalı faciəsinin qurbanlarını yad edərkən Prezident İlham Əliyev bu hadisəni belə səciyyələndirmişdi: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir".

Erməni işğalı və Xocalı faciəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması bu gün də davam etdirilir. Bu faciənin geniş miqyasda tanıdılması üçün 2008-ci ildən etibarən dünyanın yüzdən artıq ölkəsində "Xocalıya ədalət!" beynəlxalq kampaniyası həyata keçirilir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkəsində Xocalı faciəsinə həsr olunmuş tədbirlər təşkil edilir, 30 il ərzində Ermənistan tərəfindən Azərbaycana qarşı yürüdülmüş işğalçılıq siyasəti haqqında əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılır.

Bu günədək 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyib. Sosial şəbəkələrdə təşviqat, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər təşkil edilir. Kampaniyanın Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbini irəli sürən müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb. Xocalı faciəsinin soyqırımı və ya insanlığa qarşı cinayət kimi tanınması haqqında bir çox ölkələrdə parlament aktları qəbul olunub. Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilib. Xocalı soyqırımı ABŞ-ın 30-dan çox ştatının qanunvericilik qurumları və qubernator bəyanatları səviyyəsində tanınıb. Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib.

Artıq torpaqlarımız işğaldan azad edilib, bütün ərazilərimiz üzərində suverenliyimiz təmin olunub. Lakin Xocalı faciəsi yaddaşlardan silinməyib və bu faciə heç vaxt unudulmayacaq. Çünki bu, bizim tariximizin qan yaddaşıdır. Tarix isə unutqanlığı bağışlamır.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı,***
***fəlsəfə doktoru***

*Xocalı soyqırımı – 34*

# Erməni quduzluğunun Xocalıda insan ovu

## *Şahidlərin söylədikləri yatmış vicdanları döyəcləyir*

**1992-ci ilin qanlı-qadalı fevral gecəsində Xocalı amansız sınağına çəkildi. Ana fəryadı asimanı titrətdi, günahsız körpələrin ahı ərşə qalxdı. O müdhiş gecənin qaranlığı bütöv bir millətin taleyinə qara örpək kimi çəkildi. Otuz ildən artıq zaman kəsiyində Xocalı xalqımız üçün məlhəmsiz yara idi. Əsir düşənlərin iztirabı, itkinlərin həsrəti qəlbimizi param-parça etmişdi.**

Lakin taleyin gərdişi dəyişdi, Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu. 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri xalqımızın qətiyyətini dünyaya bir daha nümayiş etdirdi. Yevlaxda aparılan danışıqlar isə bu şanlı yolun son nöqtəsi oldu. Sentyabrın 24-də Xocalı Azərbaycan Respublikasının nəzarətinə keçdi. Parlayan Zəfər Günəşi ilə o müqəddəs torpaqlardan yağı ayağı birdəfəlik kəsildi. İllər əvvəl canı dişində, yalın ayaqla qarlı meşələrdə didərgin düşən Xocalı sakinləri bu gün öz ata-baba yurduna qədəm qoyurlar. İndi Xocalı səmasında dalğalanan üçrəngli bayrağımız həm qəhrəman şəhidlərimizin ruhuna təsəlli, həm də tarixin ədalət tərəzisində haqqın təntənəsidir.

O zülmət gecədən canını güclə qurtaran, bəxtinə əsirliyin acı qisməti yazılmış bir neçə şahidlə həmdərd olduq.

**Ceyran ƏZİZOVA:**



– Xocalı dəhşətində ən çox ailə üzvünü itirənlərdən biriyəm. 1983-cü ildən 1992-ci il fevralın 13-dək Xocalıda uşaq bağçasında baş mühasib olmuşam.

Xocalıdan çıxanda övladlarımın birinin 2, digərinin isə 1 yaşı var idi. Yoldaşım Xocalının özünümüdafiə batalyonunda döyüşürdü. Evdə uşaqlarla tək qalırdım, hər gecə qorxu içində yaşayırdıq. Ermənilər müxtəlif yollarla evlərə soxulur, sakinləri öldürürdülər. 1991-ci il sentyabrın 10-dan 11-nə keçən gecə səhərədək Xocalı Kətik, Bozdağ və Mehtikənd yüksəkliyindən qrad atəşinə tutuldu. Səhər açılanda insanlar nəfəs almağa belə çətinlik çəkirdilər. Havadan zəhər udurduq. Bozdağdan atılan qrad bacımgilin evinə düşdü. Bir müddət sonra təcili tibbi yardım maşını həmin istiqamətə yollandı. Qonşularımızdan biri uşaqları məndən aldı və "bacıngil tərəfə get" dedi. Əvvəl heç nə başa düşmədim, sonradan məlum oldu ki, bacımın yoldaşı Zahid Muradov öldürülüb. Xocalının ilk şəhidi o idi...

Həmin gündən Xocalının şəhidləri artmağa başladı. Şəhər oktyabr ayından tam mühasirəyə alındı və blokadaya düşdü. Ermənilər Xocalının bütün quru yolunu bağladı, giriş-çıxışlarda postlar quruldu. Şəhərə ərzaq da buraxılmırdı. Çörək maşınları vurulur, geri qaytarılırdı.

1992-ci il yanvarın 28-də Şuşaya gedən vertolyot Xocalıdan keçərkən erməni silahlı birləşmələri tərəfindən vuruldu və ondan sonra şəhərə heç bir yardım gəlmədi. Vertolyotun içərisindəki insanların qışqırtısı hələ də qulağımdan getmir. Çox dəhşətli mənzərə idi. Bu hadisədən sonra Xocalının hava yolu da tam bağlandı. Nə yardım gətirən, nə də köməyə gələn oldu. 1992-ci il yanvarın 28-dən Xocalı sakinləri köməksiz və yardımsız qaldılar.

Qazımızı, işığımızı kəsdilər. Çörək sexlərini generatorlarla işlətmək istədilər, o da alınmadı. İş o yerə çatdı ki, şəhərdəki çörək sexləri evlərə xəmir paylamağa başladılar ki, acından ölməyək. Xəmiri ocaqda qızardıb qənaətlə uşaqlara verirdik. Əli silah tutan kişilər səngərlərdə idi. Fevralın 12-dən 13-nə keçən gecə Xocalı iriçaplı silahlardan atəşə tutuldu. Güllələr yağış kimi yağırdı. Heç kimin sağ çıxmaq ehtimalı yox idi. Təxminən 20-30 dəqiqə atəş dayanmadı. Güllə səsləri kəsiləndə anladıq ki, ermənilər Xocalının gücünü yoxlamaq istəyirdilər, onlara məlum oldu ki, əhalidə silah yoxdur.

Həmin gün yaşlı və uşaqlı qadınları Xocalıdan çıxarmaq üçün iki vertolyot gəldi. Heç kim getmək istəmirdi, amma məcbur idik. Əvvəlcə vertolyotun biri yaralı və qocaları apardı. Biz dərə-təpə ilə gəlib çayı keçdik. Bu vaxt bir yük vertolyotu göründü. Qaçdıq vertolyotun yanına. Bəlkə 500 adam vardı - yaralı, qoca, qadın, uşaqlı. Vertolyotun yük yeri də dolmuşdu. Mənə yer olmadı. Bu vaxt Xocalının icra başçısı Elman Məmmədov uşaqlarımı əlimdən alıb vertolyotun pilotları olan kabinəyə qoydu və məni də onların yanına mindirdi. Yoldaşım bizi həmin vertolyotla Gəncəyə yola saldı, özü isə geri qayıtdı. Amma mən dayana bilməyib Ağdama qayıtdım. Ağdamda Xocalı ilə əlaqə saxlamaq üçün xüsusi qərargah yaradılmışdı.

Fevralın 14-dən 26-dək həmin qərargahın qarşısında yatdıq. Hər an xəbər gözləyirdik, amma heç nə demirdilər. Hər gün Xocalıya qonşularımıza zəng vururdum ki, həyat yoldaşımdan, bacımdan, qohumlarımdan xəbər bilim. Fevralın 25-də Xocalı polis şöbəsinə zəng vurub həyat yoldaşımı soruşdum, çünki yoldaşımın ağciyərində problem var idi. Qonşularımızdan biri gəlib telefonda dedi ki, həyat yoldaşım postdadır, vəziyyəti yaxşıdır.

Fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum olundu. Bunu bizdən gizlətdilər. Səhər saat 6-da xəbər çıxdı ki, gecə Xocalıda hamını öldürüblər.

30 nəfərə qədər insan sağ çıxmışdı, onların da ayaqları yalın, don vurmuş vəziyyətdə. Bacımı axtardım, "gördüm" deyən yox idi. Şelli dərəsinə getdik ki, camaat oradan gəlir. Neçə gün gələn yaralılara, gətirilən meyitlərə baxdım. Heç kimi tapa bilmədim. Bir həftədən sonra xəbər çıxdı ki, bacımı Tərtər rayonuna aparıblar. Amma yoldaşımdan xəbər yox idi.

Üç gündən sonra qayınanam girovluqdan buraxıldı, qan içində gəldi. O, deyəndən sonra bildik ki, qaynım və qaynımın oğlunu öldürüblər. Məlum oldu ki, həyat yoldaşım Milli Qəhrəman Araz Səlimova köməyə gedəndə mühasirəyə düşüb. Ermənilər Arazın bacısı və bacısı uşaqlarını girov götürüb, Arazdan və yoldaşımdan təslim olmasını istəyiblər. Məcburiyyət qarşısında qalan yoldaşım və Araz silahı yerə atıb təslim olaraq girovluqda olanları azad ediblər. Amma ermənilər Arazı və həyat yoldaşımı xüsusi amansızlıqla öldürüblər. 5 gündən sonra atamı don vurmuş vəziyyətdə meşədən tapdılar. Bir müddət yaşayandan sonra dünyasını dəyişdi.

Martın 2-də gecə Xocalıdan 86 meyit yüklənmiş "KamAz" gəldi. Həyat yoldaşımın meyitini oradan tapdıq, qarnı cırılmış, boynu qırılmış vəziyyətdə, qolunda güllə yerləri. Ermənilər onları Əsgəranda güllələyib dərəyə atmışdılar. Onları Ağdamda dəfn etdik. Bir müddətdən sonra həmin ərazi də ermənilər tərəfindən işğal olundu və uzun illər o qəbirləri ziyarət edə bilmədik.

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli ilə torpaqlarımız işğaldan azad olunandan sonra yoldaşımın və qayınımın məzarını tapdıq. İllərlə içimizdə daşıdığımız nisgil bir qədər yüngülləşdi. O torpaqda diz çöküb dualar oxuyarkən həm ağladıq, həm də şükür etdik...

**Səadət ZEYNALOVA:**




– İnanmırdıq ki, Xocalının son günləridir. Fevralın 25-dən 26-na keçən gecə zirzəmidə oturmuşduq. Dedilər ki, Xocalıya hücum edirlər. Zirzəmidən çıxıb meşəyə üz tutduq. Gecə saat 2-3 olardı. Meşədə gizlin bir yerdə oturub gözləyirdik. Arxadan gələnlər dedilər ki, Xocalını tərk etdik və bir daha Xocalıya qayıtmaq mümkün olmayacaq. Bizdən soruşdular ki, burda niyə oturmusunuz, vəziyyət çox ağırdır, tez burdan uzaqlaşmalıyıq. Meşədə azmışdıq deyə, 5 gün orada qaldıq. O zaman çəkdiyimiz əzabları təsvir etmək çox çətindir. Yada saldıqca, sanki, o dəhşətləri yenidən yaşayırıq. Çox itkilərimiz oldu.

Əmim 1941-1945-ci illər müharibəsindən sağ qayıtmışdı. Ağsaqqal vaxtında erməni vəhşilərinin hücumu zamanı şəhid oldu. Xalam oğlu Azərbaycanın Milli Qəhrəmanı Araz Səlimovun cəsədi Ağdama gətiriləndə tanınmaz halda idi. Xalam öz övladının cəsədini tanımadı. Qulağı, barmaqları, dodağı kəsilmiş, dişləri çıxarılmış, dizləri oyulmuşdu. Necə işgəncələr verilmişdi ona.. Biz bu faciəni illər keçsə də, unuda bilmərik. O qədər dəhşətləri görmüş insan bunları hafizəsindən silə bilməz.

Xocalı erməni vəhşilərindən azad edildikdən sonra illərlə həsrətində olduğum, ağlasığmaz dəhşətlər yaşadığım doğma el-obamı ziyarət etdim.

Bu gün Xocalıda aparılan abadlıq-quruculuq işləri mənə təsəllidir. Sevinirəm ki, dövlət başçısının rəhbərliyilə Xocalı yenidən bərpa olunub öz sakinləri ilə birgə sakit həyatına davam edir.

**Mürvət MƏMMƏDOV:**



– Qərbi Azərbaycanın Göyçə mahalındanam. Ermənilərin vəhşiliyindən Xocalıya sığınmışdıq. Xocalı soyqırımı zamanı 14 yaşım var idi. Ora gələnə qədər bir qardaşım da Göyçədə şəhid olmuşdu.

Atam Məmməd, böyük qardaşlarım Söhbət və Möhlət də Xocalıdakı könüllü batalyonlara qoşularaq postlarda keşik çəkirdilər. Xocalıya gələn sonuncu vertolyot vurulandan sonra hər yerlə hava əlaqəmiz tamamilə kəsildi, əhali işıqsız, qazsız, susuz, ərzaqsız şəraitdə, düşmənin atəşi altında birtəhər yaşayırdı, amma bir nəfər də şəhəri tərk etmirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə atışma heç səngimədi. Biz xocalılılar orada bütün işgəncələrə qatlaşdıq, amma heç birimiz ermənilərə boyun əymədik.

Heç vaxt yadımdan çıxmaz, balaca qardaşımın doğum günü idi. Ermənilər bunu bildilər, ona dedilər ki, silah versək, atarsan? O dedi ki, hə. Avtomatın lüləyini əlinin içinə qoyub atəş açdılar. Dedilər ki, bu sənə bizdən ömürlük ad günü hədiyyəsi olsun. Anam yaralı olmasına baxmayaraq, girovluqda özünü sipər edir, bizi qorumağa çalışırdı.

Bir həftə sonra girov saxlanıldığımız otağın qapısını açdılar, bizi təpikləyərək çölə çıxardılar. Oradakı ermənilər bizi döyməyə başladılar. Daha sonra avtobusa mindirib Ağdamla Əsgəran arasındakı sərhədə gətirdilər. Şəhidimiz, Milli Qəhrəman Allahverdi Bağırovun köməyi ilə 80 nəfər yaralı azərbaycanlı əsir-girovu ermənilər tərəfindən döyüşən muzdluların meyitləri ilə dəyişdilər. Həmin 80 nəfər yaralı azərbaycanlıdan 5 nəfəri mənim ailə üzvüm idi. Sonra Ağdam rayon xəstəxanasına gətirildik. Ermənilər xəstəxanaya da raket atdılar. Həmin vaxt cərrahiyyə əməliyyatında idim, hərə bir yana qaçırdı.

Olduğumuz yerdə çoxlu azərbaycanlı girov var idi. Hamısına işgəncələr verilmişdi. Bəziləri yaralı idi, eləsi də var idi ki, başından güllə dəymişdi.

Düz 15 il müraciət etmədiyimiz qurum, beynəlxalq təşkilat qalmadı. Atam və 2 qardaşım barədə 2007-ci ildə xəbər aldım. Azad Azərbaycan Televiziyası və Dövlət Təhlükəsizliyi Xidməti (o vaxtkı Milli Təhlükəsizlik Nazirliyi) canlı şahidlərdən ibarət sənədli film çəkirdi. Bizi də dəvət etmişdilər. Məlum oldu ki, atamın və qardaşlarımın başlarını erməni məzarlarının üstündə qurban kimi kəsiblər. Sonra azərbaycanlı əsirlərə deyiblər ki, xəndək qazın, bunların üstünü basdırın. Bu faciəli tarixin bizə yaşatdıqlarını heç vaxt unutmayacağıq. Biz heç zaman ümidimizi itirmədik, bildik ki, bir gün mütləq torpaqlarımız azad olunacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Şükürlər olsun ki, Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Mən Mehriban xanım Əliyevaya, Leyla xanım Əliyevaya "Xocalıya ədalət!" kampaniyalarına görə minnətdaram. Dövlət başçımız arzumuzu gözümüzdə qoymadı. Artıq Xocalıya əbədi qayıtmışıq.

Danışdıqca səsləri titrəyən, lakin qələbə və qayıdış sevinci ilə gözləri parlayan həmvətənlərimiz indi qalib dövlətin məğrur övladları kimi doğma yurdun torpağında qürurla addımlayırlar.

***Fidan ƏLİYEVA***
***XQ***

**1992-ci ilin fevralı… O gecə qış da ən sərt üzünü göstərdi, dizə qədər yağan qar yalnız torpağı yox, ürəkləri də üşütdü. Xocalıda günahsız körpələr, qadınlar, qocalar amansızlıqla qətlə yetirildi.**

**Xocalı sakini Valeh Hüseynovun həyat hekayəsi bir insanın yox, bir millətin yaddaşıdır. Lakin yaşadığı faciə, əsirlik onu sındırmadı. Əksinə, onu mübarizə çevirdi. "Əsir düşdüm, sınmadım, ac qaldım. Amma ruhum əsir olmadı" - Valeh söhbətə başlayır:**

# "Cismin əsir oldu, ruhum isə azad"

– Xocalı 1988-ci ildən 1992-ci ilədək düz 4 il mühasirədə qaldı. Cəmilli, Kosalar, Kərkicahan, Quşçular, Malıbəyli kəndləri yandırıldıqca növbənin Xocalıya çatdığını hiss edirdik. Ermənilər Xocalıya hər bir cığırdan hücuma keçirdilər. Bu zaman küçə döyüşləri başladı. Xocalı camaatı kiçik dəstələr yaradıb ov tüfəngi və digər yüngül silahlarla silahlanaraq erməni yaraqlılarına qarşı qəhrəmancasına döyüşürdü. Qadınlar da kişilərə kömək göstərirdi. Təsəvvür edin ki, biz kiçik silahlarla tank, PDM, zirehli texnikalar və minaatanlara qarşı vuruşurduq.

Valeh vurğulayır ki, qeyri-bərabər döyüşdə Xocalını tərk etməkdən başqa çarələri qalmayıb. Ona görə də Kətik meşəsinə üz tutublar və Tərtər çayı ilə Qarqar çayının kəsişdiyi yerdən keçməli olublar: "Biz cavanlar oradan qadınları, uşaqları, yaşlıları keçirmək məcburiyyətində idik. 23 yaşım vardı və 4 ay idi ki, ailə həyatı qurmuşdum. Həyat yoldaşım Səadətlə birlikdə o qarlı, şaxtalı havada Kətik meşəsinə çatdıq. Meşənin yolları o qədər çətin və enişli-yoxuşlu idi ki, qar yağması bu çətinliyi daha da artırmışdı. Burada bir çox insan donaraq, digərləri isə erməni gülləsinə tuş gələrək həlak oldu. Ermənilər qaçarkən Kətik meşəsindən keçəcəyimizi bildikləri üçün buranı mütəmadi atəş altında saxlayırdılar. Səhərə qədər dayanmadan getdik, Əsgərana çatanda ermənilər bizi zirehli maşınlardan atəşə tutdular. Qadın, qoca, uşaq demədən hər kəsi güllələdilər. Qaçarkən az sayda sağ qalanlar da pərən-pərən düşdülər. Məsləhət bildik ki, həyat yoldaşım Səadət, digər qadın və uşaqlarla birgə Əsgərandan Ağdama getsinlər. Özüm isə yenidən döyüşə qatıldım. Bir neçə saatdan sonra atışma dayandı, yaralanmadan xilas oldum, bir neçə yoldaşla Ağdamın Şelli kəndinə çatmağımıza az qalmışdı ki, Səadətdən xəbər aldım. Dedilər ki, Səadət orada qalıb gələ bilməyib. Onu gətirmək üçün yenidən geri qayıtmalı oldum. Səadət 12 nəfər qadın və uşaqla birgə dərədə gizlənmişdi. Qayıdarkən heç birində taqət qalmamışdı. Qaraqaya kəndinə çatmağa az qalmışdı ki, dörd tərəfdən mühasirə altına alınaraq atəşə məruz qaldıq. Səadət qarın nahiyəsindən güllə yarası aldı və elə oradaca şəhid oldu. Həyat yoldaşımın cəsədini götürmək üçün orada qaldım, təxminən iki saat gülləbaran altında gözlədim. Atışma dayandı və ermənilər hər tərəfdən bizə yaxınlaşmağa başladılar. Gülləm qurtarmışdı. Ermənilərdən bir cavan oğlan bizim yanımıza yaxınlaşanda belimdəki bıçağı çıxarıb onun üzərinə doğru hərəkət etdim. Onun qaçmağına baxmayaraq dalınca getdim. Bu vaxt başqa bir erməni silahın süngüsü ilə başıma zərbə endirdi, huşumu itirdim. Gözümü açdığım zaman yerə sərilmişdim, məni qəddarcasına döyürdülər. Sonra sağ qalanları əsir götürdülər".

Valehi Ağdamla Əsgəran arasındakı kəndə apararaq zirzəmiyə salırlar. Martın 6-da Allahverdi Bağırovun dəstəsi Əsgəran istiqamətində hücuma keçir. Ermənilərdən biri Valehi öldürmək istəyəndə digəri "atma, yaxındadırlar, güllənin səsini eşidəcəklər" deyə imkan vermir. Valehi avtomatın qundağı ilə vururlar. Altı gün orada çox pis vəziyyətdə qalır. Martın 12-də gəlib görürlər ki, sağdır. Sürüyə-sürüyə apararaq 50-60 metrlik təpədən aşağı atırlar. Ermənilər Valehin öldüyünü zənn edirlər. Səhər gün görürlər ki, Valeh sağdır. Yenidən onu Əsgərana gətirirlər. Valeh bu dəfə qohum-tanışlarını - həyat yoldaşının əmisi Məhəmmədi və qonşuları Ələmdar kişini girovluqda görür. Amma onlar ağır işgəncələrə məruz qaldığına görə əvvəl Valehi tanımırlar.

Həmsöhbətim əsir düşdüyü anlardan söz açaraq bildirir ki, həmin vaxt həyatının ən ağır anlarını yaşayıb. Danışdıqca söhbətimizə fasilə verib, köks ötürür. Kədərli baxışları ilə gözlərini bir nöqtəyə dikərək bir anlığa xəyallara dalır. O günləri yenidən xatırlamaq istəməsə də, əsirlikdə olduğu 27 günün əzab-əziyyətlə və olmazın işgəncələrlə keçdiyini dilə gətirirərək söhbətinə davam edir:

– "Uşağa, qadına, qocaya fərq qoymadan işgəncə verirdilər. İlk əvvəl məni döyüb kəlbətinlə dırnaqlarımı çıxarıb, dişlərimi qırdılar. Taqətsizlikdən odun sobasının üstünə yıxıldım. Yerə aşan qaynar sobanı qırılmış əllərimlə yenidən düzəltməyə məcbur etdilər. Barmaqlarım yanmasın deyə əynimdən çıxarmağa çalışdığım cırılmış köynəkdən istifadə etmək istədiyimi görəndə imkan vermədilər və əllərimi sobaya yapışdırdılar. Əllərim o qədər yanmışdı ki, sərinləməsi üçün divardakı soyuq dəmirdən tutdum. Bu an əllərim dəmirə yapışdı. Bunu görən ermənilər ayaqlarımdan tutaraq özlərinə sarı çəkəndə əllərimin dərisi buz tutmuş dəmir boruya yapışıb qaldı.



Həmin dəhşətli ağrıları sanki bu gün də yaşayıram. Sonuncu işgəncələri isə sıxdıqları maye nəticəsində sol gözümün görmə qabiliyyətini itirdim.

Musiqiçi-gitara ifaçısı olduğu üçün əsir vaxtı ermənilər Valehin barmaqlarını qırırlar. Əllərini də tam yandırandan sonra soruşurlar ki, indi ifa edə biləcəksənmi Qarabağ şikəstəsini? Hər gün yaralar olan yerə vururlar ki, yara bitişməsin, yenidən açılsın. Onun ağrıları isə daha dözülməz olur.

Valeh dərindən ah çəkərək əsirlikdən azad olunmasını belə xatırlayır: "Bir gecə məni hədələyərək dedilər ki, sabah sənin ətini, qulağını, burnunu kəsib, özünə yedirdəcəyik, gözlərini çıxaracağıq. Demək olar ki, işgəncələrdən cana doymuşdum. Bizim səhhətimizi hərdənbir yoxlamaq üçün həkim gətirirdilər. Bu zaman verilən dərmanlardan bir ovuc içərək bu əzablara son vermək istədim. Lakin o qədər qan qusdum ki, dərmanları qəbul edə bilmədim. Bir gecədə saçlarım ağardı. Günorta saatları idi, saxlanıldığımız otağın qapısı açıldı. Vitali Balasanyan və yanında bir neçə erməni əsgəri içəri daxil oldu. Şəklimi mənə göstərdilər ki, bu sənsənmi? Təsdiqlədim. Özümlə əlaqəli bir neçə sual verib getdilər. Axşamçağı geri gəlib mənim üz-gözümün qanını təmizləyib, əynimə əsgər paltarı geyindirərək maşına mindirdilər. Bu vaxt arxadan biri səsləndi ki, sən Valehsən? Danışığından azərbaycanlı olduğunu anladım. Həmin adam Milli Qəhrəman Allahverdi Bağırovun döyüş yoldaşı Zahid Qarayev idi. Məni əsirlikdə olan 3 erməni ilə dəyişmişdilər. Beləcə 27 gün cəhənnəm əzabı gördüyüm əsirlikdən azad oldum".

Əsirlikdən azad edildikdən sonra Gəncədə xəstəxanaya yerləşdirilən Valeh 4 il müalicə olunur. Nəhayət, həkimlər Valehin barmaqlarının fəaliyyətini yenidən bərpa edirlər. "Gitarada ifa etmək istəyirdim, amma sağalandan sonra da gitara tapa bilmirdim. Televizorda gitara görəndə ağlayırdım. Sonra bir tanışımın köhnə gitarasını aldım. Toylara getməyə başladım. Çörək pulumu bu yolla qazanırdım" – deyə Valeh söyləyir.

Bu, bir Xocalı sakininin acı həyat hekayəsi idi. Odur ki, Xocalı naləsi, Xocalı harayı bəşər tarixinin ən dəhşətli faciəsi kimi heç vaxt yaddaşlardan silinməyəcək. Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir. İllər ötüb keçəcək, nə Xocalı dərdi, nə də xocalılıların naləsi yaddan çıxmayacaq.

44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfər və 2023-cü il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı separatçılardan tam təmizləndi. Şəhidlərimizin, Xocalının günahsız qurbanlarının qisasını alındı. Bu haqq döyüşündə tarix yazan Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının cəlladları da var idi. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

***Müşfiq MİRZƏ***
***XQ***

*Xocalı soyqırımı – 34*

# Xocalı harayı dünyanı dolaşır

**26 fevral Azərbaycan tarixində milli yaddaşın qanlı səhifələrindən biri, Xocalıda dinc əhaliyə qarşı amansız qətliamın ildönümüdür. O müdhiş gecəyə qədər Xocalıda təxminən 7 min nəfər əhali yaşayırdı. Qərbi Azərbaycandan və qonşu Xankəndi şəhərindən ermənilərin zorla köçürdükləri azərbaycanlı ailələr, eləcə də öz yurdlarından didərgin düşmüş Məhsəti türkləri Xocalıda məskunlaşmışdılar.**

**Azərbaycan 34 ildir ki, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Müxtəlif ölkələrdə anım tədbirləri, konfranslar, sərgilər təşkil edilir. “Xocalıya ədalət!” çağırışı ilə həyata keçirilən beynəlxalq kampaniyalar faciənin mahiyyətini qlobal auditoriyaya çatdırmaqda mühüm rol oynayır.**



**Müsahibimiz “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin sədri, Birinci Qarabağ müharibəsi veteranı Şamil Sabiroğludur.**

**– Xocalı soyqırımının növbəti ildönümündə, o fəlakətli gecənin səhəri gününün şahidi kimi, baş verənləri necə xatırlayırsınız?**

– 1991-ci ilin dekabr ayında “Səhər” gündəlik informasiya qəzetinin Qarabağ bölgəsi üzrə müxbiri təyin olundum. “Səhər”, “İki sahil” və “Aydınlıq” qəzetlərinə yazılar göndərirdim.

Noyabrın 1-dən Ağdamdan Xocalıya və Şuşaya gedən magistral yol bağlanmışdı. Bu yol Əsgərandan keçirdi və həmin ərazidə əsasən ermənilər yaşayırdılar. Yolun üzərində Pənahəli xanın inşa etdirdiyi məşhur Əsgəran qalası yerləşirdi. Qalanın ətrafı beton dirəklərlə tutulmuş, avtomobillərin hərəkəti tamamilə dayandırılmışdı. Xocalı camaatı artıq dörd ay idi ki, ağır blokada şəraitində yaşayırdı.

Qalanın giriş və çıxış yolları bağlı idi, ümid yalnız hava nəqliyyatına qalmışdı. 1992-ci il yanvar ayının 28-də Ağdamdan Şuşaya gedən mülki helikopter – Mi-8 vurulmuş, 43 nəfər sərnişin və bütün heyət həlak olmuşdu. Ondan sonra cəmi bir dəfə yardım aparan helikopter ərzaq və başqa lazımlı şeylər gətirdi, bir neçə nəfəri də çıxardı. Əhali mühasirədə qaldı, su, işıq, ərzaq yox idi. İnsanlar əzablı günlər yaşayırdılar.

Fevralın 12-si axşam saatlarında o dövrdə ölkə prezidenti olan Ayaz Mütəllibov Təhlükəsizlik Şurasının iclasını keçirdi. Bizə bildirildi ki, Xocalı tərəfindən də bir nəfər nümayəndə iştirak edə bilər. Xocalı sakini Allahyar müəllim iclasda iştirak edəcək, xalqın dərdini, problemini deyəcəkdi. Lakin iclasa az qalmış xəbər gəldi ki, Xocalıdan heç kim içəri buraxılmayacaq. Səbəb kimi isə prezidentin iclasda qəbul olunacaq qərarları ermənilərə ötürülə biləcəyini düşündüyünü söylədilər.

Toplantı Ali Sovetin binasında keçirilirdi və şübhəsiz ki, orada ciddi müzakirələr aparılmışdı. İclas gecə saat 4–5 radələrində başa çatdı. Mən iclasdan sonra Ayaz Mütəllibovun yanına getmək istəyəndə, ətrafdakılar məni dayandıraraq dedilər ki, narahat olmayın, sizə kömək olunacaq, maşın ayrılacaq, səhər Ağdama gedəcəksiniz. Əgər Xocalı yolu açılsa, oradan keçib Xocalıya daxil olarsınız. Amma bu, sadəcə vəd idi. Yol açılmadı, Xocalı camaatı çıxarılmadı və nəticədə Xocalı soyqırımı baş verdi.

Ağdamda qalan xocalılılar yol bağlı olduğu üçün geri dönə bilmirdilər. Onlardan 18 nəfəri Bakıya gətirdik. O dövrdə Ağdamdakı xocalılıları mərhum Xalq yazıçısı, deputat İsmayıl Şıxlı, eyni zamanda, Tofiq Bağırov, Etibar Məmmədov, Rəhim Qazıyev, Əbülfəz Elçibəylə, Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Altan Karamanoğlu ilə görüşdürdüm. Soruşdular ki, istəyiniz nədir? Bildirdik ki, Xocalıda vəziyyət yaxşı deyil, ya Əsgəran yolu açılmalıdır ki, camaat rahat hərəkət edə bilsin, ya da Xocalı əhalisini, xüsusən qız-gəlinləri, yaşlıları oradan çıxarmaq lazımdır.

Xocalılıların rəhbəri, şair Allahyar Xocalı ilə söhbətim heç vaxt yadımdan çıxmır. Ona dedim ki, Allahyar müəllim, bu hakimiyyətə inanmayın. Xocalı işğal oluna bilər. Bu sözləri işğaldan tam 15 gün əvvəl demişdim.

**– Xocalıya hücumdan əvvəl etdiyiniz xəbərdarlıqlar ciddiyə alınmadı və bu laqeydliyin nəticəsi çox ağır oldu...**

– O vaxt mənim cəmi 23 yaşım vardı. Könüllü şəkildə Xocalıya gedən bir gənc buranın işğala məruz qalacağını anlaya bilirdisə, ölkə rəhbərliyi bunu necə görməyə bilərdi? Biz Bakıya dəfələrlə məlumat göndərmişdik: Xocalıda vəziyyət son dərəcə gərgindir, şəhər işğal təhlükəsi altındadır. Təkcə biz yox, Xocalının rəhbərliyi də paytaxta xəbər-



darlıqlar edirdi. Bəs niyə qulaq asmadılar? Niyə bu qədər məsuliyyətsizlik göstərildi?

Həmin günlərdə mən Ağdam ərazisində Şelli, Qaraqaya və Xaçın ətrafında idim. Davamlı olaraq hərbi hissələrə gedir, əsgərlərlə, yerli əhali ilə ünsiyyətdə olur, vəziyyətlə bağlı məlumat toplayır və Bakıya ötürürdüm.

Xocalının işğalı gözlərimin önündə baş verdi. Bir anın içində şəhər alova büründü, hər yer od tutub yanırdı, aramızda cəmi 7–8 kilometrlik məsafə vardı. Oradan çıxan yaralıları, yaşlı insanları imkan daxilində xilas etdik. Fevralın 26-sı axşam saat 6-ya qədər yaralıları daşıdıq, əl-ayaqları donmuş insanları çıxardıq. İkinci və üçüncü gün isə meyitlərin çıxarılmasına davam etdik.

Fevralın 26-sı saat 5–6 radələrində “Səhər” qəzetinin redaksiyasına zəng etdim. Dedim ki, Xocalıda dəhşətli faciə baş verib. Ancaq mənə inanmadılar, dedilər ki, bizdə olan məlumata görə, Xocalıda cəmi iki nəfər həlak olub. Xocalı hələ də bizdədir. Bu məlumatı haradan almısan ki, şəhər işğal olunub? Mən redaksiyada baş redaktorun müavini Hidayət Elvüsala bildirdim ki, mənə bölgə müxbiri kimi də inanmırsınız? Burada bu qədər insan həlak olub. Ağladım, səsim titrəyirdi. O isə dedi ki, səbirli ol. Biz manşetdə sənin verdiyin xəbəri yerləşdiririk. Bu məlumatı “Səhər” qəzetində dərc olunduqdan sonra vəziyyət daha da qarışdı. Ayın 27-də qəzetdə yazıldı ki, ilkin məlumata görə 100-dək insan həlak olub — diqqət edin, ilkin məlumata görə. Eyni vaxtda bir çox qəzetlərdə isə yanlış məlumat yayılmışdı. Cəmiyyətdə tam bir informasiya xaosu yarandı. Aləm bir-birinə dəydi. Ardınca biz jurnalistləri ermənilərə işləməkdə günahlandırmağa başladılar.

Halbuki mənim əlimdə faktlar, hadisə yerində çəkdiyim fotolar vardı. Onlardan bir neçəsini Bakıya, redaksiyaya göndərdim. Nəticədə martın 4-də qəzetdə kəskin başlıqlı bir yazı dərc olundu: “Azərbaycan qan içində boğulur”. Hidayət Elvüsalın imzası ilə çıxan məqalədə Xocalıda baş verən dəhşətlər əks olunurdu, fotolar isə mənə aid idi. Bundan cəmi bir gün sonra, martın 5-də Ayaz Mütəllibov istefa verməyə məcbur oldu.

O günlər son dərəcə dəhşətli idi. Amma ən dəhşətlisi bəlkə də bu idi ki, Xocalı soyqırımının miqyası artıq bəlli olduğu bir vaxtda, Bakıda təxminən 300 nəfəri “Azərbaycan” nəşriyyatının qarşısına yığmışdılar, bizim bundan xəbərimiz yox idi. Deyirdilər ki, “Səhər” qəzeti ermənilərə işləyir, qəzetin rəhbərliyi camaatın qarşısında üzr istəməlidir. Mən isə bölgədə Bakıda hansı proseslərin getdiyindən xəbərsiz idim. Qəzetimizin baş redaktoru Məzahir Süleymanzadə çıxıb insanların qarşısında məsuliyyəti üzərinə götürdü. “And” qəzetinin baş redaktoru da çıxış edərək dedi ki, əgər müxbirimiz yalan məlumat veribsə, biz üzr istəyirik, amma bu məlumatlar araşdırılacaq. Nəticədə “Səhər” qəzeti Ali Sovetin müzakirəsinə çıxarıldı. Bizim üçün son dərəcə ağır, çətin günlər idi. Amma zaman keçdikcə, Xocalıda baş verənlərin həqiqi miqyası üzə çıxanda hər şey aydın oldu. Necə deyərlər, qurbağa gölünə daş atıldı, sular bulanıq olsa da, həqiqət artıq gizlədilə bilmədi.

**– Bu dəhşətlərin canlı şahidi kimi nə hiss edirdiniz?**

– Biz insanların düşdüyü vəziyyəti gördükcə içimiz qan ağlayırdı. Yaşadıqlarımız son dərəcə dəhşətli idi. Birinci və ikinci günlər meşələrdə tapılan meyitlərdə zorakılıq əlamətləri hiss olunmurdu. Amma faciədən iki gün sonra, meşələrdən meyitləri toplamağa başlayanda artıq tam başqa mənzərə ilə üzləşdik. Bir çox cəsədlərin bədən üzvləri – kimisinin başı, kimisinin başqa əzası yox idi, vəhşilik izləri açıq-aşkar görünürdü. Bu, nə çaqqalın, nə də canavarın işi idi, bunu insanlar etmişdilər. Bu dəhşətlər çəkilən kadrlarda da var. Həmin görüntüləri mərhum Seyidağa Mövsümov lentə almışdı. Bir ana vardı, ayaqları bağlanmışdı, sinə hissəsi çılpaq idi və onu sürüyə-sürüyə aparmışdılar. Başqa bir kişinin isə bədən üzvü kəsilmişdi. Biz həmin günlərdə insan ağlının qəbul edə bilməyəcəyi hadisələrin şahidi olduq.

**– “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?**

– “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyi 2007-ci il sentyabr ayının 27-də yaradılıb, həmin il noyabrın 16-da dövlət qeydiyyatına alınıb. Məqsəd isə Azərbaycan həqiqətlərini, xüsusən Xocalı soyqırımını beynəlxalq aləmdə tanıtmaqdır.

Çox şükür ki, 2023-cü il sentyabrın 19–20-də keçirilən lokal antiterror tədbirləri nəticəsində Xocalı düşmən işğalından azad olundu. Bu gün artıq biz Xocalının mənəvi və tarixi reabilitasiyası ilə məşğuluq. Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində fəaliyyət göstərir, eyni zamanda, maarifləndirici və ictimai tədbirlər həyata keçiririk. Son dövrlərdə Bakı Dövlət Universiteti, Bakı Avrasiya Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, Azərbaycan Dövlət Pedaqoji Universiteti və bir çox ali təhsil ocaqlarında mühüm tədbirlər keçirmişik. Bu görüşlər artıq silsilə xarakteri alıb.

Ötən gün isə Dövlət Gömrük Komitəsinin Akademiyasında keçirilən tədbirdə iştirak etdik. Bu görüşlərdə biz Xocalı soyqırımı haqqında danışır, şahid kimi yaşadıqlarımızı gənclərə çatdırırıq. Ən önəmlisi odur ki, bu, həm də milli yaddaşı qorumaq missiyasıdır.

Tarix unudulanda təkrarlanır, ona görə də Xocalı faciəsini xatırlamaq milli yaddaşı qorumaqla bərabər, həm də ədalət tələb etmək məsuliyyətidir. Xocalı faciəsi xalqımızın harayıdır və bu harayı bütün dünya eşidir.

***Söhbəti yazdı:***
***Ləman TƏHMƏZ***
***XQ***

# Zəfərin və intiqamın ünvanı

*Azad şəhərin soyqırımı yaraları sürətlə sağaldılır*

**Əzəli sakinlərinin işğaldan azad olunmuş ərazilərimizə qayıdışının hər yeni mərhələsi tarixi hadisə, bu müqəddəs torpaqlarımızın hər qarışına üz tutan köç karvanları həsrətin bitməsinin, arzuların reallığa çevrilməsinin təcəssümüdür. Ancaq Xocalıya həyatın qayıtmasının, bu gün külündən yenidən doğulmuş “şəhid şəhər”in evlərinin gur işıqlara qərq olmasının sevinci də, mənası da bir başqadır.**



Qanlı soyqırımının 34-cü ildönümü ərəfəsində əbədi olaraq ata-baba yurdlarına dönmüş xocalılılarla görüşümüzdə bir daha şahidi olduq ki, bu qayıdış XX əsrdə insanlığa qarşı törədilmiş ən böyük cinayətlərdən olan Xocalı faciəsi qurbanlarının yaxınları, hadisənin şahidləri üçün ən böyük təsellidir.

Şəhərə sonuncu, fevralın 16-da həyata keçirilmiş növbəti köç zamanı doğma yurdunda yeni məzilinə qovuşmuş 30 ailədən biri olan Ələkbərovların mənzilində bizi qarşılayanlar arasında hərbi geyimli 2 azyaşı diqqətimizi çəkdi. Söhbətimizə də elə ailənin sonbeşiyi, “polkovnik-leytenant” Məhəmmədlə başladıq. “Niyə hərbi geyimdəsən?” sualımıza qətiyyətlə “çünki böyüyəndə əsgər işləyəcəm” cavabını aldıq.

**Faciə ilə bağlı, özünün dediyi kimi, “bir damcı” məlumatı olan 7 yaşlı Məhəmməd gəldiyi qısa müddətdə Xocalıya əməlli-başlı bağlanıb.** Bildirdi ki, pəncərələrindən görünən dağlar da, yeni evləri də, təhsil alacağı məktəb də xoşuna gəlir, həyatındakı bütün bu yeniliklərə görə çox sevinir. Söhbətimizə diqqətlə qulaq asan “baş leytenant” Yusif də başını razılıqla tərpətməklə bibisi oğlu Məhəmmədin sevincinə şərik olduğunu nümayiş etdirdi.

9 yaşı olanda ev-eşiklərindən min bir müsibətlə çıxmağa məcbur olmuş Zəminə Ələkbərova indi geriyə 3 övladı, 6 nəvəsi ilə dönüb. Soyqırımı haqqında danışmaq istədikdə gözlərinin dolduğunu, səhhətinin pisləşdiyini görüb qərara gəldik ki, azad Xocalımızın bu günündən, işıqlı sabahından söhbət edək. Elə Zəminə xanımın qardaşı, insanlıq dramının yaşandığı gecə güllə yarası almış, girov düşmüş qardaşı Ramil də yaşadığı dəhşətləri xatırlamağın onun üçün son dərəcə çətin olduğunu bildirərək söhbətimizə qoşulmadı.

Öyrəndik ki, 3 gün meşələrdə qalmış Ramil Ağdamın Abdal-Gülablı istiqamətində yaralanıb, atası Bilman, anası Nərminə ilə birlikdə girov düşüb. İtkin düşmüş babaları Əsgərdən isə bu günə qədər xəbər yoxdur. Həmin vaxt Ramilin cəmi 12 yaşı var imiş...

**Z.Ələkbərova Xocalının azad edilməsi xəbərini öz ad günündə eşitdiyini, sevincindən ağladığını bildirdi:**

– Bir xəbərlə insan necə də xoşbəxt ola bilərmiş! Azad Xocalıda keçirdiyim ilk gecə səhərə kimi yata bilmədim. Onda hələ mən köçməmişdim, qardaşımgilə qonaq gəlmişdim. İndi də hərdən mənə elə gəlir ki, bu qayıdışımızı, sinəmizə çəkdiyimiz təmiz havanı, içdiyimiz suyu, Xocalının daşını-torpağını, dağlarını sanki yuxuda görürəm. Allah şəhidlərimizə rəhmət eləsin! Allah Prezidentimizi qorusun, ordumuzu hər zaman müzəffər etsin!

**Çoxmənzilli binada üçotaqlı evlə təmin olunmuş Zəminə xanım dövlətin onların rahat yaşayışı üçün hər cür şərait yaratdığını dedi.** Vaxt tapdıqca isə evlərinin həyətində işləyən, əkib-becərən qardaşıgilə köməyə gedir. Söhbətə qoşulan Ramilin həyat yoldaşı Zərifə Ələkbərova Xocalı torpağının bərəkətli, məhsuldar olduğunu dedi. O bildirdi ki, həyətyanı sahələrində iş görmək onlar üçün ən gözəl, qürurverici məşğuliyyətdir. Üstəlik, zəhmətləri də öz bəhrəsini artıqlaması ilə verir. Məsələn, ötən il əkdikləri tərəvəzlərdən yaxşı məhsul götürərək həm təzə-təzə istifadə ediblər, həm də qış üçün lazım olan qədər konservləşdiriblər. İndi də hava imkan verdikcə yeri belləyirlər, torpağı yaz əkininə hazırlayırlar.

**Xocalıda daha bir ailənin qonağı olduq. Ailə başçısı Haqverdi Həsənov mənzillərində yaradılmış şəraitdən razılıqla bəhs etdi:**

– Dövlətimiz var olsun, bizim üçün yüksək səviyyədə şərait yaradılıb. Ancaq inanın ki, Xocalının quru torpağına qayıtmaq da bizim üçün ən böyük xoşbəxtlik olardı. Çünki Xocalı hamımız üçün müqəddəs ziyarətgahdır. Burada bizim əzizlərimiz şəhid olub. Neçə arzular yarımçıq qırılıb, neçə ümidlər puç olub. İllər boyu neçə-neçə insanımız Vətən həsrətilə dünyasını dəyişib. Arzulayırdıq ki, nə olaydı, tək bircə dəfə o torpaqları görə biləydik. Ona görə də, 34 ildən sonra bura qayıtmışıqsa, mənə daha heç nə lazım deyil.

Deyirlər, dünyada 7 möcüzə var. Mən müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməyini, bu gün doğma yurdumuza qayıdışımızı 8-ci möcüzə hesab edirəm.

Həmsöhbət olduğumuz xocalılılar bir məqamı da vurğuladılar ki, soyqırımı qurbanlarının əziz xatirəsini məhz Xocalının özündə anmaq həm onların dərdlərini yüngülləşdirir, həm də şəhidlərimizin ruhu azad Qarabağımızın göylərində dinclik tapır.

Şükür edirik ki, şəhidlərimizin qisası alınıb, Xocalının günahsız sakinlərinin cəlladları ədalət məhkəməsi qarşısında cavab verərək cəzalarına çatıblar. Şükür edirik ki, torpaqlarımız azaddır və bu azadlıq əbədi olacaq!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**



**Bəşər tarixi zaman-zaman insanlığın üzərinə qara kölgə salan faciələrlə sınağa çəkilib. Lakin elə yaralar var ki, onlar təkcə bir xalqın deyil, bütün insanlığın vicdanında açılmış qanlı izdir. 1992-ci ilin 26 fevral gecəsi Xocalı şəhərində baş verən soyqırımı məhz belə bir faciədir. Bu, təkcə bir şəhərin işğalı deyildi – bu, mülki insanlara qarşı həyata keçirilmiş amansız qətliam, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması, insanlıq əleyhinə törədilmiş ağır cinayət idi.**

# Erməni faşizminin bəşəri cinayəti

Faciə zamanı şəhər mühasirəyə alınmış, dinc əhali şaxtalı fevral gecəsində çıxış yolu axtararkən xüsusi qəddarlıqla atəşə tutulmuşdur. Beynəlxalq təşkilatların və xarici jurnalistlərin hadisə yerindən hazırladıqları reportajlar insanlığa qarşı törədilmiş vəhşiliyin miqyasını açıq şəkildə ortaya qoymuşdur. Mülki əhaliyə qarşı zorakılıq, işgəncə və qeyri-insani rəftar faktları bu hadisənin mahiyyətini – soyqırımı aktı olduğunu təsdiqləyir.

Xocalı soyqırımı Azərbaycan dövlətinin və xalqının yaddaşında əbədi həkk olunmuşdur. Ümummilli lider Heydər Əliyev bu faciəyə ilk dəfə siyasi-hüquqi qiymət verilməsinə nail olmuş, 1994-cü ildə Milli Məclis tərəfindən 26 fevralın “Xocalı Soyqırımı Günü” elan edilməsi haqqında qərar qəbul edilmişdir. Bu, tarixi ədalətin bərpası istiqamətində atılmış mühüm addım idi.

30 illik ağrıya son qoyularaq mənfur düşmənin cavabı layiqincə verildi. 2020-ci ildə qazanılan Böyük Zəfər illərlə ürəklərdə daşınan ağrının cavabı oldu. İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin inamlı qələbəsi ilə başa



çatdı. Müzəffər, Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət göstərərək 44 günlük Vətən müharibəsi zamanı Xocalının bir neçə kəndinin düşməndən azad edilməsi ilə başlayan qəhrəmanlıq salnaməsi 2023-cü ilin 19-20 sentyabr antiterror tədbirləri zamanı Xocalının və bütün kəndlərinin tam işğaldan azad olunması ilə yekunlaşdı.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, artıq ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub, işğal altında olan torpaqlarımız düşmən tapdağından azad edilib, erməni vandalları tərəfindən qətlə yetirilmiş günahsız soydaşlarımızın qanı yerdə qalmayıb. Buna baxmayaraq, Xocalı faciəsinin dünyada soyqırımı kimi tanınmasında və haqq işimizin dünya ictimaiyyətinə çatdırılmasında öz mübarizəmizi yorulmadan davam etdirməliyik.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayaraq aparılan “Xocalıya ədalət!” beynəlxalq təbliğat-təşviqat kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin daxili və xarici siyasətinin, eləcə də Heydər Əliyev Fondunun dünyada apardığı təbliğatın, haqq-ədalətə çağırışın nəticəsidir.

“…Sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq”. Bu fikirləri 2024-cü il fevralın 26-da Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlqoyma mərasimində, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı deyib.

Bəli, bu gün azad Xocalıda başlanan firavan həyat tarixin ən təsirli cavabıdır. Xocalı torpağında artıq mərmi səsləri deyil, quruculuq işlərinin ahəngi eşidilir, üçrəngli bayrağımız dalğalanır. Bu gün fəxarətlə deyə bilərik ki, Xocalı işğaldan azad olunmuş digər ərazilərimiz kimi əzəmətli tikinti meydanını xatırladır. Bir vaxt bu torpaqlarda böyük soyqırımı acısını yaşamış xocalılıları “tökülən qanınızın qisası alındı” – deyib, yenidən ən gözəl görkəmində qarşılayır sanki Xocalı. Bir zamanlar məhv olan arzular, ümidlər indi çiçək açıb. Bu şəhərin əzəli sakinləri yenidən evlərinin işıqlarını yandırırlar. Hər qayıdan ailə, hər tikilən məktəb, hər yanan işıq bir həqiqəti bəyan edir: Azərbaycan xalqı sınmadı, əyilmədi və öz tarixi ədalətini bərpa etdi.

***Nurəngiz ADİLQIZI***
***XQ***

*Xocalı soyqırımı – 34*

# Xalqımızın qəlbində açıq yara

## *Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi bəşəri fəlakətlərin sırasında erməni qaniçənliyi – Xocalı soyqırımı*



**Üstündən 34 il keçsə də, bu kiçik Azərbaycan şəhərində erməni vandallarının törətdiyi qanlı qırğının ağrısı hələ də soyumayıb. Amma üç il əvvəl Dağlıq Qarabağ münaqişəsi ədalətli həllini tapdı, Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyuldu və ərazi bütövlüyü bərpa edildi.**

### İnsan qanına susama

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndidəki 366-cı alayın hərbçilərinin iştirakı ilə azərbaycanlıların yaşadığı Xocalı şəhərinə basqın etdilər. Qanlı olayın iştirakçıların siyahısına diqqət yetirək: alay komandirinin maddi-texniki təminat üzrə müavini, polkovnik Baylukov, 1-ci batalyonun komandiri, polkovnik Moiseyev, 2-ci tağımın komandiri mayor Ohanyan, 3-cü tağımın komandiri, mayor Nabokix, 1-ci batalyonun qərargah rəisi, mayor Çitçiyan, alayın kəşfiyyat rəisi, mayor Ayriyan, bölük komandiri, baş leytenant Mirzoxalzarov, kəşfiyyat rəisi, baş leytenant Xrinxua; tank bölüyü komandiri, baş leytenant Qarmaş, bölük komandiri, baş leytenant Akopyan, bölük komandiri, baş leytenant Vavilovski, bölük komandiri, baş leytenant Lısenko, Batareya komandiri, baş leytenant Azarov, tank əleyhinə batareya komandiri, baş leytenant Abramov, 3-cü tank bölüyü komandiri, leytenant Baleznıy, tank komandiri, leytenant Smakin, istehkamçı bölüyün komandiri, leytenant Raçkovski, kəşfiyyat rəisinin müavini, leytenant Bondarev, radiokimya tağımının rəisi leytenant Kulov, eləcə də 41 ermənidən ibarət zabit korpusu.

Mülki əhaliyə və şəhərin müdafiəçilərinə qarşı misli görünməmiş qəddarlıqlar törədilib və bu hadisə soyqırımıdır. Qaçmağa cəhd edən bəzi sakinlər əvvəlcədən qurulmuş tələlərə salınaraq öldürülüblər. Erməni vəhşiləri qocalara, uşaqlara belə aman verməyiblər. Xocalı sakinləri və müdafiəçiləri, sadəcə, etnik mənsubiyyətə görə – azərbaycanlı olduqları üçün qırğına məruz qalıblar. Bəli, onların məqsədi şəhərin bütün əhalisini məhv etmək olub.

### Tarixin qanlı yaddaşı

Rusiya İnsan Hüquqları Mərkəzi "Memorial"ın məlumatına görə, dörd gün ərzində Xocalıdan Ağdama 200 cəsəd gətirilib. Onlarla cəsədin təhqir edilməsi halları qeydə alınıb. Ağdamda 194 cəsəd (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilib. Ağdamda məhkəmə-tibbi ekspertizalarda və həmvətənlərimin dəfn mərasimlərində iştirak etmişəm. Xocalı soyqırımı Ermənistan Respublikasının keçmiş prezidentlərinin qanunsuz separatçı rejimin "özünümüdafiə qüvvələri komitəsi"nə rəhbərlik etdiyi dövrdə baş verib. Serj Sarkisyanın özü və cinayətin digər iştirakçıları cəzasızlıq hiss edərək utanmadan Xocalı sakinlərinin və müdafiəçilərinin məhv edilməsində məsuliyyət daşıdıqlarını açıq şəkildə etiraf ediblər. Karnegi Beynəlxalq Fondun eksperti, "Qara bağ" kitabının müəllifi Tomas de Vaal 24 fevral 2012-ci ildə fondun saytında dərc etdiyi "Prezident, müsahibə və faciənin ildönümü" məqaləsində Ermənistanın müdafiə naziri Serj Sarkisyanla (sonra Ermənistanın prezidenti oldu) 15 dekabr 2000-ci ildə rus dilində müsahibəyə istinad edərək yazırdı: "Xocalıdan əvvəl azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyəcək insanlardır. Bu, tərsinə çevrilməli idi. Və elə də oldu". Hay xislətinin nümayişi sayıla biləcək vəhşiliyin etirafı.

### Qatillərə bəraət yoxdur

Azərbaycan Prezidenti İlham Əliyev fransız jurnalistin sualına cavabında dedi ki, ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens Azərbaycana səfəri zamanı həbs cəzasına məhkum edilmiş Qarabağın keçmiş separatçı liderlərinin əfv edilməsi və azadlığa buraxılması məsələsini qaldırıb: "O, bu məsələni qaldırdı və mən bu məsələdə Azərbaycanın mövqeyini bildirdim və vəssalam... Qeyd etdiyiniz şəxslərə gəldikdə isə, bunlar bizim ərazimizdə – Ermənistan da daxil olmaqla, bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində – qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir. Uzun illərdir ki, bu şəxslər Azərbaycana və Azərbaycanlılara qarşı törədilən bütün müharibə cinayətlərinin arxasında duranlardır və onlar məsuliyyətə cəlb olunublar. Onlar hərbi əməliyyatımız nəticəsində Qarabağda saxlanılıb və məsuliyyətə cəlb ediliblər. Onlar vəkillərlə təmin edilib, məhkəmə prosesi tamamilə şəffaf şəkildə aparılıb. Onların cinayətləri çoxsaylı sənədlər, şahid ifadələri ilə sübut edilib. Və onlara qarşı heç bir qanun pozuntusundan söhbət gedə bilməz".

İlham Əliyev separatçı hərəkatın liderlərinin "insanlığa qarşı ağır cinayətlər törətdiyinə" əminliyini ifadə etdi. Bu zaman Prezident alman faşistləri üzərində Nürnberq məhkəməsi ilə paralel apardı və soruşdu: "Bütün bu nasist liderləri ölüm hökmünə məhkum ediliblər və kimsə gəlib onların azadlığa buraxılmasını istəyir... Onların (separatçıların) cinayətləri İkinci Dünya müharibəsi zamanı nasistlərin törətdiklərindən daha betər idi".

Artıq aydındır ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Azərbaycanın konkret fəaliyyəti ilə son qoyuldu. Əgər mütəxəssislər Sovet İttifaqının dağılması ilə müşayiət olunan qanlı münaqişələrin ilkin şərtlərini öyrənməsələr, yeni qurbanlar ortaya çıxa bilər. Öz tarixlərini unutmağa çalışan insanlar, əsasən ortaq tarixi keçmişə söykənən yeni təhdidlər və çətinliklər qarşısında özlərini müdafiəsiz hiss edirlər. Xocalı şəhərində törədilmiş soyqırımının əsas günahkarları və icraçıları Ermənistan silahlı qüvvələri və 366-cı motoatıcı alayının şəxsi heyəti olduğu danılmaz faktdır. Onların hərəkətləri Cenevrə Konvensiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Fövqəladə Hallarda və Silahlı Münaqişələrdə Qadınların və Uşaqların Müdafiəsi haqqında Bəyannamə və digər beynəlxalq hüquqi sənədlərə qarşı saymazlıq və etinasızlıq hesab olunur.

### Qanun diktə edir

Erməni qəsbkarların Xocalıda törətdiyi vəhşilik cəzasız qalmamalıdır. Çünki o zaman baş verənlər təkcə Azərbaycan xalqına qarşı deyil, insanlığa qarşı cinayət idi. Xocalı faciəsindən danışarkən bəzən fərqli ifadələrdən istifadə olunur. Hadisə həm "qırğın", həm də "soyqırımı" adlandırılır. Amma bu anlayışlar tamamilə fərqli hüquqi və siyasi qiymətləndirmələrə malik olduğundan, onları eyniləşdirmək olmaz. Azərbaycanın qanunvericiliyində milli, etnik və ya dini əsaslarla əhalinin məhv edilməsinin əhaliyə qarşı cinayət hesab edildiyini bildirən xüsusi maddə (AR CM-nin 105-ci maddəsi) mövcuddur. Yəni qanunvericilikdə soyqırımı milli, etnik, irqi və ya dini qrupun üzvlərinin məhv edilməsi, ağır xəsarətlər yetirilməsi və ya tamamilə və ya qismən fiziki məhv niyyəti ilə ağır həyat şəraitinin yaradılması kimi müəyyən edən 103-cü maddə də mövcuddur. Erməni separatçıların Xocalıda törətdikləri hərəkətlər bu maddəyə əsasən qiymətləndirilməlidir. Bu hərəkətlər CM-in digər maddələri ilə müəyyən edilmiş cinayətlərə, yəni əhalinin deportasiyası və məcburi köçürülməsinə (maddə 107), qanunsuz həbsə salmaya (maddə 112), işgəncəyə (maddə 113), silahlı münaqişə zamanı beynəlxalq humanitar hüququn pozulmasına (maddə 116), hərbi quldurluğa (maddə 118) və digər cinayətlərə gətirib çıxarır.

Bu qanlı faciəyə ilk siyasi və hüquqi qiymət xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən verilib. 1994-cü ildən bəri erməni təcavüzkarları tərəfindən törədilən cinayətlərin əsl miqyası və dəhşətləri haqqında məlumatlar beynəlxalq ictimaiyyətə geniş şəkildə çatdırılıb. Heydər Əliyev Xocalı qırğını haqqında tam həqiqəti dünya ölkələrinə və nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq üçün məqsədyönlü tədbirlər gördü ki, bu cinayət beynəlxalq səviyyədə hüquqi qiymətini alsın. Xocalı soyqırımının törədilməsi üsulları bölgəyə gəlmiş Ukrayna, Rusiya, Gürcüstan, Britaniya, Fransa, Almaniya və ABŞ jurnalistlərini dəhşətə gətirdi. Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlib. Həmin günlərdə Ermənistanda yüksək vəzifələr tutanlar buna görə cavab verməlidirlər.

Xocalı soyqırımında möcüzə sayəsində sağ qalan şahidlər bu gün Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, eləcə də digər təsisatlara müraciət edərək, onlardan beynəlxalq hüququ və ümumbəşəri dəyərləri görməzdən gələn təcavüzkar dövləti qınamağı, Xocalı soyqırımına siyasi və hüquqi qiymət verməyi tələb ediblər! Amma təəssüf ki, hələlik cavab yoxdur...

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, hüquq elmləri doktoru***

# "Tanklar qan üstündən yeridi..."

## *Nüsrət Kəsəmənlinin "Xocalı" şeirinin tarixçəsi*

**1992-ci ilin qarlı, şaxtalı bir fevral günü erməni qaniçənləri Xocalıda elə ağır zorakılıqlar törədiblər ki, üstündən bir qərinə keçməsinə rəğmən, o dəhşət və vəhşət saçan səhnələri bir anlığa göz önünə gətirəndə, adamın damarlarında qanı donur. Xocalı qətliamı, həqiqətən, insanlıq adına üz qarasıdır! Qatı erməni millətçiliyinin xisləti budur!**

Xocalı faciəsi hər bir azərbaycanlının qəlbində ağır, sağalmaz yara kimi dərin iz qoyub. Bir çox şair və yazıçılarımız, rəssam və heykəltaraşlar, bəstəkarlar, bir sözlə, əksər yaradıcı insanlar bu dəhşətli qətliama kəskin reaksiya veriblər, bu mövzuda yaratdıqları ölməz əsərlər vasitəsilə öz qəzəb və hiddətlərini bildiriblər. Tanınmış şair, rəhmətlik Nüsrət Kəsəmənli də faciədən dərhal sonra qələmə aldığı məşhur "Xocalı" şeirində o məşum olayı poetik dildə ürək yanğısı ilə təsvir edib.

Yadımdadır, tələbə dostum, BDU-nun professoru Ramiz Əskərlə şairin Azərbaycan Yazıçılar Birliyinin binasındakı iş otağına getmişdik. 1999-cu il fevralın son günləri idi. Xocalı faciəsinə həsr etdiyi şeir barədə




söhbət edəndə dedi ki, o həmin şeiri düşmənə qarşı sonsuz qəzəb və qisas hayqıran ürəyinin səsi ilə birnəfəsə yazıb.

Şair birdən-birə dərin fikrə dalaraq susdu və "Xocalı" şeirinin ilk bir neçə misrasını hüznlü səslə söylədi:

***Tanklar qan üstündən yeridi,***
***Neçə can üstündən yeridi.***
***Körpələr qaldı dəmir ayaqlar altında,***
***İmdad istəyən böyüklərə güvənmədilər daha.***

Hər üçümüz çox həyəcanlı idik. Nüsrət müəllimin isə elə bil boğazı kilidlənmişdi. Şeirin ardını Ramiz Əskər səsləndirdi:

***Ölü anaların döşlərindən süd əmmədilər daha.***
***Gözləri heyrətlərindən böyük idi,***
***Üzüqoylu yıxılmışdılar,***
***Təzədən öləcəkdilər ayağa qalxan kimi.***

...Həmin görüşdən artıq 27 il keçib. Acı təəssüf ki, hər iki dəyərli ziyalımız bu gün həyatda yoxdur. Dünən sübh tezdən bu qeydləri yazanda şeiri bir neçə dəfə oxuyub yenidən çox təsirləndim. Mənə elə gəlir ki, sevimli şairimizin "Xocalı" şeiri bu mövzuda yazılan ən təsirli poetik nümunələrdən biridir.

Şeirin özəlliyi həm də ondadır ki, şair qısa, lakin dərin ağrı-acı daşıyan misralarla dəhşətli qətliam səhnəsinin panoramını yaradıb. Belə səhnələri, adətən, ayrı-ayrı rakurslardan fokuslanaraq böyük rejissorlar canlandıra bilirlər. Nüsrət Kəsəmənli öz parlaq istedadı ilə qətliamın siqlətini göstərməyi bacarıb.

Bəs necə oldu ki, Xocalı boyda dəhşətli faciə baş verdi? Dünya bu qədərmi kar və kor idi?! Nəyə görə qatillər zərrə qədər vicdan əzabı çəkmədən, uşaq, qadın, qoca demədən, onlardan imdad diləyən əliyalın, zavallı insanlara aman vermədilər? Ona görə aman vermədilər ki, erməni canilər sağalmaz şovinizm azarına mübtəla olmuşdular, quduzlaşmışdılar.

Şair sonra satqın və xəyanətkarı kəskin ittiham edərək yazıb:

***Xocalı keçirdi xəyanət marağından,***
***Xocalı keçirdi tank lüləsindən,***
***yağı gülləsindən,***
***avtomat darağından.***
***Güllələdilər adamından qarışqasınadək,***
***Güllələdilər quzusunu, qoçunu.***
***Güllələdilər anaların***
***çəpərlərə ilişib qalmış saçını,***
***qardaşı, bacını.***

"Xocalı" şeirində bir mistik məqam da özünü büruzə verir. Deyilir ki, "Ulularn ruhları Xocalı qurbanlarının təzə ruhlarından tutub özlərilə ölməzliyə aparırlar":

***Nənələr dilində duası ölmüşdü,***
***Onları aparmağa ulular ruhu gəlmişdi.***
***Təzə ruhların əllərindən tutub apardılar,***
***Körpələri ayağa qaldırdılar.***

Ən daş ürəkli insan belə bu hüznlü misraları oxuyub sarsılmaya bilməz! Şair şeirin sonunda isə "layla" obrazına müraciət edərək, bəlkə də, dünya poeziyası tarixində insan faciəsinin ən kədərli səhnələrindən birini yaradıb:

***Laylalar uçulu evlərin divarlarına dəyirdi,***
***Laylalar dizlərinə döyürdü.***
***Dünənə, bu günə, sabaha***
***nifrətlə gülümsəyirdi...***

Düşünürəm ki, Nüsrət Kəsəmənlinin vətəndaş qeyrəti və poetik qüdrəti ilə ərsəyə gələn "Xocalı" şeiri 34 il əvvəl Qarabağ torpağında qanlı cinayət törədənləri əbədi lənətləyəcək!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Bakıda "yaşıl" aksiya

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyi Nərimanov rayonunda ağacəkmə aksiyası təşkil edib. BŞİH-nin rəhbərliyi, əməkdaşları və struktur bölmələrin işçiləri, ekoloji könüllülər yaşıl hərəkatda fəal iştirak ediblər.**



Ərazi yararsız tullantılardan təmizlənərək Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 yeni ağac əkilib.

Aksiya Bakı şəhərində quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun ağac və kolların əkilməsi, həmçinin paytaxtda ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Əkilən ağaclara qulluq göstərilməsi üçün suvarma məsələləri həll edilib, cavabdehlər müəyyənləşdirilib. Mövsüm ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdiriləcək.

***XQ***

# "Xocalı azad olunmadan biz sakitləşə bilməzdik"

## *Soyqırımı yaddaşımız və ədalətsizliyə qarşı dirənişimizin Xocalı düsturu*

**Hazırda Ermənistan və havadarları müxtəlif beynəlxalq platformalarda "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsini təbliğ edir, mövcud xüsusda ölkəmizlə bağlı antipatiya yaratmağa cəhd göstərirlər. Halbuki, məhbus kimi təqdim edilən şəxslərin günahları sübuta yetirilib, onların Azərbaycan ərazilərində bəşəri cinayətlər törətdikləri, separatçılıq fəaliyyəti həyata keçirdikləri faktlarla təsdiqlənib. Həmin şəxslərə günahkar kimi yanaşmağımızın isə daha böyük səbəbi var.**

Ən böyük səbəb bu gün 34-cü ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımıdır. Təkcə Xocalı dəhşətinə görə Azərbaycan ərazilərində separatçılıqla məşğul olan şəxslərin heç biri nə güzəştə, nə mərhəmətə, nə də digər xoş rəftara layiqdir. Onlar hüququn ən sərt dili ilə cəzalandırılmalıdırlar. Cəzalandırılmalıdırlar ki, bir daha Xocalı dəhşətinə bənzər faciələr yaşanmasın. Cəzalandırılmalıdır ki, gələcəkdə kimlərsə özündə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək "cəzarətini" tapmasın. Nəzərə alaq ki, müasir dövrdəki ən böyük faciəmiz olan Xocalının torpaqlarımıza qəsb mahiyyəti var. Elə bir "mahiyyət" ki, bütövlükdə Azərbaycan əhalisini yox etmək kimi kökü keçmişə şaxələnən mənfur siyasətin göstəricisidir.



Bəli, Xocalı soyqırımı erməni qövmünün azərbaycanlılara qarşı ötən əsrin əvvəllərindən başlayaraq, Cənubi Qafqazda həyata keçirdikləri etnik təmizləmə kursunun davamı idi. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar. Bu kursun, belə demək mümkünsə, böyük ilhamvericilərinin olduğunu da bilirik. Axı Xocalı dəhşətinə görə müqəssir erməni millətçiləri ilə yanaşı, onlara ciddi şəkildə dəstək verən rus şovinistləri idilər. Bu dəhşətin Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə törədildiyi də faktlarla sübuta yetirilib. Əminik ki, qorxunc əməlin dəstəkçiləri də ədalət qılıncımızın altından keçəcəklər. Hər şeyin geci-tezi var.

Ümumən, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı vəhşəti Azərbaycan cəmiyyətinin kollektiv yaddaşında dərin iz buraxmış faciədir. Faciə zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib.

Ayrıca vurğulayaq ki, həmin insanlar yalnız etnik mənsubiyyətlərinə – azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub. Bütün bunlara görə demək olar ki, Xocalı faciəsi təkcə hərbi-siyasi kontekstlə deyil, həm də mənəvi-psixoloji və beynəlxalq hüquqi müstəvidə geniş təsir doğurmuş olaydır. Amma elə bir olay ki, kollektiv travma fenomenini milli yaddaşa çevirdi. Mülki əhaliyə qarşı zorakılıq faktı təhlükəsizlik duyğusuna zərbə vursa da, həmrəylik faktorunu gücləndirdi, "şəhidlik" və "ədalət" anlayışlarını, ədalət naminə şəhidliyi ictimai şüurun mərkəzinə çıxardı, bir növ, böyük mənəvi etalona çevirdi.

Xalqımızın Xocalıda yaşananlara emosional münasibəti dərinləşdi və bununla bütövlükdə Qarabağ münaqişəsinə yanaşmanın mənəvi-siyasi və ideoloji strukturu müəyyənləşdi. Bu strukturda ədalətin qərarlaşması yolunda mübarizə düşüncəsi həm də müstəsna qisas seqmenti qazandı. Bütün ağrı və acılarına, o cümlədən yaşanan qaçqınlıq və didərginliyin rəsminə çevrilməsinə baxmayaraq, Xocalı xalqımıza öz külündən yaranmaq əzmini formalaşdırdı. Söhbət qisas üçün yenidən yaranmaqdan gedir.

* * *

Nəticədə, doğma yurdla bağın qırılması, sosial adaptasiya problemləri, habelə, nəsillərarası travmanın ötürülməsi kimi durumlar insanlarımızın savaş ruhuna, həyatdan qopmamaq dirayətinə çevrildi. Dirayətin "Xocalıya ədalət!" (Justice for Khojaly) simgəsini gördük. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlanmış bu beynəlxalq miqyaslı təbliğat-təşviqat kampaniyasına belə bir adın seçilməsi heç də təsadüfi deyildi. Çünki Azərbaycan cəmiyyətində Xocalı ilə bağlı əsas mənəvi xətt məhz ədalətin bərpası ideyası idi.

"Xocalıya ədalət!" ideyası daxili legitimlik qazandı, soyqırımı aktının beynəlxalq müstəvidə hüquqi-siyasi tanınmasına yönələn mübarizəmizə əlavə üstünlük gətirdi. O mübarizəyə ki, əsasını ulu öndər Heydər Əliyev qoymuşdu və bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi xətt ölkəmizin həm dövlət, həm də ictimai müstəvidəki Xocalı davasının məğzini təşkil etmişdi.

Ulu öndərin məharəti sayəsində Xocalı dəhşəti bütövlükdə Qarabağ ədalətsizliklərinə qarşı dirənişimizin simvoluna çevrilmişdi. Onun təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmişdi. Məhz Heydər Əliyev şəxsiyyəti Xocalı hadisəsini Azərbaycanın təhlükəsizlik doktrinasında əsas istinad nöqtələrindən birinə çevirmişdi. Nəticədə ölkəmizdə Ordu quruculuğu, müdafiə siyasəti və ərazi bütövlüyü məsələləri prioritet istiqamət almaqla yanaşı, xarici siyasətdə informasiya diplomatiyası gücləndi, diaspor fəaliyyəti aktivləşdi.

Azərbaycan dövləti Xocalı dəhşətlərinə söykənərək, insan hüquqları diskursunda hüquqi arqumentlərini möhkəmləndirdi. Ölkəmiz, həmçinin Xocalı hadisəsi fonunda münaqişə bölgələrində mülki şəxslərin qorunmasının nə qədər zəif mexanizmlərə malik olduğunu dünyaya bəyan etdi. Bu bəyanetmə xarici aləm qarşısında humanitar hüququn tətbiqi məsələsində ciddi suallar doğurdu. Suallar isə, öz növbəsində, ümumən postsovet məkanında baş verən hadisələrə beynəlxalq reaksiyanın fərqli intensivliyinin yolverilməzliyi kasuzunu ortaya qoydu ki, proses qlobal ədalət anlayışı ilə bağlı debatları gücləndirdi, beynəlxalq münasibətlərdə normativ prinsiplərin praktik tətbiqi ilə bağlı mübahisələr aktuallaşdı.

Qeyd edək ki, soyqırımı cinayətlərinin beynəlxalq müstəvidə qiymətləndirilməsi məsələsi sübut bazası baxımından müzakirələr doğuran haldır. Azərbaycan dövlətinin və cəmiyyətinin illər ərzində gerçəkləşdirdiyi müştərək fəaliyyət isə belə müzakirələrə meydan vermədi, Xocalı dəhşətinin mükəmməl faktoloji təsvirini ortaya qoydu ki, bu, həm də bəşəri xidmətdir, soyqırımı cinayətlərinin təkrarlanmasına qarşı immunitetin formalaşdırılmasına misilsiz töhfədir.

* * *

Ümumən, Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində Azərbaycan dövlətinin apardığı sistemli işin nəticəsidir ki, hazırda İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiqlənib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Habelə, Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib. Ancaq bütün bunlar yetərli sayıla bilməz və Azərbaycan dövləti və cəmiyyəti də məhz bu baxışdan çıxış edir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır".

Amma təsəllimiz var. Təsəllimiz Xocalının timsalında torpaqlarımızın işğalı reallığının aradan qalxması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasıdır. Təsəllimiz Xocalısız sakitləşməmək duyğumuzdur ki, bunu hamıdan və hər kəsdən daha məzmunlu şəkildə ifadə edən Prezident İlham Əliyevdir. Dövlətimizin başçısının 2024-cü ilin bu günündə Xocalıda rayon sakinləri ilə görüşündə ifadə etdiyi kimi: "Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Borçalıda Xocalı qurbanlarına ehtiram

**Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə günahsız qurbanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Mərkəzin rəhbəri Murad Muradov çıxış edərək gənclərə Xocalı faciəsi haqqında ətraflı məlumat verib, bu hadisənin Azərbaycan tarixinin ən faciəli səhifələrindən biri olduğunu və xalqımızın yaddaşında silinməz iz buraxdığını bildirib. Onun sözlərinə görə, bu soyqırımı hadisəsi tariximiz boyu unudulmayacaq. Hazırda isə Xocalı dirçələn, yeni həyat quran bir məkana çevrilir və bu, xalqımızın sarsılmaz iradəsinin, dövlətimizin gücünün göstəricisidir.

Mərkəzin rəhbəri 2020-ci ilin payızında müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılmış 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərin Azərbaycanın ərazi bütövlüyünün bərpası, bununla yanaşı, Xocalı şəhidlərinin qisasının döyüş meydanında alınması ilə nəticələndiyini qeyd edib.

M.Muradov gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsinin mərkəzin əsas vəzifələrindən biri olduğunu bildirərək vurğulayıb ki, tələbələr tarixi həqiqətləri dərindən bilməli, milli-mənəvi dəyərlərə sadiq olmalı, dövlətçilik ənənələrinə hörmət ruhunda formalaşmalıdırlar.

Tədbirin sonunda soyqırımına həsr olunmuş sənədli film nümayiş olunub.

Dmanisi Tədris Mərkəzində də Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Öncə Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərkəzin rəhbəri Kamran Xıdırov Xocalı soyqırımı şəhidlərinin xatirəsinin daim ehtiramla anılmasının hər bir gəncin mənəvi borcu olduğunu bildirib. O, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, milli yaddaşın qorunması və Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılmasının əhəmiyyətini xüsusilə qeyd edib.



Diasporla İş üzrə Dövlət Komitəsinin məsul əməkdaşı Rəşad Məmmədov 1992-ci il 26 fevral tarixində baş vermiş Xocalı faciəsinin Azərbaycan xalqına qarşı törədilmiş ən ağır bəşəri cinayətlərdən biri olduğunu bildirib. Onun sözlərinə görə, Xocalı soyqırımına ilk siyasi-hüquqi qiymət Ümummilli lider Heydər Əliyev tərəfindən verilib və 26 fevral tarixi Xocalı Soyqırımı Günü elan olunub.

R.Məmmədov deyib ki, bu gün Azərbaycan beynəlxalq aləmdə söz sahibi olan, ərazi bütövlüyünü bərpa etmiş güclü dövlətdir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl siyasət nəticəsində Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm addımlar atıldığını qeyd edib və tarixi ədalətin bərpasının xalqımızın birliyi və gücünün bariz nümunəsi olduğunu vurğulayıb.

Sonda mərkəzin şagirdləri tərəfindən Xocalıya həsr olunmuş rəsmlər sərgilənib, vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

***P.ƏMİRCANOV***
***XQ***

**XX əsr Azərbaycan xalqının tarixinə deportasiya, soyqırımı, terror kimi bəşəri faciələrinin davamlılığı ilə yazılıb. 1918-ci ilin yazında erməni millətçilərinin xalqımıza qarşı törətdiyi irimiqyaslı soyqırımı, sovet rəhbərliyinin 1948–1953-cü illərdə soydaşlarımızı Ermənistandakı tarixi məskənlərindən kütləvi surətdə deportasiya etməsi, keçən əsrin 90-cı illərində keçmiş SSRİ-nin süqutu zəminində Qərbi Azərbaycanın və Qarabağın qan çanağına döndərilməsi bəşəri cinayətlər olaraq xalqımıza misilsiz faciələrin sarsıdıcı ağrılarını yaşadıb.**

# Narahat ruhlar dinclik tapıb

Erməni millətçi-separatçılarının Qarabağı Azərbaycandan qoparmaq uğrunda hərbi təcavüzkarlığı daha amansız olub. Bu münaqişənin 4-cü ilində erməni cəlladların rus hərbçiləri ilə birlikdə dinc Xocalı şəhərinin yer üzündən silməsi, bir neçə minlik əhaliyə qanlı divan tutması çağdaş tarixə "Əsrin soyqırımı" kimi yazılıb. Bu sarsıdıcı qətliamın sındıra bilmədiyi xalqımız 28 illik mübarizədən sonra 2020-ci ilin payızında işğalçı Ermənistanın quldur dəstələrini darmadağın edərək ölkəmizdən qovdu.

Rusiyanın bədnam sülhməramlı missiyasının qanadı altına aldığı terrorçu erməni bandaları isə 3 illik siyasi oyunlardan sonra



Xankəndi, Xocalı, Xocavənd və Ağdərədən süpürülüb atıldı. Ermənistanın hərbi cinayətlərinin icraçı və iştirakçılarının bir dəstəsi ələ keçirilərək ədalət məhkəməsinə çəkildi və layiq olduqları cəzaları aldılar. Bununla Azərbaycan xalqı, onun qüdrətli ordusu bir qərinəlik münaqişə və 2 qanlı müharibəni tarixi qələbə ilə başa çatdırdı, illər uzunu qurban getmiş on minlərlə günahsız şəhidin intiqamını aldı. Müstəqil dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildi.

Bu günlərdə xalqımız Xocalı soyqırımının 34-cü ildönümünü faciə qurbanlarının xatirəsinə dərin ehtiram, dinc insanların qatillərinə sonsuz nifrət və Qarabağ zəfərinin əzəmətini təcəssüm etdirən təntənə və öyüncə qeyd edir. Xocalı qırğınının yaraları sağaldılsa da, şəhid şəhər yenidən dikəldisə də, Ermənistanın 34 il əvvəl törətdiyi bəşəri cinayət unudulmur, cinayətkarların sonadək haqq məhkəməsinə çəkilməsi, faciənin bütün dünyada soyqırımı kimi tanıdılması uğrunda inadlı, məqsədyönlü mübarizə davam edir.

34 il əvvəl xalqımızın yaşadığı faciənin başvermə səbəblərinə, həmin dövrün qanlı xronikasına nəzər yetirsək, görərik ki, erməni millətçilərinin bu təcavüzkar avantürası imperialist dairələrin Cənubi Qafqazda münaqişə ocaqları yaratmaqla regionu təsir altında saxlamaq siyasətindən qaynaqlanıb alovlanmışdı.

Azərbaycanda məsuliyyətsiz siyasi qüvvələrin hakimiyyət davası, özbaşınalıq və ümumi xaos da ermənilərin bu qırğını maneəsiz törətməsi üçün şərait yaratmışdı. O zaman Xocalının 16 kilometrliyində yerləşən Ağdamda 8 hərbi batalyon yüzlərlə döyüşçü və silahlı polis naryadı olsa da, Xocalının harayına məhəl qoyulmamış, mühasirə yarılmamışdı.

Xocalı soyqırımı isə Ermənistan–Azərbaycan münaqişəsinin müharibəyə çevrildiyi ən ağır dövrdə baş vermişdi. Keçmiş SSRİ-nin dağılması fonunda baş verən bu soyqırımının törədilməsində erməniləri xristian dünyası, ilk növbədə, rus şovinist dairələr yaxından himayə etmişdi. Məhz sovet ordusunun Rusiyanın tabeliyində qalmış 366-cı alayının iştirakı olmadan erməni quldur dəstələri bütöv bir şəhəri oda qalaya bilməzdi.

O zaman Xocalı şəhəri strateji mövqeyinə görə ermənilər üçün mühüm əhəmiyyət daşıyırdı. Çünki Xocalıda Qarabağ bölgəsinin yeganə hava limanı yerləşirdi. Təkcə bu amil kifayət edirdi ki, Xocalı hərbi baxımdan hədəfə çevrilsin. Beləliklə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə rus hərbçiləri və xarici muzdlularla hücum həyata keçirildi. Şəhər mühasirəyə alındı, mülki əhali ucdantutma atəşə məruz qaldı. Soyqırımı zamanı 613 nəfər qətlə yetirildi ki, 1000-dən çox insan yaralandı, yüzlərlə şəxs əsir və girov götürüldü, itkin düşdü.

Xocalı soyqırımını ilk vaxtlar daxili baiskarlar və Ermənistan və ermənipərəst dairələr ört-basdır etməyə çalışsa da, 1993-cü ildə xalqın harayına yetişmiş ümummilli lider Heydər Əliyev bu faciənin əsl soyqırımı olduğunu hüquqi baxımdan əsaslandırdı və bütün dünyanı bu bəşəri cinayətin tanınmasına çağırdı. 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə Xocalı soyqırımının beynəlxalq aləmə çatdırılması istiqamətində sistemli addımlar atıldı, müvafiq qərarlar qəbul edildi.

1949-cu il Cenevrə Konvensiyalarına əsasən, silahlı münaqişə zamanı mülki əhali xüsusi müdafiə olunmalıdır. Lakin Xocalıda bu Konvensiyanın tələbləri – beynəlxalq humanitar hüququn müddəaları kobud şəkildə pozulub. Beynəlxalq hüquqa əsasən, mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistemli hücumlar insanlıq əleyhinə cinayətlər sayılır. Bu anlayış xüsusilə Birləşmiş Millətlər Təşkilatı sənədlərində və 1998-ci ildə qəbul edilmiş Roma Statutu çərçivəsində təsbit edilib.

Roma Statutuna görə, insanlıq əleyhinə cinayətlərə qəsdən adam öldürmə, deportasiya və ya zorla köçürmə, işgəncə, təqib və digər qeyri-insani əməllər daxildir. Xocalı soyqırımı zamanı bu cinayətlərin hamısı aşkar və vəhşiliklə törədilib.

Xocalı soyqırımının dünyaya çatdırılması, ona hüquqi-siyasi qiymətin verilməsi və bu soyqırımının beynəlxalq aləmdə tanıdılması ilə bağlı Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasəti, qeyri-hökumət təşkilatlarının fəaliyyəti də ötən illərdə önəmli nəticələr verib. Bu yöndə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın başlatmış olduğu "Xocalıya ədalət!" kampaniyasının uğurla həyata keçirilməsi nəticəsində qısa müddətdə bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, bu cinayəti pisləyən bəyanatlar yayılıb. Ümumilikdə, 2008-ci ildə start verilən kampaniyada 100 minlərlə şəxs və 115 təşkilat beynəlxalq aksiyanı dəstəkləyib. Görülən işlərin nəticəsidir ki, bu vaxtadək 18 ölkənin qanunverici orqanı, həmçinin ABŞ-ın 24 ştatı Xocalı soyqırımı barədə parlament qətnamələri qəbul edib.

"Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi" İctimai Birliyi (ATXƏM) də aparılan bu ümumi işə öz töhfəsini verməyə çalışıb. "Xocalıya ədalət!" kampaniyası çərçivəsində soyqırımının dünyaya çatdırılması sahəsində sistemli fəaliyyət göstərib. Yarandığı gündən qarşısına qoyduğu ana xəttdən biri də məhz Xocalı soyqırımının dünyada tanıdılması olan ATXƏM bu illər ərzində Avropanın siyasi paytaxtlarında, Brüsseldə, Strasburqda, Den Haqqda oradakı partnyor təşkilatlarla Xocalı mitinqləri keçirib, konfrans və dəyirmi masalar təşkil edib.

Belə tərəfdaş təşkilatlardan Belçikada fəaliyyət göstərən Belçika-Türkcə Media Birliyinin sədri Hüseyn Dönməz, Azərbaycan-Belçika-Dostluq Cəmiyyətinin sədri Ayhan Dəmirçi, Belçika-Gent Türk Ocaqları Mərkəzinin rəhbəri Rəcəp Tuncer Sarı, Belinuks Azərbaycanlıları Konqresinin prezidenti Elsevər Məmmədov, Niderland Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin sədri İlhan Aşkın, Strasburq "Azərbaycan Evi"nin rəhbəri Mustafa Alinca və digərləri fəaliyyətimizə təsirli dəstək göstəriblər.




Dəfələrlə erməni lobbisi, Avropadakı erməni diasporu ATXƏM-in Xocalı soyqırımının tanıdılması istiqamətindəki tədbirlərinə mane olmağa çalışsa da, təşkilat qarşısına qoyduğu hədəfə çatmaq üçün geri çəkilməyib, çıxdığı yola uğurla davam edib. Bu gün də ATXƏM eyni missiya, eyni düşüncə də yanaşma ilə fəaliyyətini davam etdirir.

Xocalı soyqırımının 34-cü ildönümü ərəfəsində o dəhşətli günü xatırlayıb kədərlənməklə yanaşı, 2020-ci ilin sentyabrından sonra yaşanan zəfər təntənələrinə nəzər salıb həm də fərəhlənir, qürurlanırıq. Artıq 3 ildir ki, Xocalımız da azaddır.

Artıq erməni işğalı altında torpağımız yoxdur. 44 günlük Vətən müharibəsinə erməni işğalçılarının torpaqlarımızdan qovulmasını təmin etmiş Ali Baş Komandanımız İlham Əliyev bizi Xocalı acısından, həsrətindən, nisgilindən azad edib.

34 il əvvəl həyatları yarımçıq qalmış Xocalı şəhidlərinin ruhu şaddır. Onların ruhu bu günlərdə həm də ona görə şaddır ki, bu şəhərdə soyqırımını həyata keçirən canilər Bakı Hərbi Məhkəməsində öz layiqli cəzalarını aldılar.

***İlham İSMAYILOV,***
***"Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi" İctimai Birliyinin sədri***

# “Qurtuluş seçkisi”

## Ermənistanın geosiyasi seçim anı və postmüharibə dövrünə keçid



*(əvvəli qəzetin 25 fevral sayında)*

Hazırkı mərhələdə Ermənistanda siyasi debatın mərkəzində duran əsas dilemma belədir: Ermənistan Qərbə inteqrasiya yolu ilə dövlət institutlarını gücləndirib suverenliyini dərinləşdirməyi seçməlidir, yoxsa təhlükəsizlik boşluğunu dərhal doldura biləcək ənənəvi hərbi ittifaq modelinə üstünlük verməlidir? Paşinyan hakimiyyəti Qərb kursunu dövlət müstəqilliyinin genişlənməsi kimi təqdim edir. Müxalifət isə bunu təhlükəsizlik zəmanəti olmayan riskli eksperiment kimi xarakterizə edir.

Reallıq ondan ibarətdir ki, Qərb Ermənistanı geosiyasi yöndən dəstəkləsə də, NATO tipli kollektiv müdafiə mexanizmi perspektivi gündəmdə deyil. Bunlar isə təbii ki, seçicinin qarşısında çətin seçim yaradır: dəyərlər və institusional modernizasiya ilə təhlükəsizlik instinkti arasında balans tapmaq. Ermənistanın iyunda verəcəyi qərar təhlükəsizlik konsepsiyasının hansı prioritet üzərində qurulacağını müəyyən edəcək. Qərb faktoru bu seçkidə ideoloji və strateji alternativ kimi mövcuddur, lakin onun təqdim etdiyi modelin real təhlükəsizlik zəmanətinə çevrilib-çevrilməyəcəyi hələ də açıq sual olaraq qalır.

Seçkiyə yüz gün qalmış Ermənistanın siyasi mənzərəsi bir neçə mümkün inkişaf trayektoriyasını ehtiva edir və hər bir ssenari ölkənin daxili sabitliyi ilə yanaşı, xarici siyasət orientasiyasına da ciddi təsir göstərə bilər. Burada məsələ hansı təhlükəsizlik və dövlətçilik modelinin legitim mandat qazanacağıdır.

Əgər Nikol Paşinyan və onun komandası yenidən parlament çoxluğunu təmin edə bilsə, bu, postmüharibə kursuna ictimai təsdiq kimi şərh olunacaq. Belə olan halda Ermənistanın Qərbə doğru tədrici, lakin ehtiyatlı inteqrasiya xətti davam edəcək. Lakin bu inteqrasiya radikal geosiyasi qırılma şəklində deyil, mərhələli və balanslaşdırılmış formada həyata keçiriləcək. Rusiya ilə münasibətlər formal müttəfiqlik çərçivəsində saxlanılsa da, strateji məsafə və qarşılıqlı etimadın məhdudluğu qalacaq. Belə bir model Ermənistanı klassik blok siyasətindən daha çox çoxvektorlu balans siyasətinə yaxınlaşdıra bilər.

Digər ehtimal revanşist və ya açıq şəkildə Rusiyayönlü siyasi qüvvələrin güclənməsidir. Bu ssenari Ermənistanın xarici siyasətində kəskin korrektəyə səbəb ola bilər. Moskva ilə münasibətlərin intensivləşdirilməsi, KTMT çərçivəsində aktivliyin bərpası və Qərb institutları ilə məsafənin artması mümkün istiqamətlərdir. Lakin burada fundamental sual açıq qalır: əvvəlki təhlükəsizlik modeli real sınaqdan keçərək zəiflik göstərmişdisə, onun bərpası yeni nəticə verəcəkmi? Rusiya özü də hazırda genişmiqyaslı geosiyasi qarşıdurma içindədir və resurs məhdudiyyətləri fonunda Ermənistan üçün əvvəlki səviyyədə təhlükəsizlik zəmanəti təqdim edə bilib-bilməyəcəyi qeyri-müəyyəndir.

Ən riskli və qeyri-proqnozlaşdırılan variant isə parçalanmış parlament və davamlı siyasi qeyri-sabitlikdir. Bu halda nə Paşinyan komandası, nə də müxalifət tam legitim və stabil hökumət formalaşdıra bilməz. Koalisiya danışıqlarının uzanması, küçə etirazlarının yenidən aktivləşməsi və dövlət institutlarının funksional zəifləməsi Ermənistanın onsuz da həssas təhlükəsizlik mühitini daha da kövrək vəziyyətə sala bilər. Daxili legitimlik böhranı xarici aktorların təsir imkanlarını artırar və ölkəni strateji qeyri-müəyyənlik mərhələsinə sürükləyə bilər.

Üç ssenarinin hər biri Ermənistan üçün fərqli risk və imkanlar yaradır. Lakin ortaq məqam ondan ibarətdir ki, qarşıdakı seçki yalnız siyasi qüvvələrin yarışması deyil, postmüharibə dövlət modelinin təsdiqi və ya inkarı üzərində qurulan strateji qərar anıdır. Ermənistan cəmiyyəti, faktiki olaraq, gələcək onilliyin geosiyasi və təhlükəsizlik çərçivəsini müəyyən edəcək seçimə doğru irəliləyir.

Ermənistanda qarşıdan gələn seçkilərin taleyini müəyyən edəcək əsas faktor partiya proqramlarından və liderlərin ritorikasından daha çox, cəmiyyətin kollektiv şüurunda baş verən dərin transformasiyadır. Uzun illər ərzində Ermənistanın siyasi kimliyi və təhlükəsizlik düşüncəsi “status-kvo”nun davamlılığı üzərində qurulmuşdu. Qarabağ məsələsi milli identikliyin mərkəzi elementi idi. Mövcud konstruksiya dövlət ideologiyasını, diasporla münasibətləri və daxili siyasi legitimliyi formalaşdıran əsas sütunlardan biri idi. 2020-ci ildən sonra isə həmin sütun sarsıldı və 2023-cü ildə proses faktiki olaraq yekunlaşdı.

“Status-kvo illüziyası”nın dağılması Ermənistan cəmiyyətini seçim qarşısında qoydu. Əvvəllər mümkün hesab edilən maksimalist yanaşmaların real güc balansı ilə uzlaşmadığı açıq şəkildə üzə çıxdı. Bütün bu amillər təbii olaraq dövlətçilik fəlsəfəsinin yenidən düşünülməsini zəruri etdi. İndi müzakirə olunan məsələ “bundan sonra necə mövcud olacağıq?” sualıdır.

Bir tərəfdə kollektiv yaddaşın yaratdığı emosional yük dayanır. Məğlubiyyət travması, milli qürur faktoru və ədalət hissinin zədələnməsi revanşist ritorikanı qidalandırır. Həmin yanaşma keçmişin bərpasını mümkün alternativ kimi təqdim edir və psixoloji kompensasiya effekti yaradır. Digər tərəfdə isə daha praqmatik yanaşma formalaşır. Bu baxışa görə, Ermənistan yeni geosiyasi reallıqda öz təhlükəsizlik konsepsiyasını yenidən qurmalı, resurslarını və prioritetlərini realist əsasda müəyyənləşdirməlidir.

Seçki məhz bu iki psixoloji istiqamət arasında referendum xarakteri daşıyır. Cəmiyyət öz gələcək davranış modelini müəyyənləşdirir. Ermənistan revanşist emosiyanı siyasi kursa çevirəcək, yoxsa məğlubiyyətdən sonra yeni dövlətçilik fəlsəfəsini qəbul edərək təhlükəsizlik və inkişaf strategiyasını rasional çərçivədə quracaq? Sualın cavabı seçicinin düşüncə tərzində və prioritetlərində əks olunacaq.

Ermənistan artıq əvvəlki psixoloji komfort zonasına qayıda bilməz. Qarabağ məsələsinin bağlanması ilə milli identikliyin yenidən tərifi qaçılmazdır. Ermənistanda iyunun 7-də veriləcək qərar regional miqyasda dalğa effekti yaradacaq siyasi hadisədir. Seçkinin nəticəsi yalnız İrəvanın daxili hakimiyyət balansını müəyyən etməyəcək. Seçki eyni zamanda Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına, nəqliyyat-kommunikasiya xətlərinə və böyük güclər arasındakı rəqabətin istiqamətinə birbaşa təsir göstərəcək.

Azərbaycanla sülh müqaviləsinin taleyi bu seçkinin nəticəsindən ciddi şəkildə asılı olacaq. Əgər mövcud hakimiyyət kursunu davam etdirərsə, normallaşma prosesi daha realist və hüquqi çərçivədə irəliləyə bilər. Çünki Paşinyan komandası artıq postmüharibə reallıqlarını açıq şəkildə qəbul etdiyini nümayiş etdirib və delimitasiya, kommunikasiya xətlərinin açılması kimi məsələlərdə prinsipial geri dönüş ehtimalı nisbətən zəif görünür. Belə olan halda, regionda sabitliyin institusionallaşması üçün imkan pəncərəsi genişlənə bilər.

Lakin revanşist ritorikanın hakim siyasi xəttə çevrilməsi sülh prosesini ləngidə və ya faktiki olaraq dondura bilər. Daxili siyasi legitimliyi emosional mobilizasiya üzərində qurmaq cəhdi sərhəd məsələlərində sərtləşməyə və qarşılıqlı etimadsızlığın artmasına gətirib çıxara bilər.

Zəngəzur dəhlizi ətrafındakı proseslər də seçkinin nəticəsindən birbaşa təsirlənəcək həssas mövzulardandır. Kommunikasiyaların açılması regional inteqrasiyanın əsas elementlərindən biridir və bu məsələ həm iqtisadi, həm də geosiyasi məna daşıyır. Praqmatik kurs davam edərsə, Ermənistan bu layihəni blokada psixologiyasından çıxış aləti kimi deyil, tranzit imkanlarını artıran iqtisadi fürsət kimi dəyərləndirə bilər. Əks halda, məsələ yenidən suverenlik və təhlükəsizlik ritorikasının mərkəzinə çəkilərək proses uzadıla və ya siyasiləşdirilə bilər.

Daha geniş müstəvidə isə Ermənistanın seçimi Rusiya–Qərb rəqabətinin Cənubi Qafqazdakı dinamikasına təsir göstərəcək. Paşinyan kursunun davamı Qərbin regiondakı normativ və siyasi mövcudluğunu gücləndirə, Rusiyanın təsir radiusunu isə nisbi şəkildə daralda bilər. Əks ssenari isə Moskvanın mövqelərinin qismən bərpasına xidmət edə bilər, lakin bu belə regionda əvvəlki balansın tam şəkildə geri qayıdacağı anlamına gəlmir. Çünki artıq Cənubi Qafqaz çoxqütblü rəqabət mühitinə daxil olub və heç bir aktor əvvəlki eksklüziv dominantlıq imkanlarına malik deyil.

Son olaraq qeyd edək ki, Ermənistanın qarşısında duran seçim strateji özünüidentifikasiya mərhələsidir. “Qurtuluş seçkisi” ifadəsinin aktuallığı da buradan qaynaqlanır. Seçkiyə yüz gün qalmış müşahidə olunan mənzərə göstərir ki, ölkə ya yeni reallıqlara uyğunlaşma və praqmatik dövlətçilik xəttini davam etdirəcək, ya da keçmiş təhlükəsizlik arxitekturasına qayıtmaq cəhdinə girəcək.



Hansı nəticənin baş verməsindən asılı olmayaraq bir fakt dəyişməz qalır: Ermənistan artıq əvvəlki geosiyasi və psixoloji mərhələdə deyil. Qarşıdakı seçki bu transformasiyanı ya möhkəmləndirəcək, ya da ləngidəcək, lakin hər halda, ölkənin yeni siyasi kimliyini rəsmiləşdirən dönüş nöqtəsi kimi tarixə düşəcək.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Paşinyanın “IV respublika” axtarışı

*(əvvəli 1-ci səhifədə)*

Ermənistanın daxili siyasi mühitində son aylar aparılan rəy sorğuları (məsələn, MPG/Gallup International tərəfindən keçirilən tədqiqatlar) cəmiyyətin dərin depressiyada olduğunu, lakin, eyni zamanda, praqmatizmə meyil etdiyini göstərir. Hazırda hakim “Mülki müqavilə” partiyasının reytinqi 17-20 faiz həddindədir. Baxmayaraq ki, bu rəqəm 2021-ci il seçkilərində 54 faiz idi. Müxalifət bloklarının (məsələn, "Ermənistan" və "Şərəfim var" alyansları) hər birinin reytinqi isə ayrı-ayrılıqda 4-7 faizdən yuxarı qalxa bilmir. Bu isə o deməkdir ki, seçicilərin təxminən 60 faizi hələ qərarsızdır və ya heç kimi dəstəkləmir. Məhz bu "boz zona" seçkilərin və dolayısı ilə sülh prosesinin taleyini həll edəcək əsas qüvvədir. Hələlik 60 faizin Paşinyanın lehinə, yoxsa əleyhinə olduğu bilinmir.

Hakimiyyət üçün ənənəvi “küçə elektoratı” artıq etibarlı deyil. Küçədəki kütlənin hakimiyyətə gətirdiyi Paşinyan artıq həmin mühitə yaddır. Nikol son çıxışlarında “real Ermənistan” və “tarixi Ermənistan” terminlərini tez-tez qarşı-qarşıya qoyur ki, bu da əslində ölkənin intellektual elitasına və texnokrat təbəqəsinə ünvanlanan mesajdır. Texnokratlar üçün rəqəmlər amansızdır: Ermənistanın dövlət borcu ÜDM-in 50 faizini ötüb və ölkənin iqtisadi təhlükəsizliyi birbaşa regional kommunikasiyaların (məsələn, Zəngəzur dəhlizi) açılmasından asılıdır. İllik iqtisadi artımın davamlılığı üçün “blokada”nın yarılması mütləqdir. Ziyalı təbəqə yaxşı anlayır ki, növbəti revanşizm cəhdi ölkəni suverenliyin tam itirilməsi və iqtisadi iflas həddinə çatdıra bilər.

Tarixi proseslərin dialektikasına nəzərə alsaq, Ermənistanda konstitusiya islahatları məsələsi artıq varlıq və yoxluq arasında mübarizəyə çevrilib. "S&P Global Ratings" beynəlxalq reytinq agentliyinin son hesabatında bildirilir ki, Ermənistan hakimiyyəti yeni konstitusiya layihəsi üzərində işləyir. Sənədin marta qədər hazırlanması, referendumun isə iyun ayındakı parlament seçkilərindən sonra keçirilməsi planlaşdırılır. Qeyd olunur ki, bu islahat Bakı ilə aparılan sülh danışıqları kontekstində strateji əhəmiyyət daşıyır.

Azərbaycanın tələbi ilə gündəmə gələn konstitusiya dəyişikliyi ölkə daxilində ciddi müqavimətlə üzləşsə də, Paşinyan bunu seçki öncəsi cəmiyyətə "müharibə, yoxsa sülh" seçimi kimi təqdim edəcək. Rəqəmlər göstərir ki, Azərbaycanın Ermənistan ordusunun modernləşmə tempini qat-qat üstələyən hərbi büdcəsi qarşısında İrəvanın hər hansı revanş imkanı "sıfıra bərabərdir". Bu kəskin hərbi-texniki disbalans elitanın manevr imkanlarını daraldır və onları sülhə tərəf məcburedici trayektoriyaya sövq edir.

Bu konteksdə daha vacib bir məsələ var. Mövcud geosiyasi reallıqlar çərçivəsində rəsmi Bakının strateji hədəfi Ermənistan dövlətçiliyinin təməllərinə söykənən sarsılmaz sənədin imzalanmasıdır. Yəni əsas məqsəd, sadəcə, Nikol Paşinyan hökuməti ilə deyil, bütövlükdə Ermənistan və onun xalqı ilə hər hansı bir şübhə doğurmayacaq sülh müqaviləsini rəsmiləşdirməkdir. Sənəd İrəvanın bu gün və ya sabah seçdiyi xarici siyasət kursundan, qoşulduğu müxtəlif iqtisadi platformalardan və hərbi-siyasi bloklardan tamamilə müstəqil olmalı, bütün zamanlar üçün legitimliyini qorumalıdır. Əldə olunan razılaşma erməni cəmiyyətində “Paşinyan sülhü” kimi qəbul edilməməli, bütövlükdə Ermənistanın barış müqaviləsinə çevrilməlidir. Çünki gələcəkdə hər hansı siyasi hakimiyyət dəyişikliyi bu sülhü kağız üzərində qalan xülyaya döndərə bilər.



Ermənistanın xaricdəki maliyyə mərkəzləri ildə təxminən 1.5 - 2 milyard dollar həcmində pul köçürmələri ilə ölkə iqtisadiyyatına təsir etsə də, onların siyasi tələbləri yerli əhalinin fiziki təhlükəsizliyi ilə ziddiyyət yaradır. Siyasi analiz göstərir ki, Krasnodar və ya Los-Ancelesdə oturan elita üçün status-kvo simvolik əhəmiyyət kəsb etdiyi halda, Ermənistan kəndlisi üçün delimitasiya olunmuş sərhəd və sabit ticarət daha vacibdir. Seçkilərdə bu iki təbəqə arasında qırılma xəttinin daha da dərinləşəcəyi qaçılmazdır. Paşinyanın "sağlam etimadsızlıq" prinsipi ilə Türkiyə və Azərbaycanla qurmağa çalışdığı münasibətlər, əslində, ölkənin demoqrafik tənəzzülünün qarşısını almaq üçün son şansdır.

Zaman hazırda Paşinyanın lehinə deyil, dövlət maraqlarının dərki əleyhinə işləyir. Əgər seçkilərə qədər sülh müqaviləsi imzalanmazsa, bu, radikal qüvvələrə "hakimiyyətin uğursuzluğu" kartından istifadə etmək imkanı verəcək. Lakin tarixi təcrübə və mövcud iqtisadi-coğrafi asılılıqlar diktə edir ki, Ermənistanın xilas yolu "Ağrıdağ", “miatsum” və “artsax” kimi mifologiyalardan imtina edib, rasional ticarət tərəfdaşına çevrilməkdir. Əks halda, hay cəmiyyəti elə həmin psevdo-ideologiyaların əsrliyində qalmaqda davam edəcək.

*Tacir SADIQOV*
*XQ*

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Ermənistanın daxilində çoxhərəkətli proseslər gedir. Yeni başlanan təşəbbüslərə bir sıra qüvvələr qarşı çıxır. Belə olan halda, yeni partiyalar yaranır, birləşir və alyanslar qurur. “Qarabağ” klanı aktivləşib, mövqeyini gücləndirib, eyni zamanda, digər qüvvələr də fəaliyyət göstərir. Məqsədləri hakimiyyəti devirməkdir. Amma Paşinyanın mövqeyi hələlik kifayət qədər möhkəmdir. Amma bunu bütün problemlərin həlli kimi qiymətləndirmək olmaz. Hələ də bir sıra şəxslər həbsdədir, o cümlədən Rusiya tərəfini dəstəkləyən əsas fiqurlar – Karapetyan, kilsə nümayəndələri kimi elementlər mövcuddur. Paşinyan başa düşməlidir ki, əgər bu seçkilərdə qələbə qazanmaq və parlamentdə çoxluğu təmin etmək fikrindədirsə, daha qəti addımlar atmalıdır. Ona qarşı siyasi mübarizə seçki ərəfəsində daha da güclənəcək. Üstəlik, bəzi xarici qüvvələr də bu mübarizəni dəstəkləyirlər. Onların uzun müddətdir arzusu Ermənistan baş nazirini aradan götürməkdir. Hazırda buna “əlverişli şərait” yaranıb.

Ona görə də Paşinyan sağlam düşüncəli təbəqələrə arxalanır. O, Ermənistanın gələcəyini Azərbaycanla sülh şəraitində yaşamaq, regionda stabillik yaratmaq üzərində qurursa, daha qəti və iradəli addımlar atmalıdır. Buna maneə törədən qüvvələrin neytrallaşdırıması, ünsürlərin aradan qaldırılması vacibdir. Mübarizə isə addım-addım, sistemli şəkildə aparılmalıdır. Düşünürəm ki, xalqın böyük hissəsi və müxtəlif təbəqələri Paşinyanı dəstəkləməlidir. Əks halda, Paşinyan və onun partiyası ciddi problemlərlə üzləşər ki, bu da arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

**“Artsax dünyanın hər yerində yaşayan ermənilərin məsuliyyəti olaraq qalır”. Belə bir sərsəm fikir Los-Ancelesdə fəaliyyət göstərən “Knock LA” internet media orqanında yayımlanmış məqalədə yer alıb. O Los-Ancelesdə ki, orada ABŞ-dakı erməni diasporunun böyük hissəsi məskunlaşıb. Yəni, təxminən, 200 mindən çox erməni.**

# “Knock LA” canfəşanlığı və ya növbəti “Artsax” sarsaqlığı

## *Rəsmi İrəvanın kursu ilə oxşarlıq nədədir?*

Əslində, sözügedən məqalədə vurğu məhz bu məskunlaşmanın üzərinə qoyulur. Vurğu, eyni zamanda, “Azərbaycanın Qarabağı ələ keçirməsinin”, guya Los-Ancelesdə yaşayan ermənilərin həyatını ağırlaşdırdığı üzərindədir. Göründüyü kimi, ortada misilsiz həyasızlıq metodu var. Məqalədə daha hansı cəfəngiyyatların yer aldığına diqqət yetirəcəyik. Amma əvvəlcə bir məqama nəzər salaq.

Tam aydındır ki, Azərbaycanı hədəfə alan bu cür sərsəm yazının qələmə alınması Los-Ancelesdəki erməni lobbi və diaspor təşkilatlarının “işidir”. Yəni, məqaləni hazırlayanlar və yayımının sifarişçiləri məlumdur. Məqsəd də həmçinin – ABŞ administrasiyasına təsir göstərmək. Təsir göstərmək ki, rəsmi Vaşinqton ermənipərəst xətt yürütsün.

Belə təmayüllər əvvəllər də qeydə alınıb. Hazırda isə “Knock LA” media orqanının ortaya atılması acizlikdir. Məsələ ondadır ki, bu sayt Los-Ancelesdəki qatı solçulara məxsusdur. Sayta ümumi rəhbərliyi həyata keçirən “Ground Game” şirkəti şəhərdə fəaliyyət göstərən yerli, solçu yönümlü qrupdur.

Araşdırmalarımız nəticəsində məlum olub ki, bu qrup Los-Ancelesdəki hətta LGTB icmalarından da qat-qat aşağı nüfuza malikdir. O zaman onun media orqanının auditoriyasını düşünək. Gözlər önündə olduqca məhdud çevrə canlanır və bu auditoriya “Knock LA”ya da ciddi media orqanı kimi yanaşmağa imkan vermir.

Əsas məsələ budur ki, belə bir qeyri-ciddi media orqanının sərsəm materialını Ermənistanın özünü ciddi adlandıran media orqanları yayımlayırlar. Daha böyük məqam isə “Artsax” cəfəngiyyatının təbliğində Ermənistan dövlətinin də gizli sövdələşmə payının olmasıdır. Gizlilikdən söz düşmüşkən, aşkar faktı diqqətə çatdıraq.

Məlumdur ki, Azərbaycan Milli Olimpiya Komitəsi 2026-cı il Milano-Kortina Qış Olimpiya Oyunlarında Ermənistanı təmsil edən fiqurlu konkisürənlər Nikita Raxmaninin və Karina Akopovanın yarış proqramında “Artsax” adlı musiqidən istifadə ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə etiraz ünvanlamışdı. Qaydalara əsasən, erməni idmançıların bu musiqi seçimi Olimpiya Xartiyasının siyasi neytrallıq prinsiplərinə zidd hesab olunmuş və buna görə erməni idmançılar yarış zamanı istifadə edəcəkləri musiqinin adını dəyişməli olmuşdular.

Belədə sual yaranır: Ermənistanın müvafiq dövlət qurumunun sözügedən musiqidən xəbəri yox idimi? Yəni fiqurlu konkisürənlər qurumun diqqətindən “sürüşmüşdülər”? Əlbəttə, belə bir hal mümkünsüzdür. Nəticəyə gəlirik ki, “Artsax” ritorikası varsa, bunun rəsmi İrəvanın patronajlığına dair şübhələr yerinə düşür. Üstəlik, bu qənaətə gəlmək üçün başqa məqamları da vurğulaya bilərik.

Məsələn, “Knock LA” bildirir ki, 2023-cü ildə etnik təmizləmə və Azərbaycanın Qarabağa müdaxiləsi əsrlər boyu ermənilərin yaşadıqları torpaqlardan bütün əhalinin köçməsinə səbəb olub. Bu tezisin vaxtilə Ermənistan rəhbərliyi tərəfindən gündəmə gətirildiyinin əlavə sübuta ehtiyacı yoxdur. Media orqanı, həmçinin vurğulayıb ki, “Azərbaycan Qarabağa hücum edəndə” beynəlxalq ictimaiyyətin reaksiyası, guya məyusedici olub və durum yenə də eynidir. Nəhayət, sən demə, Qarabağın qorunması getdikcə daha təcili məsələ kimi təqdim olunur. Çünki “Azərbaycan bölgədəki erməni mədəniyyətini və irsini məhv etməyə, mənimsəməyə davam edirmiş”. Bu tezisin də vaxtilə rəsmi İrəvanın kursunun tərkib hissəsi olduğu məlumdur.

Sonda yenidən “Knock LA” üzərinə qayıdaq. Əvvəldə bildirdik ki, bu media orqanı Los-Anceles solçularınındır. O solçular ki, ekstremist təmayüllüdürlər. Elə “Knock LA” adının tərcüməsi (qapını döymək) də zorakılıq mahiyyətinin bu media qurumu üçün etalon olduğunu müəyyənləşdirir. Deməli, hər şey aydındır. Aydın olmayan isə istər ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının, istər Ermənistandakı revanşistlərin, istərsə də onların dirijor çubuğu ilə hərəkət edən rəsmi İrəvanın bəzən açıq, bəzənsə gizli şəkildə “Artsax” cəfəngiyyatını diri saxlamaq istəyidir.

Görəsən, saman çöpündən yapışdıqlarının fərqinə varmırlar? Yəqin, varmırlar ki, səmimiyyət göstərmir, onlara uzanan sülh əlini tutmurlar. Deməli, obrazlı desək, boğulacaqlarını düşünməyəcək qədər iflic və xəstədirlər. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

*Ə.RÜSTƏMOV*
*XQ*

I Ümumittifaq Türkoloji Qurultay

# 100 il sonra "danışan" məxfi sənədlər

## *Arxiv materiallarının xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər*

**(əvvəli 18, 20 və 24 fevral 2026-cı il tarixli saylarımızda)**

Bu iclas qurultayın gündəliyinin proqram və məruzələr bölməsidir, elmi və tematik mövzuda kimlərin çıxış edəcəyi müəyyənləşdirilir.



Qurultayın proqramı, gündəliyi və məruzəçilər.

A.Samoyloviç:

Qurultay, ilk növbədə, elmi tədbirdir. Qurultayda əsasən dilçilik, ədəbiyyat, etnoqrafiya və türkologiya sahəsində çalışan alimlər iştirak edəcək. Bununla belə, qurultayın qarşısında SSRİ türkdilli xalqlarının mədəni quruculuğuna dair praktik məsələlərin həlli vəzifəsi də durur.

Qurultay elə təşkil olunmalıdır ki, onun qərarları və tövsiyələri bu sahədə çalışan bütün praktik işçilər üçün rəhbər rolunu oynaya bilsin. Qurultaydan sonra onun sənədləri həm rus, həm də türk dillərində çap olunmalı və respublikalarda, muxtar vilayətlərdə, dairə və qəza səviyyələrində geniş yayılmalıdır. Qurultayın işi əsasən plenar iclaslarda gedəcək. Lakin onun ayrılmış məsələləri, xüsusən də əlifba və yazı islahatı ayrıca bölmələrdə müzakirə olunacaq. Sonda isə həmin bölmələrin yekun sənədləri qəbul olunacaq.

Hazırlıq zamanı aşağıdakı komissiyalar fəaliyyət göstərib:

Təşkilati komissiya (sədr S.Ağamalıoğlu)

Katiblik (Əli Yusif, Quliyev)

Referatlar üzrə komissiya (Samoyloviç, Bartold)

Redaksiya komissiyası

Protokol komissiyası və s.

Əgər əlavə məsələlər də təqdim olunarsa, onların gündəliyə salınması müzakirəyə çıxarılacaq. Hələlik gündəlikdə aşağıdakı məsələlər var:

A.N.Samoyloviç. "Qurultay, əsasən, elmi xarakter daşıyır və ilk növbədə türk dillərinin, onların mənşəyinin, qohumluğunun, türk xalqlarının ədəbiyyatının öyrənilməsi ilə məşğul olan alimlərə həsr olunmalıdır. Eyni zamanda, qurultay SSRİ-də yaşayan türk xalqlarının mədəni quruculuğunun praktiki məsələlərini də əhatə etməlidir.

Qurultay bu və ya digər məsələ ətrafında qərar qəbul edə bilər, lakin bu qərarlar yalnız tövsiyə xarakteri daşıyacaq və heç bir halda icbari olmayacaq. Qurultayın əsas vəzifəsi alimləri bir yerə toplamaq, fikir mübadiləsi aparmaq və türkoloji elmin son nailiyyətlərini müzakirə etməkdir.

Qurultay elmi fəaliyyətlə məşğul olan və türk dilləri, ədəbiyyatı və mədəniyyəti sahəsində çalışan müxtəlif elmi təşkilatların nümayəndələrini bir araya gətirir. Qurultay zamanı bu təşkilatlar arasında əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi vacib məsələdir".

Əgər başqa təkliflər verilərsə, onlar da nəzərdən keçiriləcək, lakin əsas məsələ aşağıdakı mövzular olacaq:

*1. Türk xalqlarının müasir vəziyyəti və onların öyrənilməsi ilə bağlı tarixi perspektivlər;*

*2. Türk xalqlarının müasir vəziyyəti və onların öyrənilməsi ilə bağlı etnoqrafik perspektivlər;*

*3. Türk xalqları öz və monqol, tunqus, fin-uqor, yafəs dilləri arasında qohumluq əlaqələri;*

*4. Türk dillərinin öyrənilməsinin indiyə qədərki nailiyyətləri və gələcək perspektivləri;*

*5. Texniki və linqvistik baxımdan əlifbanın düzülüşü;*

*6. Elmi terminlərin sistemi;*

*7. Türk xalqları arasında ədəbi dillərin inkişafı;*

*8. Orfoqrafiyanın ümumi kökləri. Türk dillərində orfoqrafiya məsələləri;*

*9. Türk dillərinin tədrisində metodiki və pedaqoji yanaşmalar;*

*10. Türk xalqlarının ədəbiyyatının öyrənilmə perspektivləri;*

*11. Türk xalqları arasında yerli tədqiqat işlərinin təşkili;*

*12. Türk xalqları arasında mədəni əlaqələrin son vəziyyəti.*

Təşkilati məsələlər:

1. Türk xalqlarını sistematik şəkildə öyrənəcək planın hazırlanması;

2. Türk xalqlarını öyrənmək üçün fond yaradılması;

3. Nəşriyyat məsələlərinin müzakirəsi.

Yuxarıdakı məsələlərlə bağlı Təşkilat Komissiyası aşağıdakıları məruzəçi və məsul şəxslər kimi seçir:

1-ci məsələ üzrə: akademik V.Bartold, professor İ.Borovdin və dosent Q.Qubaydulin;

2-ci məsələ üzrə: professor L.Tenberq, Budapeşt Milli Muzeyin direktoru Mesaro.

3-cü məsələ üzrə: professor Çobanzadə, N.Poppe, akademik N.Marr.

4-cü məsələ üzrə: professor Samoyloviç, N.Aşmarin.

* * *

Bu sənəddən qurultayın konseptual və ideoloji təhlili göstərir ki, SSRİ-nin məqsədi türkdilli xalqlar arasında vahid mədəni və elmi sistem qurmaq, latın əlifbasına keçidi əsas texniki dayaq nöqtəsi olaraq təqdim etmək və son nəticədə ideoloji layihəsini həyata keçirməkdir. Elmi ictimaiyyətin canlı üzvlərinin cəlb edilməsi elmi legitimlik yaratmaq istəyindən xəbər verir. Samoyloviçin qeyd etdiyi kimi, qərarlar tövsiyə xarakterlidir, lakin praktik təsiri yüksəkdir. Tətbiq mexanizmi yerli komissiyalar və təhsil strukturları vasitəsilə qurulur. Elmi əlaqələndirməyə gəldikdə, qurultay türk dilləri və mədəniyyətləri sahəsində elmi sinxronlaşma aparmaq, metodoloji vahidlik yaratmaq məqsədi daşıyır. Demək, bir tərəfdən türkoloji sahədə elmi əlaqələndirmə tədbirləri keçirilir, digər tərəfdən isə mədəni-siyasi inteqrasiya və sovetləşdirmə platforması gücləndirilir: latınlaşma siyasətini legitimləşdirməklə türkdilli xalqlar arasında ideoloji ortaq kod, türkoloji elmi sistemləşdirmək üçün strukturlaşdırılmış mexanizm yaradılır.

4 yanvar 1926-cı il Türkoloji Qurultayın Çağırılması üzrə Təşkilat Komissiyasının I Ümumittifaq Türkoloji Qurultay ilə əlaqədar yerli komitə nümayəndələrinin S.Ağamalıoğlunun sədrliyi, Zifeldin katibliyi ilə 3 yanvarda həmin heyətdə keçirilən I Plenum iclasının protokolu:

İlk məsələ bölmələr və reqlament haqqındadır. H.Cəbiyev məlumat verir ki, əvvəldən qurultayın əsas praktiki məsələlər üzrə 4 seksiyaya bölünməsi nəzərdə tutulurdu. Lakin bakılı yoldaşlarla leninqradlılar arasında aparılan danışıqlar nəticəsində qurultayda yalnız 2 əsas – nəzəri və praktik seksiyaların yaradılmasının zəruri olduğu qənaətinə gəlinmişdir.

Proqram, hazırda qəbul olunmuş şəkildə, seksiyalara bölünmədən həyata keçirilə biləcək vəziyyətdədir və xüsusi seksiyalara ehtiyac yoxdur. Proqram elə şəkildə tərtib olunmuşdur ki, bir məsələ digərindən doğur və növbəti məsələyə, bir növ, giriş rolu oynayır. Qurultayın məsələlərinin həlli ilə həm türkoloq alimlər, həm də pedaqoqlar və ictimai xadimlər eyni dərəcədə maraqlıdır. Buna görə də H. Cəbiyev qurultayın seksiyalara bölünməsindən imtina edir.

C.Qorxmasov hesab edir ki, bəzi məsələlərin daha ətraflı işlənməsi baxımından seksiyaların təşkili zəruridir.

Müzakirələrdə aşağıdakı şəxslər iştirak etdilər:

M.İ.Pavloviç, A.R.Zifeld, V.Çobanzadə, C.Qorxmasov, V.V.Tomaşevski, C.Peninov, Oldenburq, B.F.Berdıyev, B.Baytursun, A.Samoyloviç.

**VII. Reqlament haqqında**

Cəbiyev qeyd etdi ki, qurultayda müzakirə olunacaq məsələlər əslində yerlərdə keçirilən diskussiyalarda, mətbuatda, türkoloji topluda və s. artıq əvvəlcədən kifayət qədər işıqlandırılıb. Buna görə də Qurultayın özündə vaxtla qənaətli davranmaq mümkündür. O, qurultayın ümumi müddətinin maksimum 10 gün olmasını, məruzəçilərə 45 dəqiqə, opponenlərə isə 3 dəqiqə vaxt verilməsini təklif etdi.

M.İ.Pavloviç və S.F.Oldenburq 10 günlük müddətə etiraz etdilər.

A.N.Samoyloviç təklif etdi ki, məruzəçilər Qurultaya qədər öz tezislərini və ya məruzələrini yazılı şəkildə Təşkilat Komissiyasına təqdim etsinlər.

**VIII. Sərgilər haqqında**

A.R.Zifeld məlumat verir ki, bir sıra təşkilatlar qurultay üçün öz nailiyyətlərinin nümayişinə hazırlaşır. Belə ki, professor Köprülüzadə Türkiyədən müəllifi olduğu ən yeni elmi və tədris ədəbiyyatını kitab sərgisi üçün gətirəcəyinə söz verdi. Bəzisi isə özlərinin bütün nəşrlərini gətirəcəklərini bildirdilər

**"Kommunist" qəzeti son 50 ilin türk mətbuat nümunələrini təqdim edəcək.** Arzu olunur ki, digər respublikalar da bu nümunəni izləsinlər.

Eyni zamanda türk xalqlarının incəsənət sərgisinin təşkili nəzərdə tutulur. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti tərəfindən türk xalqlarının yazı nümunələrindən ibarət sərgi hazırlanır, bu sərgidə qədim dövrlərdən başlayaraq son layihələrə qədər müxtəlif – ərəb, rus və latın əlifba formaları nümayiş olunacaq.



Azərbaycan Arxeologiya Komitəsi qədim yazı nümunələri, memarlıq abidələri barədə albom hazırlayır. Leninqrad elmi təşkilatları qurultay üçün etnoqrafik və tarixi xəritə, kitabələrə dair albom, maddi mədəniyyət nümunələri və türk əlyazmalarının şəkillərindən ibarət albom təqdim edəcəklər.

İclaslararası fasilələrində türk xalqlarının xalq mahnısı, rəqsi və dram sənətinin nümayiş etdirilməsi tövsiyə olunur.

S.F.Oldenburq A.R.Zifeldin təklifini dəstəkləyərək, türk xalqlarının incəsənət nümunələri sərgisinin növbəti qurultaya qədər təxirə salınmasını tövsiyə edir, çünki onun təşkili üçün çoxlu vaxt tələb olunur.

C.Qorxmasov istəyini bildirir ki, türk xalqlarının yazı nümunələrindən ibarət albomlar hazırlanaraq nümayəndələrə paylansın və yerlərə göndərilsin.

IX Bülleten və topluların nəşri haqqında

A.R.Zifeld: Təşkilat Komissiyası hesab edir ki, qurultaya qədər Təşkilat Komissiyasının bülleteninin biri nəşr edilməlidir. Birinci buraxılışda qurultayın ümumi məsələləri üzrə nəzəri məqalələr, xronika və biblioqrafiya olmalıdır. Bu "Bülleten" nümayəndələr üçün zəruri arayış vəsaiti olacaq və onlara Qurultayda təqdim ediləcək fərqli baxışlarla öncədən tanışolma imkanı verəcəkdir.

Təşkilat Komissiyası qurultaya qədər ilk Türkoloji Toplunun hazırlanmasını da təklif edir. Bu topluda qurultay iştirakçılarının mövzu, məqsəd və vəzifələrə dair məqalələri yer almalıdır. Bu toplu öz növündə ilk olacaq və qurultaydan sonra bütün SSRİ və xaricdəki türkoloqları birləşdirən və davamlı nəşrə çevrilə bilər.

S.Oldenburq təklif edir ki, bülletenlərə arayış bölməsi də əlavə olunsun və orada türkologiya ilə bağlı olan SSRİ-dəki bütün elmi, tədris və mədəni-maarif təşkilatlarının siyahısı verilsin. Qurultaydan sonra bu arayış materialı dövri şəkildə də nəşr olunmalıdır.

S.F.Oldenburq bildirir ki, qurultayda zamanımızın görkəmli alimlərindən biri, türkoloji sahənin veteranı professor Vilhelm Tomson iştirak edə bilməyəcək. Dağılışmadan öncə Təşkilat Komissiyası adından ona təbrik teleqramı göndərilsin (Təklif alqışla qarşılanır).

12 məsələ haqqında L.Jirkov, C.Məmmədzadə, B.Çobanzadə, A.Qordlevski, T.Menzel, M.Pavloviç, F.Köprülüzadə, S.Oldenburq, Haalimcan İbrahimov, F.Ağazadə, C.Əfəndizadə və başqaları çıxış etdilər.

S.F.Oldenburq hesab edir ki, orfoqrafiya məsələsi əlifba məsələsindən öncə müzakirə olunmalıdır, çünki bu, problemi pedaqoji və tədris texnikası baxımından daha yaxşı müzakirə etməyə kömək edər. Onun fikrincə, orfoqrafiya məsələsi, türk-tatar dillərində düzgün tələffüz (orfoepiya) məsələsinin önündə gəlməlidir.

V.A.Qordiyevski hesab edir ki, qurultay proqramına SSRİ-dəki türkoloji elmi müəssisələrin materialları daxil edilməlidir.

**IV. Yardım komitələrinin məruzələri**

a) Moskva Yardım Komitəsinin məruzəsi – yoldaş Pavloviç

b) Krım Yardım Komitəsinin məruzəsi – yoldaş Odabaş

c) Qazaxıstan Yardım Komitəsinin məruzəsi – yoldaş Bayturusun

ç) Özbəkistan Yardım Komitəsinin məruzəsi — yoldaş Abd. Cabbarov

d) Türkmənistan Yardım Komitəsinin məruzəsi – yoldaş Berdiyev

e) Leninqrad Yardım Komitəsinin məruzəsi – A.N.Samoyloviç

g) Dağıstan Yardım Komitəsinin məruzəsi – C.Qorxmasov

h) Azərbaycan Yardım Komitəsinin məruzəsi– C.Məmmədzadə

Baytursun belə bir sualla həmkarlarına müraciət edir ki, əgər Azərbaycanda əlifba ilə bağlı artıq yeni vəzifələr üzrə müstəqil fəaliyyətə başlanılıbsa, qurultayı çağırmağa ehtiyac varmı? Sədr cavab verir ki, qurultayın qarşısında əlifba və yazıdan əlavə çoxlu sayda məsələlər durur və bu qurultay yalnız müzakirə deyil, eyni zamanda, elmi və praktik informasiya mübadiləsi, birgə qərarların formalaşdırılması məqsədi daşıyır. Qurultay icbari qərarlar qəbul edən orqan deyil, inzibati funksiyaları yoxdur, hər hansı məsələni qiymətləndirməsi yalnız elmi və mənəvi xarakter daşıya bilər.



*Nadir MƏMMƏDLİ,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor*

**V. Nəvainin yubileyi haqqında**

Professor Çobanzadə təklif edir ki, Qurultay çərçivəsində Əlişir Nəvainin 500 illik yubileyi qeyd edilsin, onunla bağlı toplu nəşr olunsun və türkoloji elmi-tədqiqat institutlarından birinə onun adı verilsin. Həmçinin Nəvainin yaradıcılığını öyrənmək üçün xüsusi komitə və dərnəklər yaradıla bilər.

S.F.Oldenburq çıxış edərək bildirir ki, Nəvainin dövrünü xarakterizə edən bioqrafiyası bir neçə dildə çap olunsun və qurultay çərçivəsində keçiriləcək axşamlardan biri onun xatirəsinə həsr edilsin.

Cəbiyev təklif edir ki, bu arzular prinsip etibarilə qəbul olunsun və Təşkilat Komissiyasına onların ümumiləşdirilməsi və qurultaya əlavələr şəklində hazırlanması tapşırılsın.

Sədr: Yoldaşlar, aramızda tanınmış alman türkoloqu, professor Menzel iştirak edir. O, bizim qurultaya o qədər böyük maraq göstərir ki, vaxtını gözləmədən əvvəlcədən təşrif gətirib və bütün məsələləri üzrə bizə kömək etmək istəyir. Professor Menzeli alqışlarla salamlayıram (Sürəkli alqışlar).

*Sədr S.Ağamalıoğlu*

*Katib Zifeld*

* * *

Göründüyü kimi, başlanğıcda 4 seksiyaya bölünməsi planlaşdırılsa da, H.Cəbiyev və bakılıların təşəbbüsü ilə yalnız 2 əsas – nəzəri və praktik seksiyaların təşkili məqsədəuyğun hesab edildi. Proqramın daxili ardıcıllığı əlavə bölünməyə ehtiyac qoymur.

C.Qorxmasov isə bəzi məsələlərin daha dərin işlənməsi üçün seksiyaların zəruri olduğunu bildirir. Müzakirələrə 10-dan çox görkəmli alim və nümayəndə qatılır (Zifeld, Pavloviç, Çobanzadə, Samoyloviç və b.). Reqlament üzrə qurultayın müddəti maksimum 10 gün, məruzələrə 45 dəq., opponentlərə 3 dəq. vaxt verilməsi təklif olunur. Pavloviç və Oldenburq bu müddətə qarşı çıxırlar. Samoyloviç yazılı tezislərin əvvəlcədən Təşkilat Komissiyasına təqdim edilməsini təklif edir. Qurultay mümkün qədər yığcam və strukturlaşdırılmış formatda keçirilməli, lakin bəzi məruzələrin yazılı formada əvvəlcədən təqdim olunması təşkilati səmərəliliyi artırmalıdır.

Təşkilatçılar sərgi proqramını təqdim edirlər:

– Türkiyədən Köprülüzadə elmi və tədris ədəbiyyatları;

– Azərbaycan yazı tarixindən ərəb, rus və latın əlifba nümunələri;

– Leninqrad – tarixi xəritələr, əlyazmalar və etnoqrafik albomlar;

– "Kommunist" qəzeti – 50 illik türk mətbuatı nümunələri

– S.F.Oldenburq incəsənət sərgisinin növbəti qurultaya saxlanmasını təklif edir.

– Qorxmasov yazı nümunələrindən ibarət albomların nümayəndələrə paylanmasını istəyir.

Qurultay yalnız elmi deyil, mədəni və vizual yaddaş formalaşdıran genişmiqyaslı tədbirə çevrilir. Bəzi sərgilər təxirə salınsa da, əsas məqsəd türk xalqlarının yazılı irsini vahid platformada nümayiş etdirməkdir.

Təşkilat Komissiyası qurultaya qədər bir bülleten və bir elmi toplu buraxmağı planlayır. Bülletendə ümumi nəzəri məsələlər, xronika, biblioqrafiya təqdim olunacaq. İlk Türkoloji Toplu qurultay iştirakçılarının məqalələri ilə tərtib ediləcək və gələcəkdə dövri nəşrə çevriləcək. Oldenburq əlavə olaraq arayış bölməsi və elmi-mədəni qurumların siyahısının daxil olunmasını təklif edir: qurultayın nəşrləri vahid türkoloji elmi mərkəzin informasiya bazasına çevriləcək, bu isə onu SSRİ daxilində və xaricdə türkoloji şəbəkənin əsas dayağına çevirəcək.

S.F.Oldenburqa görə, orfoqrafiya məsələsi əlifba müzakirəsindən öncə qoyulmalıdır; bu, tədris və pedaqoji baxımdan daha faydalıdır. V.A.Qord`levskinin fikri belədir ki, qurultay proqramına SSRİ-dəki türkoloji elmi institutların vəziyyəti və gələcək vəzifələri əlavə edilməlidir. Müzakirələrdə Çobanzadə, Jirkov, Samoyloviç, Köprülüzadə, Pavloviç və başqaları iştirak edir. Beləliklə, qurultay yalnız texniki islahatlar (əlifba) yox, həm də metodoloji, pedaqoji və təşkilati problemləri açıq müzakirə edən platforma rolunu oynayır.

Moskva, Krım, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Leninqrad, Dağıstan və Azərbaycanın Yardım Komitələri çıxış edir. Baytursunun sorğusu birmənalı qarşılanmır: "Əgər Azərbaycanda artıq əlifba islahatına başlanılıbsa, qurultaya ehtiyac varmı?" Sədrin cavabı qaneedicidir: "Qurultay inzibati qərarlar verən orqan deyil, onun məqsədi elmi-praktik müzakirə, informasiya mübadiləsi və fikir birliyi yaratmaqdır". Deməli, qurultay siyasi yox, mədəni və elmi legitimlik üçün çağırılıb, türk dünyasının gələcəyinə yönələn koordinasiya və əməkdaşlıq mühiti yaradır.



СПИСОК Укомов АКП /Б/.

1.Агдамский - - - - тов. Джавад заде.
2.Агдамский - - - - " Сафаров Гасан.
3.Гянджинский - - " Шахбазов М.
4.Геокчайский - - - " Исмаил Алиев.
5.Джебраильский - - " Нагиев М.
6.Закатальский - - " Бунятов.
7.Казахский - - - - " Мир Салиев.
8.НагКарабах - - - " Саакян.
9.Кубинский - - - - " Алиханов.
10.Ленкоранский - - - " Бабаев.
11.Сальянский - - - - " [illegible]
12.Курдистанский - - " Абдурахманов.
13.Нухинский - - - - " Тагиев.
14.[illegible] - - - - - " Шахбазов А.
15.Шемахинский - - - " Халилов.
16.Шамхорский - - - " Годжаев С.

Çobanzadə və Oldenburqun fikirləri öz təsdiqini tapır: Nəvainin 500 illiyi qeyd edilsin, toplu nəşr olunsun, institutlara adı verilsin, dərnəklər yaradılsın; Nəvainin dövrünü izah edən bioqrafiya bir neçə dildə çap edilsin və qurultayda bir axşam onun xatirəsinə həsr olunsun. Qurultay həm də mədəni-mənəvi simvolların yenidən qurulması, türkdilli ədəbiyyatın ideallaşdırılması prosesidir. Nəvai bu mənada ortaq irsin simvoluna çevrilir.

Qurultaya vaxtından əvvəl gəlmiş professor T.Menzel alqışlarla qarşılanır, qurultayda iştirak edə bilməyən Vilhelm Tomsona Təşkilat Komissiyası adından təbrik teleqramı göndərilməsi qərara alınır. Qurultay SSRİ daxilində deyil, beynəlxalq səviyyədə tanınan türkoloji hadisəyə çevrilmişdir. Bu mədəni yaddaşın, elmi sistemliyin və türk xalqları arasında əlaqənin yenidən qurulması prosesinin başlanğıcıdır. Çıxışlar, protokollar və qərarlar ümumtürk birliyinin rəmzi rolunu təsdiqləyir.

| | | |
|---|---|---|
| **Ağdaş, Ağdam, Göyçay, Gəncə, Salyan, Şamaxı, Şəmkir, Nuxa** | **Azərbaycanın mərkəzi və qərb bölgələri** | **Türk və azərbaycanlı əhalinin üstünlük təşkil etdiyi klassik bölgələrdir. Bu nümayəndələr Qurultayın azərbaycanlı təmsilçilik bazasını təşkil edir.** |
| **Zaqatala, Quba** | **Dağlıq və etnik baxımdan qarışıq ərazilər** | **Ləzgilər, avarlar və digər qafqaz xalqları yaşayan bölgələrdir. Onların iştirakı SSRİ-nin multi-etnik siyasəti üçün vacib idi.** |
| **Dağlıq Qarabağ** | **Etnik erməni əhalisi üstünlük təşkil edir** | **Siyahıda erməni mənşəli Saakyan nümayəndədir. Bu, mərkəzin erməni əhalisini də Qurultaya cəlb etmək istədiyini göstərir.** |
| **Kürdüstan** | **O dövr üçün ayrıca bir inzibati bölgə kimi tanınıb** | **Kürd əhalisinin yaşadığı bölgə idi. Bu, SSRİ-nin etnik idarəçilik laboratoriyası olan ZSFSR dövrünü əks etdirir.** |
| **Naxçıvan** | **Muxtar Respublikadır** | **Qafqazda strateji yer tutan və Türkiyə ilə sərhəddə yerləşən bölgədir. Buradan nümayəndə seçilməsi vacib idi.** |
| **Lənkəran** | **Talış əhalisinin də yaşadığı bölgədir** | **Talışların dolayısı ilə təmsil olunması məqsədi güdülə bilər.** |

4 yanvar 1926-cı il Təşkilat Komissiyasının iclasında qurultayda iştirak edəcək Azərbaycan Kommunist Partiyasının rayon komitələrinin nümayəndələrinin siyahısı təsdiq olunur. Sənəddə müxtəlif bölgələrin (rayonların) partiya rəhbərlərinin adları verilmişdir. Bu siyahı qurultayın təşkilati mərhələsində, bölgələr üzrə partiya nəzarətində olan təmsilçiliyin təmin edilməsinə xidmət edir. Hər biri konkret bir inzibati rayonun partiya rəhbəri və ya məsul işçisi regional elmi-siyasi nümayəndədir.

Nəticə:

* * *

Bu siyahı Azərbaycanın əsas mədəni-etnik bölgələrinin balanslı şəkildə təmsil olunmasına çalışıldığını göstərir. Eyni zamanda, bu bölgələrin partiya rəhbərləri elmi tədbirdə yalnız elmi yox, həm də siyasi legitimlik daşıyan fiqurlar kimi çıxış etməlidir.

Partiyanın nəzarət və ideoloji çərçivəsi:

Qurultay təkcə akademik toplantı yox, həm də SSRİ üçün mədəni-inzibati nəzarət mexanizmi idi. Qurultay kontekstində SSRİ-yə sadiq yerli elita nümayəndələri "türkoloji diskursa" daxil edilirlər. Onlar elmi mövzuların siyasi yuxarı limitini müəyyənləşdirir, eyni zamanda, müasir türk kimliyinin formalaşmasında vasitəçi rolu oynayırlar. Siyahı göstərir ki, iştirakçılar yalnız alimlər deyil, eyni zamanda, yerli partiya rəhbərləridir. Bu şəxslər qurultaya ideoloji nəzarət üçün lazım idilər:

– SSRİ-nin bütün bölgələrdə elmi və mədəni "reforma"ları nəzarətə götürmək;

– Qurultayın qərarlarını yerlərdə təbliğ və tətbiq etmək;

– Partiya nəzarəti altında elmi diskussiyalara nəzarət etmək.

Adların analizi aydınlaşdırır ki, bəzi soyadlar sonralar tanınmış ictimai-siyasi fiqurlarla üst-üstə düşür (məsələn, Şahbazov, Bunyatov), elitanın generasiya təməlidirlər, SSRİ və Azərbaycan rəhbərləri arasında "sabit zümrə" yaradıcılarıdırlar. Bəziləri (Saakyan, Alixanov) milli azlıqlara mənsubdur və bu, SSRİ-nin vətəndaşlıq etnikliyi siyasətini əks etdirir, elmin partiya nəzarəti altında qurulduğu yanvar ayında qurultayla bağlı siyasi hazırlığı gücləndirir, ardıcıl olaraq Azərbaycan Kommunist (Bolşevik) Partiyası Bakı Komitəsi müraciətlər elan edir:

***Azərbaycan Kommunist Bolşevik Partiyası Bakı Komitəsi katibliyi***

***Bütün təşkilatlara (tarix və il göstərilmir):***

***192_ il***

***1926-cı il fevralın 25-də Bakıda türkoloji qurultay keçiriləcək. Qurultay 15 gün əvvəl – fevralın 10-da Azərbaycandan olan konfrans nümayəndələrinin iştirakı ilə keçiriləcək müşavirə ilə başlayacaq. Bu müşavirədə türkologiyanın bütün sahələri üzrə Azərbaycan nümayəndələrinin mövqeləri müzakirə olunacaq.***

***Sizə tapşırılır ki, fevralın 10-u saat 10–12 arası keçiriləcək müşavirədə iştirak üçün bütün Azərbaycan nümayəndələrini Bakıya göndərəsiniz.***

***Konqresdə iştirak edənlərin Bakıya gəlməsi, onların qeydiyyata alınması və yerləşdirilməsi ilə bağlı təşkilati tədbirləri Azərbaycan nümayəndə heyəti həyata keçirəcək.***

***İmza: (yoxdur) Ehtimal edilir ki, imza Əmirova məxsusdur.***

* * *

***Bütün təşkilatlara***

***25 fevralda Bakıda Türkoloji Qurultay çağırılır. Qurultaydan əvvəl, təxminən, 15 fevral tarixində, yeni türk (latın) əlifbası haqqında bəyannamə qəbul etmək məqsədilə Azərbaycan müəllimlərinin konfransı keçiriləcəkdir. Bu, Türkoloji Qurultaydan əvvəl siyasi baxımdan zəruri tədbirdir.***

***Sizə tapşırılır ki, 10–12 fevral tarixlərinədək qəzalarda konfranslar keçirib, Azərbaycan konfransına Azpros tərəfindən göstərilən qaydada nümayəndələr seçəsiniz.***

***Azərbaycan konfransında iştirak edəcək nümayəndələrin yeni (latın) əlifbasının fəal tərəfdarları olmasına xüsusi diqqət yetirilməlidir.***

***Doğruluğunu təsdiq edir: Qlebov***

# “Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2023-cü il tarixə maliyyə vəziyyəti haqqında hesabat

*Ölçü vahidi: Azərbaycan manatı*

| Bölmə/Maddələrin adı | Hesabat dövrü | | Əvvəlki dövr | |
|---|---|---|---|---|
| | 2023-cü il üzrə | | 2022-ci il üzrə | |
| **AKTİVLƏR** | | | | |
| Qeyri-maddi aktivlər | 28690,67 | 25871,07 | - | 28690,67 |
| Maşınlar və avadanlıqlar | 14823,46 | 73728,04 | 1129,73 | 14823,46 |
| Nəqliyyat vasitələri | 168976,70 | 136584,75 | 37677,97 | 168976,70 |
| Digər əsas vəsaitlər | - | 10389,05 | | - |
| Yüksək texnologiya məhsulu olan hesablama texnikası | 13852,07 | - | 9126,13 | 13852,07 |
| Cəmi uzunmüddətli aktivlər | 226342,90 | 246572,91 | 47933,83 | 226342,90 |
| Ehtiyatlar | 1044946,55 | 2327955,09 | 134408,04 | 1044946,55 |
| Qısamüddətli debitor borcları | 232332,31 | 382325,39 | 277704,98 | 232332,31 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 171518,78 | 86459,46 | 2388,87 | 171518,78 |
| Sair qısamüddətli aktivlər | - | - | 291995,08 | - |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 1448797,64 | 2796739,94 | 706496,97 | 148797,64 |
| **CƏMİ AKTİVLƏR** | 1675140,54 | 3043312,85 | 754430,80 | 1675140,54 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2010,00 | 2010,00 | 2010,00 | 2010,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 426344,20 | 685122,14 | 387175,30 | 426344,20 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 459127,99 | 885472,19 | 71952,69 | 459127,99 |
| **CƏMİ KAPİTAL** | 887482,19 | 1572604,33 | 461137,99 | 887482,19 |
| Uzunmüddətli kreditor borcları | - | 31951,16 | - | - |
| Sair uzunmüddətli öhdəliklər | 161604,74 | 564994,70 | - | 161604,74 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 161604,74 | 596945,86 | - | 161604,74 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | - | 33240,98 | - | - |
| Qısamüddətli kreditor borcları | 452212,00 | 840521,68 | 47933,83 | 452212,00 |
| Alınmış avanslar | 173841,61 | - | 245358,98 | 173841,61 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 626053,61 | 873762,66 | 293292,81 | 626053,61 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 787658,35 | 1470708,52 | 293292,81 | 787658,35 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 1675140,54 | 3043312,85 | 754430,80 | 1675140,54 |

## Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | **2010,00** | **459127,99** | **461137,99** |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | **2010,00** | **459127,99** | **461137,99** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | **426344,20** | **426344,20** |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **0,00** | **426344,20** | **887482,19** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **2010,00** | **885472,19** | **887482,19** |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | **2010,00** | **885472,19** | **887482,19** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | **685122,14** | **685122,14** |
| **Hesabat dövrü üzrə kapital-da dəyişikliklərin cəmi** | **0,00** | **685122,14** | **685122,14** |
| **Hesabat dövrünün sonuna qalıq** | **2010,00** | **1570594,33** | **1572604,33** |

## Məcmu mənfəət və zərər haqqında hesabat

| Göstəricilərin adı | Hesabat dövrü 2023-cü il üzrə | Əvvəlki dövr 2022-ci il üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 4960444,15 | 3446872,79 |
| Sair əməliyyat gəlirləri | 0,00 | 277704,98 |
| İstifadə edilmiş material ehtiyatları | -1690543,20 | -1456455,94 |
| İşçi heyəti üzrə xərclər | -1022973,73 | -983415,97 |
| Amortizasiya xərcləri və uzunmüddətli aktivlərin təqdim edilməsi və ləğv edilməsi üzrə xərclər | -50132,51 | -30344,08 |
| Digər əməliyyat xərcləri | -470958,00 | -270284,00 |
| Sair əməliyyat xərcləri | -869434,04 | -451147,53 |
| Əməliyyat mənfəəti (zərəri) | 856402,67 | 532930,25 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 856402,67 | 532930,25 |
| Mənfəət vergisi | -171280,53 | -106586,05 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 685122,14 | 426344,20 |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Hesabat dövrü 2023-cü il üzrə | Əvvəlki dövr 2022-cü il üzrə |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 685122,14 | 426344,20 |
| amortizasiya xərcləri | 50132,51 | 30344,08 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | 735254,65 | 456688,28 |
| Ehtiyatların azalması (artması) | -1283008,54 | -910538,51 |
| Əməliyyat debitor borclarının azalması (artması) | -149993,08 | 45372,67 |
| Sair qısamüddətli aktivlərin azalması (artması) | 0,00 | 291995,08 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | 33240,98 | 0,00 |
| Alınmış avansların artması (azalması) | -173841,61 | -71517,37 |
| əməliyyat kreditor borclarının artması (azalması) | 388309,68 | 404278,17 |
| Digər uzunmüddətli kreditor borclarının artması (azalması) | 31951,16 | 0,00 |
| Digər uzunmüddətli öhdəliklərin artması (azalması) | 403389,96 | 161604,74 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul və saitlərinin xalis hərəkəti** | **-749951,45** | **-78805,22** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsait-lərinin xaricolmaları | **-70362,52** | **-208753,15** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azal-ması)** | **-85059,32** | **169129,91** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **171518,78** | **2388,87** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **-85059,32** | **169129,91** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **86459,46** | **171518,78** |

**Müstəqil Auditorun Hesabatı**
***“Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:***

**Rəy №: 5nsPeF9Y2c**

**Əsas rəy**

Biz, aparılmış ətraflı, planlı və sistemli audit prosedurlarına əsaslanaraq bildiririkki, 31 dekabr 2023-cü il tarixinə “Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər üzrə Cəmiyyətin:

- maliyyə vəziyyətini,
- fəaliyyətinin maliyyə nəticələrini,
- pul vəsaitlərinin hərəkətini

**Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS)** tam uyğun olaraq **ədalətli və düzgün təqdim edir**.

Bu rəy, maliyyə hesabatlarının istifadəçilərinə Cəmiyyətin maliyyə vəziyyəti, əməliyyatların nəticələri və pul vəsaitlərinin hərəkəti barədə peşəkar və obyektiv məlumat təqdim edir.

**Rəyin Əsası**

Audit Beynəlxalq Audit Standartlarına (BAS) və Azərbaycan Respublikası Auditorlar Palatasının tələblərinə uyğun olaraq aparılmışdır. Biz Beynəlxalq Etika Standartları Şurasının (IESBA) Peşəkar Mühasiblər üçün Etika Kodeksinə uyğun olaraq müstəqil olmuş və müvafiq etik tələblərə riayət etmişik.

Hesab edirik ki, əldə etdiyimiz audit sübutları verdiyimiz rəy üçün kifayət və münasib əsas təşkil edir.

**Auditin predmeti**

Audit prosedurları aşağıdakı maliyyə hesabatlarını əhatə etmişdir:

- Maliyyə vəziyyəti haqqında hesabat (31 dekabr 2023-cü il tarixinə);
- Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat (31 dekabr 2023-cü il tarixinə başa çatan il üzrə);
- Kapitalda dəyişikliklər haqqında hesabat (31 dekabr 2023-cü il tarixinə başa çatan il üzrə);
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (31 dekabr 2023-cü il tarixinə başa çatan il üzrə);
- Əsas uçot siyasəti və digər açıqlayıcı qeydlər.

Hər bir hesabat Cəmiyyətin maliyyə əməliyyatlarının tam və dürüst əks etdirilməsini təmin etmək məqsədilə analiz edilmiş və qiymətləndirilmişdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti**

Cəmiyyətin rəhbərliyi maliyyə hesabatlarının BMHS və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun hazırlanmasına və ədalətli təqdimatına, habelə səhv və ya fırıldaqçılıq nəticəsində yaranan mühüm təhriflərin qarşısının alınması üçün zəruri daxili nəzarət sisteminin qurulmasına və saxlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- tətbiq olunan uçot siyasətlərinin seçilməsinə və tətbiqinə,
- mühasibat uçotu üzrə qiymətləndirmə və təxminlərin əsaslandırılmasına,
- fasiləsiz fəaliyyət prinsipinin qiymətləndirilməsinə və müvafiq açıqlamaların verilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik, maliyyə hesabatlarında istifadə edilən uçot siyasətini müəyyən edir, uçot təxminlərini hazırlayır və əməliyyatların düzgün hesabatını təmin etmək üçün daxili nəzarət tədbirlərini həyata keçirir.

**Müstəqillik**

Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartlarına uyğun olaraq, Cəmiyyətdən müstəqil şəkildə fəaliyyət göstəririk və auditorluq xidmətlərini göstərərkən peşəkar etik prinsiplərə riayət etmişik. Müstəqilliyimiz, rəyimizin obyektiv və etibarlı olmasını təmin edir.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarının bütövlükdə mühüm təhriflərdən azad olub-olmaması barədə əsaslı əminlik əldə etmək və audit rəyini təqdim etməkdir. Audit BAS-lara uyğun olaraq aparılmış və aşağıdakı əsas mərhələləri əhatə etmişdir:

- mühüm təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi;
- risklərə uyğun audit prosedurlarının planlaşdırılması və icrası;
- daxili nəzarət sisteminin audit məqsədləri üçün nəzərdən keçirilməsi;
- uçot siyasətlərinin uyğunluğunun və mühasibat təxminlərinin əsaslılığının qiymətləndirilməsi;
- Cəmiyyətin fasiləsiz fəaliyyətinə dair əhəmiyyətli qeyri-müəyyənliklərin təhlili;
- maliyyə hesabatlarının ümumi təqdimatının, strukturunun və məzmununun qiymətləndirilməsi.

Audit yüksəksəviyyəli əminlik təmin edir, lakin bütün mümkün səhv və ya fırıldaqçılıq hallarının aşkar ediləcəyinə tam zəmanət vermir.

**Auditorun həyata keçirdiyi əsas audit prosedurları**

Audit zamanı, o cümlədən aşağıdakı əsas prosedurlar icra edilmişdir:

- maliyyə hesabatlarının BMHS və ARAP tələblərinə uyğunluğunun yoxlanılması;
- daxili nəzarət mexanizmlərinin və maliyyə əməliyyatlarının izlənməsinin qiymətləndirilməsi;
- uçot siyasətləri, mühasibat təxminləri və açıqlamaların adekvatlığının təhlili;
- pul vəsaitlərinin hərəkəti, əsas vəsaitlər və əhəmiyyətli əməliyyatlar üzrəanalitik və substantiv prosedurların aparılması;
- audit nəticələrinin rəhbərliklə müzakirə edilməsi.

**Nəticə**

Bizim peşəkar mülahizəmizə əsasən, “ZİRƏ GÜLÇÜLÜK” QSC-nin 31 dekabr 2023-cü il tarixinə olan maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün və ədalətli təqdim edilmişdir.

**Hesabatın tarixi və saxlanması**

Müstəqil auditor hesabatı 24.12.2025-ci il tarixdə hazırlanmış və iki nüsxədə tərtib edilmişdir:

- Bir nüsxə Sifarişçi təsərrüfat subyektində saxlanılır;
- İkinci nüsxə İcraçı tərəfdə saxlanılır.

**“TREND AUDİT” MMC-nin direktoru:_________________________ S.A.Həbibzadə**

**“TREND AUDİT” MMC-nin Auditoru:_________________________ Ü.M.Məmmədov**

# “Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2024-cü il tarixə maliyyə vəziyyəti haqqında hesabat

*Ölçü vahidi: Azərbaycan manatı*

| Bölmə/Maddələrin adı | Hesabat dövrü | | Əvvəlki dövr | |
|---|---|---|---|---|
| | 2024-cü il üzrə | | 2023-cü il üzrə | |
| **AKTİVLƏR** | | | | |
| Qeyri-maddi aktivlər | 25871,07 | 23286,44 | 28690,67 | 25871,07 |
| Maşınlar və avadanlıqlar | 73728,04 | 59130,96 | 14823,46 | 73728,04 |
| Nəqliyyat vasitələri | 136584,75 | 110941,12 | 168976,70 | 136584,75 |
| Digər əsas vəsaitlər | 10389,05 | 7919,79 | - | 10389,05 |
| Yüksək texnologiya məhsulu olan hesablama texnikası | - | - | 13852,07 | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **246572,91** | **201278,31** | **226342,90** | **246572,91** |
| Ehtiyatlar | 2327955,09 | 2441135,49 | 1044946,55 | 2327955,09 |
| Qısamüddətli debitor borcları | 382325,39 | 653747,14 | 232332,31 | 382325,39 |
| Pul vəsaitləri və onların ekviva-lentləri | 86459,46 | 175902,98 | 171518,78 | 86459,46 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **2796739,94** | **3270785,61** | **1448797,64** | **2796739,94** |
| **CƏMİ AKTİVLƏR** | **3043312,85** | **3472063,92** | **1675140,54** | **3043312,85** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2010,00 | 2010,00 | 2010,00 | 2010,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 685122,14 | 524117,69 | 426344,20 | 685122,14 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 885472,19 | 1570594,33 | 459127,99 | 885472,19 |
| **CƏMİ KAPİTAL** | **1572604,33** | **2096722,01** | **887482,19** | **1572604,33** |
| Uzunmüddətli öhdəliklər | | | | |
| Uzunmüddətli kreditor borcları | 31951,16 | 405981,62 | - | 31951,16 |
| Sair uzunmüddətli öhdəliklər | 564994,70 | 5080,96 | 161604,74 | 564994,70 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **596945,86** | **411062,58** | **161604,74** | **596945,86** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 33240,98 | 2223,19 | - | 33240,98 |
| Qısamüddətli kreditor borcları | 840521,68 | 932982,44 | 452212,00 | 840521,68 |
| Alınmış avanslar | - | 29073,70 | 173841,61 | - |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **873762,66** | **964279,33** | **626053,61** | **873762,66** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1470708,52** | **1375341,91** | **787658,35** | **1470708,52** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3043312,85** | **3472063,92** | **1675140,54** | **3043312,85** |

## Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | **2010,00** | **885472,19** | **887482,19** |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | **2010,00** | **885472,19** | **887482,19** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | **685122,14** | **685122,14** |
| **Əvvəlki hesabat dövrü üzrə kapital-da dəyişikliklərin cəmi** | **0,00** | **685122,14** | **1572604,33** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **2010,00** | **1570594,33** | **1572604,33** |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | **2010,00** | **1570594,33** | **1572604,33** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | **524117,69** | **524117,69** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **0,00** | **524117,69** | **524117,69** |
| **Hesabat dövrünün sonuna qalıq** | **2010,00** | **2094712,01** | **2096722,01** |

## Məcmu mənfəət və zərər haqqında hesabat

| Göstəricilərin adı | Hesabat dövrü 2024-cü il üzrə | Əvvəlki dövr 2023-cü il üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 4577298,25 | 4960444,15 |
| İstifadə edilmiş material ehtiyatları | -1830919,30 | -1690543,20 |
| İşçi heyəti üzrə xərclər | -1095997,30 | -1022973,73 |
| Amortizasiya xərcləri və uzunmüddətli aktivlərin təqdim edilməsi və ləğv edilməsi üzrə xərclər | -45294,60 | -50132,51 |
| Digər əməliyyat xərcləri | -195818,65 | -470958,00 |
| Sair əməliyyat xərcləri | -754121,29 | -869434,04 |
| Əməliyyat mənfəəti (zərəri) | 655147,11 | 856402,67 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 655147,11 | 856402,67 |
| Mənfəət vergisi | -131029,42 | -171280,53 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 524117,69 | 685122,14 |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Hesabat dövrü 2024-cü il üzrə | Əvvəlki dövr 2023-cü il üzrə |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 524117,69 | 685122,14 |
| amortizasiya xərcləri | 45294,60 | 50132,51 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | 569412,29 | 735254,65 |
| Ehtiyatların azalması (artması) | -113180,40 | -1283008,54 |
| Əməliyyat debitor borclarının azalması (artması) | -271421,75 | -149993,08 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | -31017,79 | 33240,98 |
| Alınmış avansların artması (azalması) | 29073,70 | -173841,61 |
| əməliyyat kreditor borclarının artması (azalması) | 92460,76 | 388309,68 |
| Digər uzunmüddətli kreditor borclarının artması (azal-ması) | 374030,46 | 31951,16 |
| Digər uzunmüddətli öhdəliklərin artması (azalması) | -559913,74 | 403389,96 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-479968,76** | **-749951,45** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddiaktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | **0,00** | **-70362,52** |
| **Pul və saitləri və onların ekvivalentlərinin artması (azalması)** | **89443,53** | **-85059,32** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və on-ların ekvivalentlərinin ilinə əvvəlinə olan məbləği** | **86459,46** | **171518,78** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **89443,52** | **-85059,32** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və on-ların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **175902,98** | **86459,46** |

**“TREND AUDİT” MMC**
VÖEN 1806944321

**Müstəqil Auditorun Hesabatı**
***“Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:***

**Rəy №: kmcP9UTEUD**

**Əsas rəy**

Biz, aparılmış ətraflı, planlı və sistemli audit prosedurlarına əsaslanaraq bildiririk ki, 31 dekabr 2024-cü il tarixinə “Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyətinin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər üzrə Cəmiyyətin:

maliyyə vəziyyətini,
fəaliyyətinin maliyyə nəticələrini,
pul vəsaitlərinin hərəkətini

Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) tam uyğun olaraq ədalətli və düzgün təqdim edir.

Bu rəy, maliyyə hesabatlarının istifadəçilərinə Cəmiyyətin maliyyə vəziyyəti, əməliyyatların nəticələri və pul vəsaitlərinin hərəkəti barədə peşəkar və obyektiv məlumat təqdim edir.

**Rəyin Əsası**

Audit Beynəlxalq Audit Standartlarına (BAS) və Azərbaycan Respublikası Auditorlar Palatasının tələblərinə uyğun olaraq aparılmışdır. Biz Beynəlxalq Etika Standartları Şurasının (IESBA) Peşəkar Mühasiblər üçün Etika Kodeksinə uyğun olaraq müstəqil olmuş və müvafiq etik tələblərə riayət etmişik.

Hesab edirik ki, əldə etdiyimiz audit sübutları verdiyimiz rəy üçün kifayət və münasib əsas təşkil edir.

**Auditin predmeti**

Audit prosedurları aşağıdakı maliyyə hesabatlarını əhatə etmişdir:

- Maliyyə vəziyyəti haqqında hesabat (31 dekabr 2024-cü il tarixinə);
- Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat (31 dekabr 2024-cü il tarixinə başa çatan il üzrə);
- Kapitalda dəyişikliklər haqqında hesabat (31 dekabr 2024-cü il tarixinə başa çatan il üzrə);
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (31 dekabr 2024-cü il tarixinə başa çatan il üzrə);

“Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyəti
Auditor Rəyi (davamı)

- Əsas uçot siyasəti və digər açıqlayıcı qeydlər.

Hər bir hesabat Cəmiyyətin maliyyə əməliyyatlarının tam və dürüst əks etdirilməsini təmin etmək məqsədilə analiz edilmiş və qiymətləndirilmişdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti**

Cəmiyyətin rəhbərliyi maliyyə hesabatlarının BMHS və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun hazırlanmasına və ədalətli təqdimatına, habelə səhv və ya fırıldaqçılıq nəticəsində yaranan mühüm təhriflərin qarşısının alınması üçün zəruri daxili nəzarət sisteminin qurulmasına və saxlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- tətbiq olunan uçot siyasətlərinin seçilməsinə və tətbiqinə,
- mühasibat uçotu üzrə qiymətləndirmə və təxminlərin əsaslandırılmasına,
- fasiləsiz fəaliyyət prinsipinin qiymətləndirilməsinə və müvafiq açıqlamaların verilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik, maliyyə hesabatlarında istifadə edilən uçot siyasətini müəyyən edir, uçot təxminlərini hazırlayır və əməliyyatların düzgün hesabatını təmin etmək üçün daxili nəzarət tədbirlərini həyata keçirir.

**Müstəqillik**

Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartlarına uyğun olaraq, Cəmiyyətdən müstəqil şəkildə fəaliyyət göstəririk və auditorluq xidmətlərini göstərərkən peşəkar etik prinsiplərə riayət etmişik. Müstəqilliyimiz, rəyimizin obyektiv və etibarlı olmasını təmin edir.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarının bütövlükdə mühüm təhriflərdən azad olub-olmaması barədə əsaslı əminlik əldə etmək və audit rəyini təqdim etməkdir.

Audit BAS-lara uyğun olaraq aparılmış və aşağıdakı əsas mərhələləri əhatə etmişdir:

- mühüm təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi;
- risklərə uyğun audit prosedurlarının planlaşdırılması və icrası;
- daxili nəzarət sisteminin audit məqsədləri üçün nəzərdən keçirilməsi;
- uçot siyasətlərinin uyğunluğunun və mühasibat təxminlərinin əsaslılığının qiymətləndirilməsi;
- Cəmiyyətin fasiləsiz fəaliyyətinə dair əhəmiyyətli qeyri-müəyyənliklərin təhlili;

“TREND AUDİT” MMC Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Maştağa ŞTQ, Daş Karxanası, ev 15. Tel: 077 600 46 66, 055 715 34 36, 010 318 27 74

“Zirə Gülçülük” Qapalı Səhmdar Cəmiyyəti
Auditor Rəyi (davamı)

- maliyyə hesabatlarının ümumi təqdimatının, strukturunun və məzmununun qiymətləndirilməsi.

Audit yüksək səviyyəli əminlik təmin edir, lakin bütün mümkün səhv və ya fırıldaqçılıq hallarının aşkar ediləcəyinə tam zəmanət vermir.

**Auditorun həyata keçirdiyi əsas audit prosedurları**

Audit zamanı, o cümlədən aşağıdakı əsas prosedurlar icra edilmişdir:

- maliyyə hesabatlarının BMHS və ARAP tələblərinə uyğunluğunun yoxlanılması;
- daxili nəzarət mexanizmlərinin və maliyyə əməliyyatlarının izlənməsinin qiymətləndirilməsi;
- uçot siyasətləri, mühasibat təxminləri və açıqlamaların adekvatlığının təhlili;
- pul vəsaitlərinin hərəkəti, əsas vəsaitlər və əhəmiyyətli əməliyyatlar üzrə analitik və substantiv prosedurların aparılması;

audit nəticələrinin rəhbərliklə müzakirə edilməsi.

**Nəticə**

Bizim peşəkar mülahizəmizə əsasən, “ZİRƏ GÜLÇÜLÜK” QSC-nin 31 dekabr 2024-cü il tarixinə olan maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün və ədalətli təqdim edilmişdir.

**Hesabatın tarixi və saxlanması**

Müstəqil auditor hesabatı 25.12.2025-ci il tarixdə hazırlanmış və iki nüsxədə tərtib edilmişdir:

- Bir nüsxə Sifarişçi təsərrüfat subyektində saxlanılır;
- İkinci nüsxə İcraçı tərəfdə saxlanılır.

**“TREND AUDİT” MMC-nin direktoru:_________________________ S.A.Həbibzadə**

**“TREND AUDİT” MMC-nin Auditoru:_________________________Ü.M.Məmmədov**

# “Sabunçuavtomatikaquraşdırma” ASC səhmdarlarının nəzərinə!

15 aprel 2026-cı il saat 10.00-da “Sabunçuavtomatikaquraşdırma” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəliyə çıxarılan məsələlər:

1. Səhmdar cəmiyyətin 2025-ci il üçün balans yekunlarının təhlili.
2. Dividendlərin bölünməsi.
3. Səhmdar cəmiyyətin daşınmaz əmlakının bir hissəsinin – MTTS sahəsinin satışa çıxarılması haqqında.
4. 2026-cı ildə qarşıda duran məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon 450-93-19  450-98-26.

Ünvan – Bakı şəhəri, Sabunçu qəsəbəsi, Ə.Bağırov küçəsi 10.

# B İ L D İ R İ Ş

Bir Kredit “Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti (əvvəlki adı ilə Birkart BOKT MMC) Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 15 fevral 2021-ci il tarixli, SA-0214 qeydiyyat nömrəli, Bir Kredit “Bank Olmayan Kredit Təşkilatı”na sığorta agenti fəaliyyətinə aid verilmiş lisenziyanın itdiyini elan edir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 37 (31006) 26 fevral 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### UEFA Çempionlar Liqasının pley-off görüşləri



**Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının pley-off mərhələsində cavab oyununu keçirib. İngiltərənin "Nyukasl" komandası ilə qarşılaşan Qurban Qurbanovun yetirmələri 2:3 hesabı ilə uduzub.**

Ev sahiblərinin qollarını Sandro Tonali (5), Joelinton (6) və Sven Botman (52) vurublar. Ağdam təmsilçisinin heyətində isə Kamilo Duran (51) və Elvin Cəfərquliyev (57) fərqləniblər. İlk matçda da rəqibinə uduzan (1:6) "köhlən atlar" Çempionlar Liqasında çıxışlarını başa vurub

Pley-off mərhələsinin digər görüşlərində aşağıdakı nəticələr qeydə alınıb:

"Atletiko" (İspaniya) – "Brügge" (Belçika) 4:1 (3:3), "Bayer 04" (Almaniya) – "Olimpiakos" (Yunanıstan) 0:0 (2:0), "İnter" (İtaliya) – "Budyo Qlimt" (Norveç) 1:2 (1:3). Beləliklə "Atletiko", "Nyukasl", "Bayer 04" və "Budyo Qlimt" komandaları növbəti raunda vəsiqə qazanıblar.

### Cüdo hakimləri üçün seminar



**Beynəlxalq Cüdo Federasiyası Akademiyasının idman direktoru Daniel Laskaunun təqdimatında Azərbaycan Cüdo Federasiyasının (ACF) hakimlər heyətinin üzvləri üçün seminar təşkil olunub.**

ACF-dən verilən məlumata görə, məşğələnin əsas məqsədi hakimlərin nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılması, beynəlxalq qaydalardakı son yeniliklərin izahı və yarışların idarə olunmasında vahid yanaşmanın təmin edilməsi olub. Tədbir çərçivəsində , qiymətləndirmə meyarları, video-təkrar (VAR) sisteminin tətbiqi və mübahisəli epizodların düzgün şərhi ətrafında geniş müzakirələr aparılıb.

Daniel Laskau çıxışında beynəlxalq turnirlərdə hakimliyin keyfiyyətinin artırılmasının vacibliyini vurğulayaraq bildirib ki, milli federasiyalarda təşkil olunan bu cür maarifləndirici seminarlar hakimlərin peşəkar inkişafında mühüm rol oynayır. O, interaktiv təqdimatlar və praktiki nümunələr vasitəsilə iştirakçıların suallarını cavablandırıb, real yarış situasiyaları üzərində təhlillər aparıb.

Seminarda respublika dərəcəli və beynəlxalq kateqoriyalı hakimlər iştirak ediblər. Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.

### Voleybolçu qızların seçimi

**Azərbaycan Voleybol Federasiyasının (AVF) yeniyetmə və gənc qız voleybolçular arasında keçirdiyi seleksiya prosesi başa çatıb.**

AVF-dən verilən məlumata görə, "Seçim günü"nün son mərhələsi Naxçıvanda təşkil olunub.

Qurumun Naxçıvan filialında məşq edən 2012–2013-cü il təvəllüdlü 100-ə yaxın voleybolçunun hazırlıq səviyyəsi yeniyetmə və gənc qızlardan ibarət milli komandaların rəhbəri Şahin Çatma tərəfindən yoxlanılıb.

Seçim zamanı idmançılar müəyyən olunmuş normativlər üzrə sınaqlardan keçirilib, onların fiziki və texniki göstəriciləri məşqçilər heyəti tərəfindən qeydə alınıb. Seçim mərhələsini uğurla keçən idmançılar növbəti aylarda federasiya tərəfindən təşkil olunacaq təlim-məşq toplanışlarına cəlb olunacaqlar.

*Qabil YUSİFOĞLU*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin əməkdaşları iş yoldaşları Zöhrab Bağırova anası

**SURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Şakir Yaqubov – 75*

# Onun milli jurnalistikada yeri görünür





**Onu jurnalist həmkarları universal professional adlandırırdılar. Siyasətdən tutmuş idmana, sosial probemlərdən hüquqi mövzulara qədər sanballı və oxunaqlı məqalələr onun qələminin məhsulu olub.**

Dünən Azərbaycan Mətbuat Şurasında Əməkdar mədəniyyət işçisi Şakir Yaqubovun 75 illiyi münasibətilə düzənlənən tədbirdə mərhum jurnalistin qələm dostları, iş yoldaşları, yetirmələri, eləcə də ailə üzvləri iştirak edirdilər.

Mətbuat Şurasının sədri Rəşad Məcid tanınmış qələm sahibinin mətbu sözə bütün varlığı ilə bağlı olduğunu, jurnalistikanı özünün həyat amalına çevirdiyini qeyd etdi. Onun sözlərinə görə, Şakir Yaqubov peşəsini yalnız icra etmir, həm də onunla nəfəs alır, yaşayırdı: "O, müxtəlif janrlarda yazdığı kitablar və çoxsaylı qəzet məqalələri ilə mətbuat tarixində özünəməxsus iz qoyub. Şakir Yaqubov çox istedadlı qələm sahibi olmaqla yanaşı, redaktorluq sənətinin də incəliklərini dərindən bilən peşəkar jurnalist idi. Onun redaktəsindən keçən yazılar sanki yenidən formalaşır, zəif görünən mətnlər belə daha dolğun məzmun və ifadə gücü qazanaraq oxucuya təqdim olunurdu. Sözə həssas yanaşması və peşəkar ustalığı ilə hər zaman nümunə göstərilən sənətkar kimi xatırlanacaq".

MŞ-nın Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlu Şakir Yaqubovu ötən əsrin ortalarından etibarən Azərbaycanda formalaşan jurnalistika məktəbinin, milli mətbuatın ən parlaq nümayəndələrindən biri kimi səciyyələndirdi.

Daha sonra çıxış edənlər – Əməkdar mədəniyyət işçiləri Qüdrət Piriyev, Müsəllim Həsənov Şakir Yaqubovun dostluqda sadaqətindən, gənclərə qayğısından, tələbə yoldaşı Hüseyn Qaraşov onun zəngin mənəvi aləmindən, tanınmış jurnalist Hikmət Sabiroğlu ana dilinin əsl cəfakeşi olmasından, həmkarı və yaxın dostu Hacı Mehman ailəcanlılığından, düzgünlüyü və halallığından, Əməkdar jurnalistlər Elşən Əliyev, Sədaqət Kərimova, Əntiqə Qonaq Şakir Yaqubovun zəngin yaradıcılığından və ustadlıq missiyasından söz açdılar.

"Səhər" qəzetində mərhum jurnalistlə bir yerdə çalışmış Svetlana Rəşid, Zemfira Ələkbərova, Sənubər Qasımova, İmran Bədirxanlı, Seymur Elsevər həm özlərinin, həm də bu gün Azərbaycan mətbuatında imzaları ilə tanınan bir çox istedadlı jurnalistlərin yetişməsində Şakir Yaqubovun xidmətlərini xatırlatdılar, ustad redaktorla bağlı xatirələrini dilə gətirdilər.

Çıxış edən digər natiqlər də adı daim hörmətlə anılacaq böyük sənətkarın həm rəngarəng yaradıcılığından, həm peşəsinin fədakarı kimi, həm də ədalətli və prinsipial insan kimi keyfiyyətlərindən danışdılar.

Diqqətə çatdırıldı ki, Şakir Yaqubov milli jurnalistikanın inkişafı naminə göstərdiyi xidmətlərinə görə Azərbaycan Mətbuat Şurasının Ali Media Mükafatına, "Qızıl qələm" və "Həsən bəy Zərdabi" və 10-dək yaradıcılıq müsabiqəsinin mükafatlarına layiq görülüb. O, 2 dəfə Əməkdar mədəniyyət işçisi və "Azərbaycan Respublikasının fəxri auditoru" adını alan yeganə jurnalistdir.

Böyük qəlbli insanın, ustad sənətkarın xatirəsini əziz tutub tədbirə gələnlərin hamısı bu fikirdə həmrəy idilər: bu gün milli jurnalistikamızda Şakir Yaqubovun yeri görünür, onun sözünə ehtiyac duyulur.

Sonda Şakir Yaqubovun "Taleyimdən keçənlər", "Yaddaşımın küncündən…", "Bir az da futbol(umuz)dan", "Banişevski olduğu kimi" kitabları iştirakçılara təqdim olundu.

*İ.HƏSƏNQALA*
*XQ*

*Ömür təqvimi*

# "Boz ay" – hər günü, sanki, özgə bir ay...

**İnsan bu dünyanı görə-görə, yora-yora gəlir. Günlər, aylar, illər bir-birini əvəz edir. Yadda qalan günlər, aylar, illər bir müddətdən sonra şirincə yuxunu xatırladır. Xatirəyə dönən günlər acılı-şirinli və çoxçalarlı olur. İnsan acılı-şirinli xatirələrini unudursa, demək yaşamır.**

Günləri saya-saya fevral ayının sonuna gəlib çıxdıq. Ay demişkən, belə rəvayət edirlər ki, qədim zamanlarda ayların adı yox imiş. Bu səbəbdən də ilin, ayın günləri insanları çaşdırırmış. Ona görə də camaat ilin günlərini aylara bölmək qərarına gəlir. Bölgüyə görə, hər aya 32 gün düşür, "boz ay"a 14 gün qalır. O da inciyib deyir ki, necə yəni hamının payına çox gün düşür, mənim payıma az?! Ona görə də hər aydan bir gün alıb "boz ay"a verirlər, olur 25 gün. Görürlər yox, "boz ay"ın qaş-qabağı açılmır. Aylardan bir neçəsi deyir ki, biz 1 günümüzü də "boz ay"a bağışlayırıq, təki xətri xoş olsun, bizdən incik qalmasın... Beləliklə, "boz ay"ın 28-29 günü olur. Ona görə də rahat nəfəs alır və dövranını sürməyə başlayır.

"Boz ay"ın günləri bəzən hirsindən cin atına minir, bəzən bomboz bozarır. Təbiətin belə yersiz hirslənməsindən qar altında güllər utanıb qızarır. Külək də ikiüzlü adamlar kimi qışa – getmə, yaza – gəl, – deyir. Qış bir az da yaşamaq istəyir, bahar isə görüşə tələsir.

*Bir yanında qar,*
*Birində bahar...*
*Nərgiz dərdim bir dəstə,*
*Ətri gözəl, boyu bəstə...*

"Boz ay" fevralın 21-dən başlayıb. Bu ay xalq arasında qış fəslinin sonuncu ayı adlanır. Kiçik çillənin qurtardığı gündən yazın ilk gününədək – Novruz bayramına qədər davam edir və həftələr 4 çərşənbəyə bölünür.

İş burasındadır ki, ağlar-gülər deyilən bu ay günləri o biri aylardan aldığına görə, biri qışı, bir başqası yazı xatırladır. Bir də görürsən ki, "boz ay"ın bəzi günlərində sabah yelləri qanad açır. Bəzi günlərində isə Torpaq Günəşə öpüş verir.

Yolumuzu gah çiçəklər bəzəyir, gah da dumanlar kəsir. Bahar buludu torpağa təzəcə kölgə salır. Sonra da üfüqlərdə işıqlı bir səhər açılır. Torpağın ətri ilə göylərin ətri bir-birinə qarışır. Günəş işığı, həyat sevinci ömrümüzü bəzəyir. Yer Günəşi sevən kimi, insan da işığı sevir. Çəmənin otları Günəş işığı görəndə cücərməyə başlayır. Günəş işığı ana torpağın üstündə yanar çırağa dönür.

Çöllərə səda düşür, güllər oyanır. Sarı-sarı nərgizlərin ətri bağlara-bağçalara, çöllərə yayılır. İnsan duyğularla yaşadığına görə, şirin bir duyğuyla gördüklərindən fərəhlənir.

Hərdən-hərdən, uzaq üfüqlərdən Günəş gülümsəyəndə yerdə qışın ürəyinə xal düşür. Biri gün deyəndə, o biri şaxta deyir. Ulularımız, ağbirçəklərimiz doğru deyiblər ki, "boz ay"a etibar yoxdur. "boz ay"ın qəzəbindən qorunmaq üçün onu həftələrə bölüblər. Həftələrin tamamı çərşənbə günlərində qeyd olunur. Çərşənbə axşamlarında evlərin həyətində alagöz ocaqlar çatılar. Cavanlar da səməndərə dönüb odun üstündən atılar. "Ağırlığım, uğurluğum" odda yansın deyər.



Qədim inanclara görə, bununla da ilin ağrı-acısı, kini-küdurəti, uğursuzluğu adamın yaxasından əl çəkər, odda yanar. Bu inanclar həm tarixin yazılı, yazısız soraqlarında, həm də insanların vərdişində, yaddaşında yaşayır. Ruhun ən dərin və görünməz qatlarına baş vurduqca düşüncəmizdə sirli-sehrli bir aləmə düşürük. Dünyaya gəlişimizdən gedişimizəcən bu gözəl adətlərimiz ömrümüzü bəzəyir. Yüz illərin o üzündən bizimlə yol gedən o qədər gözəl adətlərimiz var ki...

Çərşənbə axşamlarında ət, aş, yarma yeməyi bişirmək, qovurğa qovurmaq, yumurta boyamaq ta qədimlərdən dəbdədir və bu günümüzdə də yaşayır. Yaxşı yadımdadır, çərşənbə axşamlarında bibilərim (Borçalıda bibiyə mama deyirlər), xalalarım bir yerə yığılardılar. Onları bir yerdə görəndə çox sevinirdim. O xoşxasiyyətli, gülərüzlü xalalarım, bibilərim anamla birlikdə çox dadlı bayram yeməkləri bişirərdi. Ocağımızın bayram bişmişindən qonşulara pay göndərərdilər, imkansız ailələri də sevindirərdilər. Deyərdilər ki, imkansıza, köməksizə verilən bir pay nə vaxtsa on qat artıb pay verənin öz ocağına qayıdır.

Bu həftə çərşənbənin birini yola saldıq. Hər gələn günlər, həftələr, çərşənbələr Vətənimizə, ailə-ocağımıza düşərli olsun. Uca Tanrım süfrələrimizə ruzi, bərəkət, canımıza sağlıq versin.

Azad yurdumuzun qucağında min bir hikmət gizlənir. Çiçəklər, güllər, xarıbülbüllər ömrümüzə, günümüzə ətir saçır, nur saçır. Quşlar da öz yuvasına, yurdun təmiz havasına sığınır. Belədə insan sabaha şirin bir ümidlə baxır. Hər yeni düymə bağlayan bir gül qönçəsi, puçurlanan budaqların ən incəsi bir körpəyə bənzəyir.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

## HAVA

# Paytaxtda çiskin, rayonlarda yağış, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 3-5° isti, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət isə 75-85 % təşkil edəcək.



Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 3-7° isti, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2920
SİFARİŞ 262
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00